# ULDUZ

www.azyb.az
www.ayb.az

- “Ulduz” jurnalı ilə “Xalq qəzeti” TV-nin yeni layihəsi: Qulu Ağsəslə yazıçı Hidayət Orucovun “Ayrı söhbət”i
- XX əsr Danimarka şeiri
- Tam anlamıyla Anar
- Pərvanə Bayramqızının essesi
- Günel Mehrinin “Sarmaşıq”ı
- Yeni imzalar

*" Bir halda ki, yaşamaq istəyirsən, deməli, sevdiyin nələrsə var..."*

*Erix Mariya Remark*



AYLIQ ƏDƏBİYYAT DƏRGİSİ
№01-02 (661) yanvar-fevral 2025

# BU SAYIMIZDA

ULDUZ №01-02 (661) yanvar-fevral 2024

**Pərvanə BAYRAMQIZI** 3
Özüylə söhbəti və essesi

**Gülsadə İBRAHİMLİ** 8
Rəsmini gördüm...

**Qulu AĞSƏSİN Hidayət ORUCOVLA** 11
“Ayrı söhbət”i

**Qəndab ƏLİYEVA** 20
Qaranlığın o üzündə

**Anar ADİL** 23
Kloun Muğuş

**Həyat ŞƏMİ** 26
Tam anlamıyla Anar

**Əkbər QOŞALI** 29
Atamın sözləri düşür yadıma...

**Sevinc ELSEVƏR** 33
Gizlənpaç

**Günel AĞAZADƏ** 38
Yuxulu gerçəklər

**Şəfa VƏLİ** 40
“Ulduz”da “Genç yürekler”















**Təsisçilər:**
Azərbaycan Yazıçılar Birliyi və “Ulduz” jurnalının kollektivi

**Baş redaktor:**
QULU AĞSƏS

**Redaksiya heyəti:**
Təranə Vahid (Baş redaktor müavini), Hicran Hüseynova (şöbə redaktoru), Dayandur Sevgin (şöbə redaktoru), Taleh Mansur (şöbə redaktoru), Anar Amin, Allahşükür Ağa, Baloğlan Cəlil (Başqırdıstan), Cavid Zeynallı, Elxan Yurdoğlu, Elmar Vüqarlı, Elşən Əzim, Elxan Elatlı, Ələmdar Cabbarlı, Əyyub Qiyas, Furqan, Fuad Cəfərli, Gülnar Ümid, Günay Səma (Voronej), Həyat Şəmi, Hafiz Hacxalıl, Xəyal Rza, Xaqanı Qayıblı (Estoniya), Qılman İman, Nurənə Nur, Nargis, Nilufər Şıxlı (Moskva), Məshəti Musa, Orxan Cuvarlı, Rəsmiyyə Sabir, Səhər Əhməd, Seyfəddin Altaylı (Türkiyə), Saodat Muxammadova (Özbəkistan), Nazim Muradov (Şimali Kipr Türk Respublikası), Şəfa Vəli, Ulucay Akif.

**Bədii redaktor:**
Ədalət Həsən

**Ünvanı:**
AZ1000, Bakı, Xaqani küçəsi, 25 ulduz_dergisi@mail.ru; www.ayb.az
Telefon: (+99412)498-72-43
Çapa imzalanıb: 14.01.2025.
“Ulduz” jurnalı redaksiyasında yığılıb, səhifələnib.
**“ASPOLİQRAF LTD” MMC-də** çap olunub.
Sifariş №00, Tiraj: 300.
Qiyməti: 2 man.
1967-ci ildən çıxır.
Şəhadətnamə №238










47 **Tərcümə saatı**

48 **Pərvin ƏLİYEVA**
İnsanxana

53 **Tribuna**

60 **Zöhrab MEHDİ**
Hər şey ayrılıqdı

64 **Ayna ASİMQIZI**
Vətənim sənsən

70 **Gəray GÖYYURD**
Vətən şeirləri

74 **İlahə SƏFƏRZADƏ**
Qəlblərə yol tapan poeziya

77 **Zəhra NAMAZLI**
Tarixin kölgəsində

82 **Günel MEHRİ**
Sarmaşıq

88 **Dərgidə kitab**




**"AZƏRMƏTBUATYAYIMI"**
**AÇIQ SƏHMDAR**
**CƏMİYYƏTİ**

**"Ulduz"** jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon "Mətbuatyayımı" şöbələrinə müraciət etməyiniz kifayətdir.

**"QAYA"**
**MƏTBUAT YAYIMI**

**"Ulduz"** jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon "QAYA" mətbuat yayımı şöbələrinə müraciət etməyiniz kifayətdir.

**Jurnalın**
**satış qiyməti – 2.00 man.**
**abunə qiyməti – 2.00 man.**

**Bakı şəhərində abunə yazılmaq istəyənlər:**

**441-19-91**
**440-16-26**

**566 – 77 – 80**

# Özüylə söhbəti...



Pərvanə BAYRAMQIZI

**…söhbətə hardan başlayacağını bilməmək mənəvi yoxsulluğun adamı ələ verməsidir. Demək, narahat olduğun mövzu, bölüşmək istədiyin fikir, ötürmək istədiyin ideya, yerinə yetirəcəyin missiyan yoxdur.**

**Ağlından keçən hər xırdalığı sözün boğazına bağlamaq da söhbət etmək sayılmaz.**

**Söhbət etmək nəfəs almaq, qidalanmaq qədər vacibdir, ruhun ehtiyacıdır, baxır kimlə nədən danışmağına.**

**Özünlə söhbət etmək özgəni yormaqdan yaxşıdır.**

Yaxşı həmsöhbəti də hər istəyəndə tapmaq olmur. Yaxşı həmsöhbəti axtarmırlar da. Rastına qəfil çıxır. Küçədə, parkda, avtobusda on dəqiqəlik yolda kəlmə kəsdiyin adamların arasında özünə həmsöhbət tapanda məmnun olursan. Danışdığın hər kəslə deyil, yalnız biri ilə sözün tutur. Bircəciyi sənin kimi düşünür. Sənə doğmalaşan da o olur. Beş-altı fikrin uyğun gələn adamı az qalırsan bağrına basıb "yaxşı ki, səni tapdım" deyəsən. Biz özümüz kimi adamları sevirik. Ona görə dostu pis olanlardan qaçırıq. Onun da öz mənəviyyatına uyğun adam tapdığını düşünürük.

Dövrümüzdə söhbət canlı halından xeyli uzaqlaşıb. Adamlar bir-biri ilə daha çox virtual söhbət aparırlar. Fərq etmir videozəng, ya da inboks söhbəti, məqsəd fikir mübadiləsi aparmaqdır.

Ən geniş dialoq statuslardır. Nə olsun ki, onu şəxs təkcə yazır, yalnız profilindən paylaşır. Bu da öz fikrinə ətrafdakıları cəlb eləyib söhbət yaratmaq niyyətidir.

Söhbətə nöqtə ilə başlayanda bitmirmiş... Uzanırmış... dərinləşirmiş... adam özünə həmdəm tapırmış. Nöqtə axırda qoyulanda sonluq anlayışı kimi qəbul edilsə də, əvvəldə qoyulanda nəyinsə başlanğıcı olur.

Həmsöhbətlər bir-birində özünü axtarmağa başlayır. "Hansı fikrimiz üst-üstə düşür", "eyni hadisə haqqında o necə düşünür", "düşüncələrimlə razılaşırmı?" suallarına cavab axtarır. Cavab tapılanda münasibətlər ona uyğun olaraq ya istiləşir, ya da buza dönür.

Söhbətdən doğma insan tapmaq xoşbəxtlikdir. Doğma o kəsdir ki, özünü onda görürsən, onu da özündə.

Bəzən də adamın bir-birini gözü tutanda söhbət eyni yola çıxmaq üçün istiqamət olur.

Söhbətcil deyiləm. Ən çox söhbətləşdiyim özüməm. Nə sözümü kəsirəm, nə də üstümə acıqlanıram. Heç mənim mənimlə razılaşacağımı da ummuram. Gözümü yumub ağzımı da açmıram. Asta-asta, aramla danışıram.

Özümə sualım çoxdur, amma əksər vaxt susuram. Özgəyə sual vermirəm. Mə-

nə verdikləri sualın cavabını da adamların özlərindən soruşmuram. Səmimi olmayacaqlarını bilirəm. Ürəyindən gələni danışmayanla kəlmə kəsmək mənə çətindir. Əsl fikrini dəyişib vəziyyətin tələb etdiyi şəklə salan adamla dialoqa ayrılan vaxta heyfim gəlir.

Sənlə danışmağı, səndən danışmağı sevirəm.

Həmsöhbətim, həmdəmim, həmfikrim sənsən.

Sən olmayan şəhərdə yaşaya bilmərəm, sən olan şəhərdə də səni görmürəm. Ayrılıqların məskənidir şəhərimiz.

Hərdən özümdən soruşuram: yadındadır?

... məndəki mən bu sualı sevmir. Deyir, keçmişi unut. Nə qədər ki orda qalacaqsan, yaşaya bilməyəcəksən.

Amma bu gün bir keçmiş xatirə özünü söhbətin arasına zorla pərçimləyir.

Bu şəhərdə baş vermişdi o hadisə…

Mehdi Hüseyn küçəsi. Uşaqlıq illərimdə bu ünvanı efirdə aparıcıdan eşidib həmin ünvanda yerləşən telestudiyaya məktub yazmışdım. Böyüyəndə həmin ünvana özüm getdim. Elə oralarda xatırlamaq istəmədiyim, xatirimdən çıxmayan xatirəm oldu. Acı bir xatirə...

Qış idi…ya da yazmıram.

Hindlər həyatımdan kino çəksəydilər, yəqin ki, əvvəlcə küçədəki o hadisəni ekranlaşdırar, ardınca da ötüb keçmiş iyirmi ildən sonrakı məni həmin yerdə bir qədər yaşa dolmuş vəziyyətdə göstərərdilər. Tamaşaçılar indi əvvəlkitək itaətkar yox, bir az cəsarətlənmiş qadın görərdilər.

Bu payız həmin yerdən keçdim. Amma həmin adam deyildim. Keçmişi yaxasından qoparıb atmaq istəyən, təzədən həyata bağlanan, ağrı-acıları unutmaqla mübarizədə qalib çıxmağa çalışan mən vardım. Deyəsən, bacarıram. Addımlarımı yanımla addımlayanın addımlarına çatdırmaq istədikcə hiss etdim, keçmiş artıq mənə çata bilmir. Keçmək istəyirdim... ömrün narahat günlərini çınqıl, toz-torpaq kimi ayaqlayıb ötmək istəyirdim.

Hamıdan uzaqlaşıb öz dünyana çəkiləndə görürsən, orda hər kəsdən gizlətdiyin, balan kimi qoruduğun nəsə qalıb. O, sirdir. O sənindir. O sənsən. Elə duyğular var, onu ağıl qoruyur. Beyin düşüncənin qəfəsidir. Ürəyin sağı-solu olmur. İstəyəndə sevir, istəyəndə nifrət edir. Beyin onun işinə qarışmasa, bəlkə də, gündə bir oyun çıxarar. Kimi qəlbi, kimi də ağlı ilə yola getmir. Bunların hamısını bir yerdə taraz saxlaya bilənlərin əzabı çox olur. Nümunəvi insan kimi cəmiyyət onları qəbul edir, nələr çəkdiklərindənsə heç kəsin xəbəri olmur.

Xoşbəxtliyimizin dəmir barmaqlığı – “adama nə deyərlər” ifadəsi cümlənin (həyatımızın) əvvəlinə, ortasına möhkəmcə qaynaqlanıb. “Axırında” yazmadım. Ümid... hə, ümid...

Qandalladığımız, buxovladığımız hisslərdən bizi qələm xilas etməyə çalışır, ağılsa ruha göz verib işıq vermir.

Adam daima xəyal etdiyi məqamı yaşayanda gerçəyi xülyadan ayıra bilmir. Beyin o anları fikrən hər gün yaşadığından əmələ dönəndə anlamır. Elə bilir, sahibi yenə xəyala dalıb.

Xəyala oxşar gözəl günlər üstünə payız xəzəli kimi töküləndə... belə payızı sevməzsənmi?

Payızdır. O payız ki, həmişə gəlişindən qəribsəmişəm. Amma bu dəfə payız elə sakit, elə mehriban idi, utandığımdan başımı qaldırıb üzünə baxa bilmirdim. Başımı qaldırıb üzünə baxmağa cürətim çatmayan daha bir varlıq vardı. Varlığına

şükür oxuduğum varlıq. O, payızdan güclü idi. Saralan yarpaqlara olan qüssəmi gözəlliyə çevirmişdi. Ömrümün bütün fəsillərini mənə sevdirmişdi. O məni payızdan keçirirdi.

Mənə elə gəlirdi, yanımdakı da mənəm. Özüməm. Yox, mənə elə gəlmirdi, o elə məndir... mən də o.

Sevəndən sonra özünə özgələşirsən. "Öz" anlayışı sevənədək aktualdır. Sevəndə adam özündən çıxır, ona çevrilir.

Çoxdan çıxmışam özümdən. "Mən artıq mən deyil, mən sən olmuşam" Dinləməkdən doymuram.

Sənə bir sirr açım, uşaqlıq illərindən üzü bəri həmişə böyük hisslərlə yaşasam da, nədənsə qəlbimdə bir boşluq hiss etmişəm... Əzizlənərək böyüməyimə baxmayaraq, nisgil duymuşam. Kiminsə yolunu gözləyirmiş kimi gözüm uzaqlara dikilirdi. Bilirdim, yanlış yerdəyəm, hiss edirdim... Gəldin. Qəlbimdəki o boşluq sənlə doldu. Əsl məni sən tapdın. Qəlbimin dərinliklərinə qəvvas kimi baş vurdun, hisslərimi inci kimi sən çıxardın. Mirvari dənələritək duyğularımı sən topladın. Nə vaxtsa "Mənim qəvvasım" adlı kitab yazsam, o kitab sən olacaqsan.

Musa Yaqubun fəsli – payız görüşdürdü bizi...

Bilmirəm, nə vaxtsa payız qovuşdurarmı bizi???

Hələlik payızdan ilk dəfədir sənlə keçirəm.

Qanadım oldun – məni bu payızdan keçirtdin. İndi üzü qışa doğru getməkdən qorxmuram. Bir gün günəş doğacaq, qar utanıb yerə girəcək. Sənlə söhbətimsə bitməyəcək. Axı nöqtəni əvvəldə qoymuşam.

**…və essesi**

## OĞURLANAN ŞAMDANLAR, "DİRİLƏN" ADAMLAR...

Mətnə başqa bir ad da vermək olar – ""Mumu"dan dərs almayanlar..."

Qriqori Petrovun "Ağ zanbaqlar ölkəsi" əsərinin "Karokep" hissəsində adamı riqqətə gətirən epizod var. Həmin hissəni oxuyanda oxumağa fasilə verir, düşünürsən: "İlahi, vicdan hissini oyatmağın necə gözəl yolları varmış. Vicdanlısansa, oxuduğun qəlbini təzədən gözəlləşdirəcək, düşüncənin dərin qatlarına enəcəksən".

Finlandiyada quldurluğu ilə insanları həyəcanlandıran Karokep adlı şəxs cinayətkarlıqda ad çıxarır. Onu ruhi xəsətəxanaya salsalar da, oradan qurtula bilir. Uşaqlıqda olduqca məsum, həssas olan quldur cinayətlər törətməyə təhrik edən cəmiyyətin çirkabı olur. Yanında işlədiyi tacirin malını kəndlilərə paylayıb özünü də kötəkləməyinə səbəb tacirin tərəzidə fırıldaq edib insanları aldatmasıdır. O, insanların tamahkarlığını, ədalətsizliyini, yalan danışmaqlarını qəbul edə bilmir. Qəzəb, nifrət hissi onu qatilə çevirir. Sonda isə keşişin təsiri ilə cinayətdən çəkinib doğru yola qayıdır. L.Tolstoyun təbirincə desək, dirilmə bir gecənin içində baş verir.

Quldur ruhi xəstəxanadan qaçıb yaraladığı keşişin yanına gəlir. Keşiş onu içəri buraxanda ona sual verir ki, sizi yenə öldürə biləcəyimdən qorxmursunuzmu? "Qorxmuram", – deyir keşiş. Quldur səbəbini soruşanda verdiyi cavab oxucunu təsirləndirir: "Gözləri belə olan insanlar heç vaxt kimisə öldürməzlər".

Quldur:

– Mənim gözlərim necədir?

Keşiş:

– Hüznlü. Dərin kədər var içində.

Keşiş rəftarı ilə quldurun içində közərən işığı üzə çıxarır, üfürüb alovlandırır. Quldur ağlayır, diz çöküb üzr istəyir. Keşişin təsiri ilə yenidən uşaqlıqdakı kimi saflaşmağa can atır. Nəticə həssas oxucuların ürəyincədir. Cinayətkar üç övladına mükəmməl təhsil verən ataya çevrilir.

Toyuğun cücələrini qanadı altına yığıb saxladığını görəndə qatilin qolları boşalıb silahı əlindən düşərsə, dünyanın düzələcəyinə inamımız artar. Onda müharibə də olmaz. Neçə ki bu mənzərə laqeyd qarşılanıb, sadəcə ev quşunun adi günlərindən biri kimi dəyərləndiriləcək, bəşəriyyət çox bəla çəkəcək.

Kədərin hikməti var. Həddən çox eyforiya vecsizliyə aparır. Kefcillik milləti özünüdərkdən uzaqlaşdırır. Kədər insanı özünü dərk etməyə sövq edir.

Mahiyyəti eyni olan başqa bir əsərdən göstərəcəyim nümunə də hissiyyatsız insanlarda bayılmış vicdan üçün naşatır spirti effekti verəcək.

Oğurluğa düşən kişi ilə ev sahibi qadının dialoqu:

Qadın:

– Bir az da qalın, söhbət edək. Elə maraqlıdır ki, istəyirəm, izah edəsiniz nə üçün oğurlamaq – sizə çatası şeyi götürməkdir?

Oğru səmimiyyətlə həyatını danışır. Oxucuya məlum olur ki, o, əslində, öz haqqı olanı istəyir. (Əhatəli yazmayacağam, əsəri tapıb oxuyun. Aşağıda adını qeyd edəcəyəm). Qadın dinləyir. Qəfildən xidmətçilər otağa daxil olurlar. Oğru Lyük qadından nə vaxt zəng etdiyini soruşur. O, zəngin düyməsinin stolun altında olduğunu deyir. Özünün səmimiyyəti, qadının hiyləgərliyi onu təəssüfləndirir. Əslində, yardım istəmək zərərçəkənin haqqıdır, amma oğrunun izahına və rəftarına görə bu hərəkəti tədbir yox, hiyləgərlik saymaq olar. Qadın tapançanı onun əlindən almağa nail olsa da, öldürə bilmir. Oğrunun sözlərinin təsirindən cəsarətini itirir. İnsanı mənən öldürmək cismən məhv etməkdən asandır. Qadının hiyləsi artıq oğrunu mənən öldürür, səmimiyyətə inamını itirir. Yazıçı cismani ölümü ona qıymır. Bəlkə də, qadını qatil etmək istəmir. Cek London "Martin İden"də qadının bir kişini mənən öldürdüyünün əvəzini burada – "İnsan öldürmək" hekayəsində çıxmağa çalışır. Ruf Martini mənəvi boşluğa itələmişdi. Oradan xilas ola bilməyən Martinin intiharı seçməsində əsl günahkar Ruf idi, amma ona cinayət işi açmaq mümkün deyil. Mənəviyyat qatilləri məsuliyyətdən azaddırlar, ona görə istədikləri şəraitdə qurbanlarını istədikləri rəftarla, sözlə məhv edə bilirlər. Yazıçı hekayədə qadına cəsarətsizlik verib oğrunun səmimiyyətinə təslim edir. İnsanı mənən diriltmək, yenidən həyata qaytarmaq onu öldürməkdən çətindir. Lev Tolstoyun "Dirilmə"si də mövzuya gözəl nümunədir. O qədər böyük əsərdir ki, özünü ayrıca təhlil etməyə ehtiyac var. Orada kişi keçmişdə buraxdığı səhvi düzəltməklə özü özünü dirildir, qadını da xilas edir. Jan Valjanı xatırlamaq da təbiidir. Yepiskopun gümüş şamdanını oğurlasa da, şamdan sahibi onu bağışlayır. Bundan sonra Valjan tövbə edib ləyaqətli insan olur.

Xatırlamağa çalışaq: neçə gözə kədər, neçə qəlbə ümid, inam vermişik? Hesabatını aparıb, xəcalət çəkib, yaxud məmnun olmuşuqmu? Neçə quldurு bağışlayıb vicdan hissini oyatmışıq? Neçə səhv sahibini cəmiyyətə qaytarmışıq? Bir insanı doğru yola qaytarmaqla müqayisədə nəinki gümüş, heç qızıl şamdanın da dəyəri yoxdur. Sağlam mənəviyyata zərbə vuranların



sayının azalması üçün ən gözəl əsərlərin oxunması, yazılması vacibdir. Ədəbiyyatın tərbiyəedici funksiyasına inanıram. Şamdanımız oğurlansa da, təki kimisə mənən dirildək. Onda bütün əşyalarımız özümüzdə qalacaq.

Elə buradaca öz fikrimi təkzib edən ötənilki paylaşımımı xatırladım: ““Mumu” Putinin ölkəsində yazılıb”.

Pessimistlik olmadı ki?






Gülsadə İBRAHİMLİ

***

Rəsmini gördüm,
Gülürdün... mənsizlik yaraşmışdı sənə.
Necə də tez unutmusan hər şeyi,
Necə də tez şəkil dəyişib şəkillərin.
Yalanların boylanırdı boyundan,
Özündən böyük yalanların,
Özündən yaraşıqlı yalanların.
Gülürdün...
Səni mən qədər tanımırdı yanındakı,
O mən qədər bilmirdi səni,
Bir insanı ən yaxşı pislik etdiyi tanıyar çünki.
Vəfalı ər,
Fədakar ata...
Nə qəşəng yaraşmışdın şəklə.
Səndən sonra çox şey dəyişdi oysa,
Mənim Allahım öldü,
Ürəyimə basdırdım özümü.
Sən gülürdün,
Mən matəmini tutarkən sənsizliyimin,
Belimi yerə vuranda yoxluğun,
Xəyanətin,
Sən boyundan böyük bir səadətlə
gülürdün.

Tutmuşdun yerini...
tuta bilmədiyin əllərim son dəfə üzülərkən səndən,
Sən özünü tamamlayırdın saxta gələcəyinlə.
Mənsizlik yaraşmışdı sənə...
Yalanların qədər,
Alçaqlığın qədər.
Sən gülürdün, ancaq qızının gözlərindən baxırdı
mənim nakam taleyim...

***

Bir tək sənə yazmaq istəyirəm
Darıxanda əllərim,
Tıncıxanda ürəyim bir tək sənə yazmaq istəyirəm.
Uzun-uzun demək istəyirəm necəyəm,
Necəydim.
Axı sən həm də ən yaxın dostumdun –
Çəkilirəm küncümə,
Kim deyir ki, güclüyəm, qalibəm?
Mən bir savaşda vətənini itirib sağ qalmış döyüşçü kimiyəm.
Sən tanımışdın məni,
İlk dəfə ruhumun şifrələrinə toxunarkən bilirdin bir qızcığaz
tapacaqsan –
Dizləri çapılmış, üşümüş və yanılmış.
Səndən sonra dəyişmədi heç nə,
Gizli bir nifrət böyüyür içimdə, haçansa daşacaq.
Sahibsiz bir susqunluğun ətdən heykəli kimi qarışıram insanlara.
Axı sən də xaindin,
Öz ölkəsini satmışlar qədər,
Öz körpəsini atmışlar qədər,
Kimliyini danmışlar qədər xain.
Bəs niyə mən...bir tək sənə yazmaq istəyirəm ağlarkən?
Gülərkən,
Darıxarkən.
Hardansa gələcəksənmiş kimi gözləyirəm səni,
Duysan könül səsimi, getdiyin yerlər yuvan olmazdı.
Belə qalmazdı bu sevginin biçarə taleyi...
Nə bilim,
Bilirəm, yoxsan,
Yadsan,
Olmayacaqsan.
Və bilirəm ki, mən bir də sənə
heç vaxt yazmayacam.
Ancaq...

***

Yuxun qarışsın bu gecə,
Adım gəlsin ağlına.
Sinəndə nəfəsin daralsın,
Biləsən ki, dardayam.
Bir şimşək çaxsın pəncərəndən
Xəyalım sürünsün divarlarından.
“Məni istə”,”məni sev”,” məni gözlə” dediyin qadının gülüşləri
şaqqıldasın ağlında.
Sevdiyim,
Gözlədiyim,
Yar dediyim,
Yarımadım bu həyatın kamından.
Göy gurlayır,
Yağış yağır,
Şəhər məsum…
Min yol gəlib döyürəm xəyalımda qapını.
Bir qadının səsi gəlir,
Şirin-şirin təkrarlayır adını.



## QULU AĞSƏSİN HİDAYƏT ORUCOVLA "AYRI SÖHBƏT"İ

# "Ulduz" jurnalı ilə "Xalq qəzeti" TV-nin birgə layihəsi

*"Mən həmişə vəzifənin məsuliyyətini səlahiyyətlərindən uca tutmuşam. Yalnız Allahımın hüzurunda hesabat vermişəm, bir də öz vicdanımın qarşısında!"*

**– Salam, əziz dostlar, efirdə "Xalq qəzeti" TV, studiyada Qulu Ağsəsdir. "Ayrı söhbət" proqramı "Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşovla birgə səyimiz nəticəsində ərsəyə gəlir. Bizim verilişimiz - qəzet və jurnalın layihəsi "Xalq qəzeti" TV-də yayımlanacaq, "Xalq qəzeti"ndə və "Ulduz" jurnalında isə söhbətin mətni çap olunacaq. İlk qonağımız şair, yazıçı, dramaturq, publisist, ictimai xadim, hamımızın sevimlisi, təqdimata ehtiyacı olmayan Hidayət Orucovdur. Hidayət müəllim, xoş gəlmisiniz! Biz Əflatun müəllimlə bu layihə haqqında danışanda təxmini siyahını nəzərdən keçirdik. İlk nömrədə sizi seçdik, ona görə ki, Hidayət Orucov ələ düşməyən adamdır. O, efirləri sevmir və biz onu, adətən, kamera qarşısında görmürük. Baxmayaraq ki, 1968-ci ildə 24 yaşında cavan bir oğlan böyük bir teatrın rəhbəri olub və o vaxtdan da məsul vəzifələrdə işləyib. Bu günə qədər də heç**

**bir qalmaqalda, o cümlədən məmura xas olan korrupsiyada, kimisə haqsız işdən çıxarmada və s. adı hallanmayıb. Bu təmizliyi, paklığı vəzifə adamı olaraq necə qorumusunuz? Şair, yazıçı, publisist, tərcüməçi kimi qorumağınız bəllidir. Bəs məmur olaraq necə oldu ki, siz bütün bu intriqalardan uzaq qaldınız?**

– Təşəkkür edirəm mənim fəaliyyətimlə bağlı yüksək fikirləriniz üçün. Suala cavab vermək istəyirəm. Birincisi, bu, bizim ailəmizdən gələn ənənədir, həm də mən Qərbi Azərbaycanda doğulmuşam, orada böyümüşəm, bizim ailəmiz orada yaşayıb. Mənim babam, nənəm, anam hələ 1918-ci ildə qaçqın düşüblər. Qonşu rayona -Zəngilana pənah aparıblar. Qərbi Azərbaycan sovetləşəndən sonra qayıtmaq imkanları olub və yenidən Zəngəzura - bizim doğma kəndimiz Maralzəmiyə qayıdıblar. Anam o vaxt 13 yaşındaymış. Sonralar uşaqlığındakı yaddaşından silinməyən acı xatirələri bizə danışardı. Bir sözünü heç unutmuram: *"Sovet hökumətinin bayrağı bir az aşağı düşən kimi erməninin yumruğu yenə bizim başımızdadır"*. 1988-ci ildə məhz belə oldu. Qorbaçovsayağı "yenidənqurma" (o vaxtların özündə də mən mətbuatda onu "yenidənqırma" adlandırmışam) dövlətin sütunlarını sarsıtdı, mənəviyyatsızlıq baş alıb getdi. Anam ikinci dəfə, bu dəfə ömrünün ağbirçək çağında didərgin düşdü. Çox təəssüf ki, anam 44 günlük Böyük Vətən mücadiləsinin dəmir yumruğunu görmədi. Əlbəttə, erməni təqibləri də mənim formalaşmağımda, həyatımda ciddi rol oynayıb.

İkincisi, dediyiniz kimi, mən çox gənc yaşlarımda yüksək vəzifəyə təyin olunmuşam. Hələ 20 yaşında məktəb müdiri idim. O vaxt ailə vəziyyəti ilə bağlı Bakı Dövlət Universitetində qiyabi şöbəyə dəyişildim. 6 illik qiyabi təhsili 5 ilə bitirdim. Birinci kursu bitirdikdən sonra ikinci kursun imtahanlarını ekstern yolu ilə verdim. Üçüncü kursa əmrim verildi. O vaxtlar Azərbaycan Dövlət Universitetində əyani şöbə 5 il, qiyabi şöbə 6 il idi. Sonra rayona getdim və məktəb müdiri oldum. 21 yaşında "Sovet Ermənistanı" qəzetinin ədəbi işçisi, 24 yaşım tamam olmamış isə Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının direktoru təyin edildim. Məni sevməyənlər deyirdilər ki: *"Onun pioner baş* dəstə rəhbəri *olmaq vaxtıdır, amma o böyük kollektivə, qədim teatra direktor təyin olundu. Görəsən, neçə həftə orada davam gətirə biləcək?"*

Amma o vaxt teatrda çox fədakar kollektiv yarada bildik. İncəsənət Universitetinin (o zaman institut adlanırdı) bir qrupu oraya göndərilmişdi. Ermənilər 1965-ci ildə -uydurma genosidin 50 illiyindən sonra daha da fəallaşmışdılar. Qərbi Azərbaycanda yaşayan soydaşlarımıza qarşı açıq mübarizə aparırdılar. Qardaş Türkiyəyə qarşı ağlasığmaz ittihamlar irəli sürürdülər. Amma Azərbaycan teatrının tarixinə çox böyük səhifələr yazıldı.

Sizin sualınıza konkret cavab olaraq deyim ki, bu, bizim ailənin əxlaqından, cəmiyyətə münasibətindən irəli gəlir. İkinci isə, mən o vaxtdan indiyədək həmişə vəzifənin məsuliyyəti barədə düşünmüşəm, səlahiyyətləri barədə yox! Tutaq ki, mən dövlət teatrının direktoruyam, mənim məsuliyyətim nədir, hansı işləri görməliyəm? İncəsənət, xalq məndən nə gözləyir? Nəşriyyatın baş redaktoruyam, ictimaiyyət, cəmiyyət məndən nə gözləyir? Yaxud siyasi və ya diplomatik fəaliyyətdəyəm, yenə də həmin vəzifələrin məsuliyyəti haqqında düşünürəm. Bu gün belə mən hər bir addımımda öz məsuliyyətim barədə düşünürəm.

**–Bu görüş öncəsi sizin kitabınız haqqında yazdığım "Burdan min atlı**

**keçdi" adlı essemi də oxudum. Maraqlı məlumatlarla yanaşı, fotoşəkillər də diqqətimi cəlb etdi. Mənə elə gəlir ki, siz indi cavanlaşırsınız. Həmişə ağsaqqal, müdrik olmusunuz. Bu, həddən artıq məsuliyyəti üzərinizə götürdüyünüz üçün, həmişə kostyumda, qalstukda, ciddi görünüşdə olduğunuz üçünmü bizə elə gəlib?! Sanki Hidayətin çoxdan 80 yaşı olub.**

– Müxtəlif rəylər, fikirlər, yanaşmalar ola bilər. Dediyim kimi, mən keçdiyim yolların, daşıdığım vəzifələrin məsuliyyətini həmişə səlahiyyətlərimdən çox uca tutmuşam, yəqin, bununla bağlıdır... Həyatımda, yaşadığım illərdə yalnız Allahım hüzurunda və vicdanımın qarşısında hesabat vermişəm.

**–80 yaş və 41 kitab. Bu, çox böyük məsuliyyətdir. Dövlət vəzifəsində işləyib çox şaxəli yaradıcılığınız, tərcümələrinizlə iki ildən bir kitab çıxarmaq uzun gecələrin hesabına baş tutub?**

– 41 kitab köhnə məlumatdır. Əslində, indi ondan xeyli çoxdur. Bəli, zəhmətkeşlik mənim ailəmin, doğulduğum, böyüdüyüm bölgənin - Zəngəzurun ənənəsidir. Əgər mənim fəaliyyətimdə müsbət tərəflər varsa, ailəmizə və Zəngəzurda gəncliyimdə gördüyüm, ünsiyyətdə olduğum köhnə kişilərə minnətdaram. Ancaq mən özümdən çox narazıyam. Məsələn, daha çox əsər-şeir, nəsr, publisist yazılar, esselər, pyeslər yaza bilərdim. Mən tutduğum vəzifələrdəki fəaliyyətimi şəxsi yaradıcılığıma görə məhdudlaşdırmamışam və heç vaxt şan-şöhrət üçün istifadə etməmişəm. Əksinə, bədii yaradıcılığımı tutduğum vəzifələrin qanunlarına görə müəyyən etmişəm.

**–Sizin ilkin olmağınızın bir özəlliyi var. Siz 1967-ci ildə nəşr olunan və hazırda mənim çalışdığım "Ulduz" jurnalının 1 illiyi haqqında diplom işi yazmısınız. Biz istərdik onu təkrarən çap edək.**

– Məmnuniyyətlə. O, unudulmaz bir səhifədir həyatımda. Çünki mən Bakı Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı kafedrasından xahiş etmişdim ki, mənə Füzulidən, Nəsimidən, Mirzə Fətəli Axundovdan, Cəlil Məmmədquluzadədən diplom işi versinlər. Bu işləri koordinasiya edən müəllimdən dörd dahi fikir sahibi, yazıçı, yalnız Azərbaycan ədəbiyyatı deyil, Şərqdə, Qərbdə tanınan, sevilən sənətkarlar haqqında diplom işi verməyi xahiş etmişdim. Amma vəziyyət dəyişdi. Böyük şairimiz Bəxtiyar Vahabzadə Bakı Dövlət Universitetinin professoru idi. İndi necədir, bilmirəm, o vaxt hər bir dosentin, professorun dərs yükü vardı və o, dərs yükünü çatdıra bilməmişdi. Beləliklə, kafedranın müdiri bizim böyük yazıçımız, mütəfəkkirimiz, alimimiz Mir Cəlal Paşayevdən xahiş etmişdi ki, ona bir-iki nəfər yaxşı oxuyan diplomçu tələbə versin. Həmin tələbələrin diplom işi rəhbəri olsun və dərs yükünü yerinə yetirə bilsin.

1968-ci ilin may ayının əvvəlləri idi. Biz artıq sonuncu kursda idik, universiteti bitirirdik. Onu qeyd edim ki, mənim kafedradan xahiş etdiyim mövzular klassik ədəbiyyatdan idi. Bəxtiyar Vahabzadə isə Sovet dövrünün müəllimi idi və mövzusu bununla bağlı olmalı idi. Məni kafedraya çağırdılar. O vaxtlar Azərbaycan klassik ədəbiyyatı, sovet, xarici ədəbiyyat, ədəbiyyatşünaslıq və s. bir kafedrada -Azərbaycan ədəbiyyatı kafedrasında idi. İndiki Xalq Təsərrüfatı İnstitutunun binasında yerləşirdi. Bu kafedra əsas girişin ikinci mərtəbəsinin başında böyük bir otaqda idi.

Kafedraya daxil oldum və gözlədim. Mir Cəlal müəllim yer göstərdi, əyləşdim, geniş otaqda var-gəl edə-edə bir az fikirləşdi və məndən soruşdu: *""Ulduz" jurnalı çap olunur, bilirsən?"* Dedim:

*“Əlbəttə!”* Dedi: *“Hə, sən şairsən, diplom işinin mövzusu olsun “Ulduz” jurnalının poeziyası”*. Jurnal o vaxtlar bir il idi ki, fəaliyyət göstərirdi. Mən jurnalın poeziyasını, hətta nəsrini, tənqidini yenidən oxudum və “Ulduz” jurnalının 12 nömrəsindən ibarət diplom işi yazmalı oldum. Əvvəla, onu deyim: müdafiədən öncə öz təşəbbüsümlə diplom işini “Ulduz” jurnalına təqdim etdim ki, oxusunlar. Məmməd Araz o vaxtlar “Ulduz”un məsul katibiydi, mənim işimin ilk baş rəyçisi oldu. Yüksək fikirlər dedi, onu da əlavə etdi: *“Bizdə işi, demək olar, hamı oxuyub”*. Bir məqam indiyədək gözlərimin önündədir. Vərəqlərin kənarında neçə yerdə eyni məzmunlu qeydlər etmişdi: “Çox düzgün tutub”. Və bu qeydlərin, demək olar ki, hamısı ayrı-ayrı müəlliflərin tənqidinə aid idi.

“Ulduz” jurnalının yaranması Azərbaycan ədəbi mühitində böyük hadisə idi. Yalnız Azərbaycanda deyil, Sov. İKP MK-nın qərarı ilə bütün müttəfiq respublikalarda yaranmışdı. O zamanlar partiyanın mərkəzi komitəsinin qərarı olmadan ciddi bir tədbir keçirmək, jurnal yaratmaq mümkün deyildi. “Ulduz” jurnalı həmin illərdə çox böyük işlər gördü. Mənim İrəvanda çap olunan ilk kitabım “Məni səsləyəndə” haqqında gənc şair, publisist Səyavuş Sərxanlının böyük bir məqaləsi “Ulduz” jurnalında çap olundu.

Təvazökarlıqdan uzaq da olmasın, “Ulduz” jurnalı mövzusundakı diplom işi müdafiəm çox ciddi əks-səda verdi, təriflədi. Professor Xalid Əlimirzəyev mənim diplom işimin rəyçisi idi. Çox yüksək qiymətləndirdi və dedi: *“Bu iş universitetin elmi əsərlərində çap olunmalıdır”*. Bəxtiyar Vahabzadə də yüksək rəy yazdı və hazırda diplom işinin ön səhifəsindədir.

Bir epizodu da qeyd edim, heç vaxt yadımdan çıxmır. Titul vərəqəsində diplomçunun, mövzunun, kafedra müdirinin və elmi rəhbərin adları var idi. Elmi rəhbəri isə təbii ki, “filologiya elmləri doktoru, professor Bəxtiyar Vahabzadə” yazmışdım. Bəxtiyar Vahabzadə bu sözləri pozdu və dedi: *“Mən şairəm”*. Qaldı: “elmi rəhbər-Bəxtiyar Vahabzadə”. Diplom işində yalnızca bu dəyişiklik olundu. Dövlət İmtahan Komissiyasının rəhbəri o vaxtlar məşhur dilçi Mirzə müəllim idi, akademiyadan gəlmişdi. Bütün komissiyanın tərkibi yüksək fikirlər səsləndirdi. Və qərara gəldilər ki, diplom işi universitetin elmi əsərlərində çap olunsun. Amma mən dərhal İrəvana qayıtdım. Bir-iki ay sonra məni dövlət teatrına direktor təyin etdilər və mən bu işi davam etdirmədim.

**– “Ulduz” jurnalında ilk dəfə şair kimi neçənci ildə çap olunmusunuz?**

–Dəqiq yadımda olmasa da, 1969-70-ci illər idi. Şeirlərim mütəmadi çap olunmağa başladı. Allah rəhmət eləsin Cavid Novruza, Əhməd Cəmilə, Yusif Səmədoğluna. Onların zamanında mən İrəvanda yaşayırdım. Yusif Səmədoğlu ilə həmişə xoş münasibətim olub, istedadlı nasir kimi ona çox hörmət edirdim. Mənim üçün həm görkəmli Azərbaycan nasiri, həm də Səməd Vurğunun oğlu idi. Bir epizodu da deyim ki, mən həmişə Yusif müəllimin yanına gedəndə o, çətinliklə ayağa qalxardı. Mən düşünürdüm ki, görkəmli nasirdir, Səməd Vurğunun oğludur deyə, belə edir.

Səməd Vurğunun 80 illiyində mənim təhsil aldığım və qızıl medalla bitirdiyim Mığrı rayonunun Aldərə kənd məktəbində Səməd Vurğunun büstünün açılmış mərasimi idi. O məktəbə Səməd Vurğunun adının verilməsi prosesində mən də iştirak eləmişdim. Mən o vaxt maarif naziri (indiki elm və təhsil naziri), mərkəzi komitənin müvafiq qurumları, şöbələri ilə, hətta

mərkəzi komitənin ideologiya üzrə katibi ilə danışıqlar aparırdım ki, o məktəbə Səməd Vurğunun adı verilsin. Və verildi.

1986-cı ildə büst açılanda Azərbaycandan nümayəndə heyəti getdi oraya. Buradan Yusif Səmədoğlu, Aybəniz xanım, Seyran Səxavət, Çingiz Əlioğlu və digər yazıçılar qrupu getdik ora. Açılış oldu və mən Azərbaycandan gələn nümayəndə heyətini öz kəndimizə, Maralzəmiyə- evimizə dəvət etdim. Süfrə ətrafında anam, qardaş-bacılarım da var idi. Yusif Səmədoğlu mənim haqqımda tostda dedi: *"Mənim belimdə radikulit var, incidir. Mən heç kəsin gəlişinə ayağa durmuram. Hidayət yeganə adamdır ki, o mənim yanıma gələndə mən ayağa dururam".* Demə, beli incidirmiş, ona görə çətinliklə ayağa qalxırmış. Bu həqiqəti biləndən sonra Yusif müəllim mənim gözlərimdə, ürəyimdə daha da ucaldı.

**–Artıq vaxtınız var, bütün bunları yazmaq istərdinizmi?**

– Bilirsiniz, siz bayaq xatırlatdığınız, "Burdan min atlı keçdi"də mən müəyyən məqamları yazmışam. Və haqlısınız, əlbəttə, bunlar bütövlüklə yazılmalıdır. Amma illər keçdikcə, hadisələr zaman etibarilə uzaqlaşdıqca insan o xatirələrə, o keçmişə artıq başqa nəzərlərlə baxır. O illərdə şəxsən mənə adi görüş kimi görünən, maraqlı epizod təsiri bağışlamayan hadisələr, sonradan görürsən ki, çox qiymətli imiş.

– **Vaxt müəyyən həyat faktorudur, deyirsiniz o vaxtlar qohum-əqrəba kəndə gəldi, oturdular...** Bütün bunlar həmin vaxtlar üçün adi həyat faktoru idi. İllər keçdikcə onlar ədəbiyyat faktoruna çevrilir. Çünki Zəngəzur da, sizin kəndiniz də, valideynləriniz, qohumlarınız, orda açılan sü**frə, bütün bunlar bizim üçün hazırda çox qiymətlidir. Biz bu il Qərbi Azərbaycanla bağlı "Ulduz"un xüsusi nömrəsini hazırladıq, təqdimatı da Naxçıvanda keçirildi. Orada festival oldu və** Qərbi Az**ərbaycanın bütün atributları ilə yanaşı, "Ulduz" jurnalı da o çadırlarda qoyulmuşdu. Sevə-sevə izlədim və Zəngəzurla bağlı bu layihəni davam etdirmək fikrimiz var.**

**Siz həmişə düşmən içində olmusunuz, orda çalışmısınız, yüksək vəzifələrdə olmusunuz, teatrda da çalışmısınız. Artıq ermənilərin iç üzünü də bilirdiniz, sizə olan münasibəti də. Söhbətimizin əvvəlində dediniz ki, sizi formada saxlayan həm də düşmən içində olmağınız olub. Həmişə özünüzü qorumalı olmusunuz, çünki azərbaycanlı vəzifə adamı, xüsusilə düşmən ölkədə, o ölkənin bir atributuna çevrilir. O, mütləq formada olmalı, səlis danışığı, istedadı və zəhməti ilə seçilməlidir. Dili necə, bilirdiniz?**

– Bilirsinizmi, onu yalnız mən yox, teatrın əsas rəhbərliyindəki digər adamlar, aktyorlar... Biz onu bir an unutmurduq, onları qabaqlayırdıq. Və ən çox ehtiyatlandığımız məqamlardan biri o idi. Məsələn, mən bilirdim ki, nə qədər gənc olsam da, bizim hər bir hərəkətimizə erməni millətçiləri təftiş baxımından, yoxlama eynəyi ilə baxırdılar. Bizdə istehza axtarmaq arzusunda idilər. Ona görə mən əvvəldə də teatrla bağlı bəzi məqamlar haqqında bir-iki cümlə dedim.

Biz işi elə qururduq ki, teatrda hər şey yüksək səviyyədə olsun. Məsələn, teatrın adi reklamı çox yüksək səviyyədə təşkil olunurdu. İrəvan şəhərindəki hər hansı tamaşanın reklamı nümunəyə çevrilirdi. Qastrol səfərlərində də erməni teatrlarına bunu nümunə kimi göstərirdilər. Hələ tamaşanın keyfiyyətini demirəm. Məsələn, erməni teatrı normal səviyyədə idi. Deyim ki, zəif idi, yox, deyildi. Amma biz çalışırdıq ki, erməni teatrından yüksək səviy-

yədа olaq. Bir epizodu deyim, o illərdə iki-üç ildən bir müxtəlif sahələr üzrə fəallar iclası keçirilirdi. Mədəniyyət sahəsinin iclaslarının birində Mərkəzi Komitənin katibi və Ali Sovetin Rəyasət Heyəti sədrinin birinci müavini iştirak edirdilər. Çaykovski adına musiqi məktəbinin 350 yerlik akt zalında mədəniyyət naziri erməni teatrlarını çox kəskin tənqid etdi - həm onların repertuar siyasətini, həm tamaşaların səviyyəsini, həm də reklamlarını, qastrol səfərlərini...

Birdən heç kəsin gözləmədiyi halda dedi: *"Kim teatrın repertuarını yüksək səviyyədə qura, qastrolları yaxşı təşkil edə bilmirsə, təşkilatçılıq qabiliyyəti yoxdursa, təbliğatı, reklamı yaxşı zinətləndirməyi bacarmırsa, onları Azərbaycan teatrına ezamiyyətə göndərək, gedib orada öyrənsinlər"*. 350 erməninin hamısı -teatr direktorları, musiqi və mədəniyyət sahəsinin rəhbərləri, təhsil müəssisələrinin başçıları və s. elə bil şoka düşdülər. Azərbaycan teatrına? Bir anlıq zala tamamilə sükut çökdü. Hətta milçək uçsaydı belə, səsi eşidilərdi. Nazir də bunu hiss etdi. Bir neçə saniyə ara verərək dedi: *"Mən* öz teatrımızı deyirəm, İrəvan - *Azərbaycan Dövlət Dram Teatrını deyirəm"*. Zarafata salaraq əlavə etdi: *"Ezamiyyət xərcləri lazım olmayacaq"*. İştirakçılar rahat nəfəs aldıqdan sonra sürəkli alqışlamağa başladılar.

Mən yalnız bir epizod dedim. Bayaqkı fikrimin davamı olaraq onu da əlavə edim ki, orada iş elə qurulmuşdu ki, əməkdaşların hamısı - həm yaradıcı, həm texniki heyət elə bil kamikadze idi, yalnız irəli, yalnız uçuş, yalnız sənət! Orada elə aktyorlar var idi ki, gözəl tamaşa oynayıb elə səhnədə də həlak olmağa hazır idilər. Belə bir əhval-ruhiyyə yaranmışdı orada. O ki qaldı erməni dilini bilməyimə... Yenə bir epizod yadıma düşdü. Yaradıcılıq təşkilatlarının başqa bir fəallar iclasında (bu tədbir Yazıçılar İttifaqı xəttilə təşkil olunmuşdu, yenə yüksək respublika rəhbərlərinin iştirakı ilə keçirilirdi) mən çıxış etdim. Məndən iki çıxışçı sonra maarif nazirinə söz verildi. O, rus dilində danışdı. İclasın aparıcısı, Yazıçılar İttifaqının sədri Vartges Petrosyan bu çıxışa laqeyd qalmadı: *"Hidayəti erməni dilində dinlədik, necə gözəl çıxış etdi. O, günün çoxunu erməni dilində danışır, Mədəniyyət Nazirliyində, Mərkəzi Komitədə, Yazıçılar İttifaqında, telefonlarla və sairə... Ancaq axşam-"Vremya" proqramından sonra evində oturub Azərbaycan dilində* gözəl şeirlər yazır... Bizim maarif nazirini də dinlədik. Rus dilində bilgilərini nümayiş etdirirdi. Nazirlikdə, məktəblərdə də bu dildə danışır*"*. Kinematoqrafçılar İttifaqının ağzınacan dolu akt salonunu alqışlar bürüdü. Toplantıdan sonra qatı millətçilərdən ikisi mənə yaxınlaşıb etiraf etdi: *"Ən çox alqış sizə gəldi!"*

**– Mədəniyyət naziri sizin repertuara qarışırdı?**

– Əvvəl müəyyən cəhdlər oldu. Teatrın adı çıxandan, xüsusilə 1978-ci ildəki Bakı qastrolundan sonra-Bakıda Musiqili Komediya Teatrının binasında 14 gün İrəvan teatrı çox vaxt gündə iki tamaşa olmaqla (gündüz uşaqlar, axşam böyüklər üçün) qastrol səfərində oldu- Mədəniyyət Nazirliyi bizim repertuarı redaktə etmirdi. Ümumiyyətlə, Azərbaycana o illərin özündə də ünlü teatrlar -Moskva, Sankt-Peterburq, Tiflis və İrəvan teatrları gəlirdi. Və qastrolları 3-4 gündən artıq çəkmirdi. Bizim teatrın səfərində on dörd gün bütün tamaşalar anşlaqla keçirdi.

Bir az sonra mən ovaxtkı mətbuat haqqında da münasibət bildirəcəyəm. İndiki "Xalq qəzeti" TV və "Xalq qəzeti"nin öncə uzun illər fəaliyyət göstərmiş, çap olunmuş sələfi "Kommunist" haqqında da

müəyyən fikirlərimi deyəcəyəm.

**–Sosial mediadan istifadə edirsinizmi?**

– Çox az istifadə edirəm. Çünki mən öz zəif tərəflərimi bilirəm. Bilirəm ki, istifadə etsəm, vaxtımı çox aparacaq; şahmat və futbol uzun illər vaxtımı çox apardıqları kimi... Ancaq sosial mediada gedən vacib materiallar barədə mənə məlumat verirlər.

**–Yazılarınızı özünüz** yığırsınızmı? Yoxsa **əlyazmalarınızı yığdırırsınız?**

– Xeyr, hər zaman qələmlə yazıram, yığırlar.

**– Latınca yazırsınız, yoxsa kirilcə?**

– Əlbəttə, latın qrafikalı Azərbaycan əlifbası ilə yazıram. Kirilcə asan olur yazmaq, amma latın əlifbası ilə yazıram.

– Əgər öz həyatınızı teatrlaşdırsaydınız, öz həyatınızdan **pyes yazsaydınız, adını nə qoyardınız?**

– "Burdan min atlı keçdi". Çünki o, mənim əbədi mövzumdur.

Bu gün bizim görüşümüz "Xalq qəzeti" TV-dədir. "Xalq qəzeti"nin əvvəlki adı "Kommunist" qəzeti haqqında, ümumiyyətlə, ovaxtkı mətbuat haqqında müxtəlif fikirlər deyirlər. Bəzən hər şeyi qara görmək istəyirdilər. O vaxt yalnız "Kommunist"i yox, digər qəzetləri də, məsələn, "Vışka"nı da, "Bakinski raboçi"ni də, "Azərbaycan gəncləri"ni də, "Ədəbiyyat və İncəsənət"i də... Mən o vaxt İrəvanda yaşayanda onların hamısında çap olunurdum. Onların xidmətlərini unutmaq olmaz. Onlara layiq olduğu qiyməti vermək lazımdır. Bir epizodu mən heç vaxt unutmaram. 1971-ci ildə "Sovet Ermənistanı" qəzetinin 50 illiyi idi. Milli Akademik Dram Teatrının binasında, formal da olsa, çox möhtəşəm bir tədbir keçirdilər. Mərkəzi Komitənin Birinci katibi və büro üzvləri də iştirak edirdilər. Azərbaycandan nümayəndə heyəti gəlmişdi. "Kommunist" qəzetinin baş redaktoru Ağababa Rzayev, "Bakinski raboçi" qəzetinin baş redaktoru, hətta erməni qəzetinin baş redaktoru da vardı. Bu qəzetlər o vaxt Mərkəzi Komitənin orqanı idi. Sonra orada yeni açılmış "Yelkən" adlı bir restoranda ziyafət verildi. Bu vaxt mənim dişim möhkəm ağrıyırdı. Dişimin keyiməsi üçün iki-üç qədəh konyak içdim. Birdən masabəyinin səsini eşitdim. O da Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin İdeologiya üzrə katibi Robert Xaçatryan idi. Dedi: *"Mən gənc Hidayət Orucovun səsini eşitmək istəyirəm"*. Ayağa durdum. Dedim: *"Robert Hraçik oğlu, mən sizinlə Azərbaycan dilində danışmaq istəyirəm"*. Dedi: *"Danış"*. Sonra bunu nə üçün istədiyimi izah etdim. Dedim: *"Siz Bakı Dövlət Universitetini bitirmisiniz"*. Dedi: *"Bəli, bəli..."* Bu sözləri Azərbaycan dilində deyirdi.

Əvvəlcə ümumi, ənənəvi, "Sovet Ermənistanı" qəzetinin fəaliyyətindən bir neçə söz dedim. Tədbirə münasibətimi bildirdim. Amma Robert Xaçatryan deyəndə ki gənc Hidayət Orucovun səsini eşitmək istəyirəm, o, mənim bədii yaradıcılığımı və əlbəttə, teatrın direktoru olmağımı nəzərdə tuturdu. Bayaq dediyim kimi, 1965-ci ildən, o uydurma genosidin 50 illiyindən sonra bunların açıq və bəzən üstüörtülü şəkildə millətçilikləri, Qarabağ iddiaları, Naxçıvan iddiaları, Türkiyəyə böyük ərazi iddiaları, az qala, mətbuatda da özünə yer tapırdı. Ona görə də mən Yeğişe Çarentsdən danışdım. Yeğişe Çarents bunlar üçün ideal bir şair olub. Böyük və əfsanəvi şair idi. 1937-ci ildə güllələnib. Amma o, açıq millətçilikdən uzaq olub, C.Cabbarlı, S.Vurğun və M.Müşfiqlə dostluq əlaqələri olub. C.Cabbarlının vəfat etdiyi günün sabahı o, bizim teatra gələrək bildirmişdi: *"Teatra C.Cabbarlının adını vermək lazımdır"*. Mən bir nümunə kimi, Yeğişe Çarentsin

adından istifadə edərək dedim: *"O, Sovet Azərbaycanının 15 illiyinə bir şeir yazıb"*. Və mən öz tərcüməm ilə bu şeiri oxudum:

Alqış, alqış qardaş elə,
Bir torpaqdan, bir günəşdən
Birgə hünər aldığımız,
Çarın dustaqxanasında birgə fikrə daldığımız
qardaş elə...

*(Şeirin sonrası yadımda deyil).*

Bir də onun Qərbi Azərbaycanda ermənilərin, az qala, himni olan bir şeiri var:

Hayastanım, günəş dadlı sözlərinə vurğunam,
Adı qədim, qəlbi kövrək sazlarına vurğunam,
Qan dodaqlı çiçəklərin duyğusuna, ətrinə,
Nairimin oynaq rəqsli qızlarına vurğunam...

Əlbəttə, bir az hissi – emosional çıxışdan sonra sürəkli alqışlar qopdu. Çox alqışladılar. Ziyafət bitdi. "Kommunist" qəzetinin baş redaktoru Ağababa Rzayev mənə yaxınlaşdı və qucaqladı. Türksayağı hər iki üzümdən öpdü. Dedi: *"Siz mənim ürəyimdə ucaldınız, siz mənim ürəyimdə heykələ döndünüz..." Daha sonra* onu müşayiət edən "Sovet Ermənistanı" qəzetinin əməkdaşlarına mənim haqqımda çox yüksək fikirlər səsləndirərək deyib: *"M*ən onunla fəxr edirəm və Azərbaycana qayıdıb onu təbliğ edəcəyəm*"*.

Yubileydən iki-üç gündən sonra o vaxtlar məşhur jurnalist Rəfael Nağıyev mənə zəng elədi. Soruşdu: *"Hidayət, sən ziyafətdə nə etmisən?"* Mən də zarafatyana dedim: *"Dişim ağrıyırdı, bir-iki qədəh konyak içdim ki, ağrı keçsin"*. Dedi: *"Baş redaktor gələndən səndən danışır..."*

O vaxt "Kommunist" qəzetinin baş redaktorunun İrəvana gəlişi, orada yüksək tədbirdə bir gənc Azərbaycan şairinin çıxışı, onun milli keyfiyyətləri, milli düşüncəsi və s. və i. ona elə təsir eləmişdi. Sonralar mənə zəng edərək yazı sifariş verirdilər. Teatrın hər il, hər mövsümdə görəcəyi işlər barədə müsahibələr alırdılar. Bayaq sizə dediyim, Bakıya 14 günlük qastrol vaxtı Azərbaycanın bütün mətbuatı, başda "Kommunist" olmaqla, bütün qəzetləri hər tamaşa haqqında rəylər verirdi, fikirlər bildirirdi. Elə bilin ki, Bakı 14 günlük qastrol səfərində mədəniyyət sahəsində İrəvan teatrının günlərinə çevrildi. Yəni "Kommunist" qəzetinə də belə yanaşmaq lazımdır.

Sonralar- yenidənqurma zamanı (mən o dövrün özündə də onu mətbuatda "yenidənqırma" adlandırmışam) mən artıq Bakıda yaşayırdım. Erməni təcavüzü başlayandan sonra mənim ən kəskin yazılarımı "Kommunist" qəzeti çap elədi. Məsələn, "Didərginlərə məktub" "Kommunist" qəzetində çap olundu. O vaxtlar həmin yazı böyük maraq doğurmuşdu... Çünki artıq Qərbi Azərbaycandan qaçqınlıq prosesi başlamışdı. Ona görə mən bu qəzetə minnətdaram.

Mənim fikrimcə, bu qəzet ən maraqlı, ən dəyərli günlərini indi yaşayır. Mən hər gün "Xalq qəzeti"ni oxuyuram. Mənə elə gəlir ki, bu, günün qəzeti deyil, günün kitabıdır, çoxsəhifəlidir: həm siyasət, həm ictimai məsələlər, həm iqtisadiyyat, həm təhsil, həm mədəniyyət, lap başlıcası, milli özünüdərk, milli şüur, milli dəyərlər... Əflatun Amaşov başda olmaqla, mən bu qəzetin bütün kollektivinə minnətdaram və bu qəzetdə çalışan bütün jurnalistləri uğurları üçün təbrik edirəm. Eyni zamanda "Ulduz" jurnalını... Bu jurnalı indiki dövrdə saxlamaq böyük hadisədir. Mən bəzi nömrələrinə baxmışam, amma bundan sonra abunəçisi olacağam.

**– Bütün məşhurlar - Xalq artistləri,**

**Xalq yazıçıları, müəllimlər, akademiya, universitetlər hamısı jurnala abunədir. Çox sevinərdim ki, siz də abunə olasınız.**

– Mütləq! Mən "Ədəbiyyat qəzeti"nə hər həftə baxıram, eyni zamanda da digər gündəlik qəzetlərə.

**– Biz bunları sizin üçün çıxarırıq. Yəni bizim oxucularımız var, bilirik ki, kimlər oxuyur. Biri var alıcı, biri var oxucu... Siz bizim çox dəyərli oxucumuzsunuz. Mən sizə təşəkkür edirəm.**

**Sonda "Ayrı söhbət" proqramına gələn qonaqlar öz hədiyyələrini verirlər. Təbii ki, sizin də ən gözəl hədiyyəniz yeni çıxmış kitabınız olacaq. Oxuculara məmnuniyyətlə təqdim etmək istəyirəm. Bu, Hidayət müəllimin seçilmiş əsərlərinin birinci cildidir. İstəyirik ki, sizin imzanızla bu kitabı "Xalq qəzeti"nin kitabxanasına, birini isə ayrıca olaraq "Ayrı söhbət" proqramına hədiyyə edəsiniz.**

– Təşəkkür edirəm. Mən indi avtoqraf yazacağam- bu, mənim on cildliyimdir. Bir neçə il bundan əvvəl çap olunub. Bunun səkkiz cildi orijinaldır- poeziyadır, nəsrdir, esselərdir, dramaturgiyadır, bəzi publisist yazılardır. Siz məni tərcüməçi kimi də təqdim elədiniz, qalan iki cildi isə tərcümələrdir. Bu iki cildə özüm ad qoymuşam: "Özüm yazmaq istərdim". Orada Uilyam Şekspirin "Sonu yaxşı olan hər iş yaxşı" pyesini, Harriyet Biçer Stounun "Tom dayının daxması" romanını, XIX əsr ingilis və island ədəbiyyatından nümunələri, rus ədəbiyyatından seçmələri, qardaş türk ədəbiyyatından çevirmələri və s. təqdim etmişəm. Mən o əsərləri Azərbaycan dilinə tərcümə eləmişəm ki, onları özüm yazmaq istərdim. Amma məni qabaqlayıblar, yazıblar, özü də çox gözəl yaradıblar.

**– Tərcüməçi ikinci müəllifdir, siz heç nə itirməmisiniz.**

– Bu kitab "Xalq qəzeti"nə yadigar qalsın, verilişiniz uzun ömürlü olsun.

**– Çox təşəkkür edirəm sizə, Hidayət müəllim.**

– Siz də kitabınızı mənə bağışladınız, təşəkkür edirəm. Mütləq oxuyacağam.

**– İlk hədiyyə sizdən gəldi. Uğurlu olsun! Düşünürəm ki, tamaşaçıları yormadıq. İnanıram ki, oxucular söhbəti çox maraqla izləyəcəklər. Sizə bir daha təşəkkür edirəm.**

**Tamaşaçılarla sağollaşıram. Sağ olun, "Ayrı söhbət" verilişində yenidən görüşənədək. Xatırladım ki, ilk qonağımız şair, dramaturq, nasir, ictimai xadim Hidayət Orucov idi.**

**Sağ olun, sağlıqla qalın!**






Qəndab ƏLİYEVA

***

Pəncərənin o üzündə
günəş.
Barmaqlarımın kölgəsi
uzanar divarlarda.
Tanış xətlər,
əyri cizgilər.
Yarımçıq adam.
Ağzı əyilmiş gülməkdən.
Günün
Gün ortası.
Qırıq güzgü.
Bir uşaq, bir ana,
əlində dondurma.
Çarpaz kəsim donun
üst cibində
iki-üç çəyirdək.
Qırıq səslərin
yerüstü dalğada axması
günortanın ensiz dərinliyinə.
İki masa,
təqvim,
İyirminin qırmızı haləsi.
Yer altından çıxan
marşrutların
sonuncu dayanacaq nöqtəsi.

***

Adam balası kimi
darıxmaq necə olur?
Qucaqlayıb yastığı
ağlamırsan
hönkür-hönkür.
Əllərinin arxası ilə
silib göz yaşını
örtmürsən pəncərəni.
İki ev o tərəfdə
ağlayan körpənin
səs-küyünə
üşüyürsən.
Yığılmırsan
asta-asta içinə.
Adam balası kimi
darıxmaq necə olur?
Üç-beş sısqa ümiddən
gizildəmir qulaqların.
Üzü qışdan bəri
əzizlədiyin

tənha günlərinin
dizlərinə
başını qoyub
irəli-geri
saymırsan.
Adam balası kimi
darıxmaq necə olur?

***

Damaqdakı tamın
qoxusuna çökmək.
Yaşıl ot olmaq
başlanmayan sevdaların
qəhredici süqutundan.

Toxuna bilmək
buludların
çəhrayı köynəyinə.
Bir hava çalmaq –
olsun
“Uzundərə”.

Heç vaxt olmayan
evlərin
pəncərələrindən
atılmaq ölümə.

***

Sükutun dibində
İtən küçənin,
boydan-boya,
səsdən-səsə
keçən küçənin
üç-beş kəlmədən
qalan nə varsa,
əridi ruhunda,
söndü ruhunda.
Bir cüt mavi işıq
çəkildi bətnə.
Su tək cilvələnən
qırıq güzgüdə
 yad işıqlar doldu
yad könüllərə.
Qonşular
bağladı qapılarını.
Bir daha, bir daha
keçmərəm ordan,
Bax bu yer haqqı,
bu Allah haqqı...

***

Bir gün mütləq
gizlində qalmış arzuların
cibə sığışmayan əlləri
açılacaq zəncirdən.
Bir gün mütləq
qapı kandarları
xoşbəxt olmaq boyda
başqa dərdləri olmayan
adamların ayaq izlərini
daşıyacaq.
Bir gün mütləq
günəş gözlü uşaqlar doğulacaq.
Bir gün mütləq
yetməyəcək ovuc içi boyda
xoşbəxtlik
dahası varkən.

***

Qaranlığın o üzündə
Yandı işıqlar,
Sarı işıqlar.
Diksindi təklik.
Zol-zol
Yayıldı tənəklərə.
Eyvanın məhəccərini,

Güldandakı gülü
Böldü ikiyə.
Qadının
Şalında oynadı.
İtlər hürdü,
Ulduzlar parladı.
Qəriblik axdı
Eyvandan.
Qadın
Şalına daha bərk sarıldı.
Üzündə-gözündə
Oynayan işıqları
Sıxdı barmaqları.



Anar ADİL

# Kloun MUĞUŞ

Uğurun iti can verirdi. O, itinin başını qucağına alıb acizliklə gah ətrafa baxır, dadına yetəcək bir adam axtarır, gah da itin başını tumarlayırdı. İt boğuq səslə zingildəyir, heydən düşmüş ayaqlarını asta-asta tərpədirdi.

Günortaya yaxın it canını tapşırdı.

Uğur bağın ayağında çala qazıb itini basdırdı. Alma ağacına söykəndi, göz yaşını saxlaya bilməyib doyunca ağladı. O qədər ağladı ki, evə gələndə anası onu görüb əlini dizinə çırpdı:

– Gözlərin şişib, qıpqırmızı olub, a bala, nolub, niyə ağlamısan?

– Topar öldü, – Uğur qəhərini boğub cavab verdi.

– Öldü, öldü də, qocalmışdı, elə ölmək vaxtı idi.

– Özü ölmədi, öldürdülər. Bilirəm kim öldürdü. Toparımı qonşumuz zəhərləyib öldürdü!

– Qonşunun işi-peşəsi yoxdu, sənin itini zəhərləsin! – anası ona çəmkirdi, – get dərslərini oxu, atan məktəbə getmədiyini bilsə, canını alacaq.

Uğur otağa keçdi, çantasını açdı, kitablarından birini götürüb baxdısa da, fikri itinin yanında qaldığından hərflər gözünün qabağında oynaşdı.

***

Uğurun atası Məğrur şəhərin əyləncə mərkəzlərindən birində kloun işləyirdi. Bir dəfə varlı bir məmurun oğlunun ad günündə klounluq edirmiş. Ərköyün uşaq gah Məğrurun belinə minib at kimi çapır,

gah saçını yolur, gah da üzünə tort yaxırmış. Məğrur uşağın hoqqalarına dözməyə məcbur imiş, çünki uşağın məmur atası ona yaxşı pul təklif eibmiş. Uşaq otağın ortasında durub atasından klounun adının nə olduğunu soruşubmuş, atası “eləcə kloun de, oğlum, bunların adı olmur” desə də, oğlu razılaşmamış, klounun əsl adının nə olduğunu öyrənməkdə israr etmişdi. Məmur Məğrurdan adını soruşmuş, o da demişdi. Amma uşaq “Məğrur” sözünü deyə bilmədiyindən klouna belə çətin ad qoyanı söymüşdü. Məmur oğlunun könlünü almaq üçün demişdi:

– Oğlum, sən ona “Muğuş” de.

Beləcə, söhbət Uğurgilin məhəlləsinə qədər gəlib çıxmış, camaat onu “Muğuş” çağırmağa başlamışdı. Bu ad Məğrurun bərk acığına getsə də, dözməli olurdu.

Məğrur əzəldən ağır xasiyyətli adam idi. Kloun işləyəndən sonra xasiyyəti lap sərtləşmişdi; arvadına və oğluna tapşırdığı işi azacıq gecikdirəndə, yaxud da ürəyi istəyən kimi yerinə yetirməyəndə onları danlayır, söyür, bəzən də əl qaldırırdı.

***

Topar öləndən sonra Uğur fikrini dərsə cəmləyə bilmirdi. Əlaçı Uğur indi ortabab şagirdə çevrilmişdi. Riyaziyyatdan yoxlama işindən “2” alanda müəllim ona acıqlanmış, atasına şikayət edəcəyini demişdi.

***

Şənbə günü idi. Məğrur əyləncə mərkəzində ad gününü yola verməli idi. Sifarişçi acıdıl adam idi, Məğrurun kostyumuna, ağır hərəkətlərinə, uşaqlarla oynadığı oyuna saysız iradlar bildirirdi. Ad günü olan uşaq bağça yoldaşları ilə onun başına itin oyununu açırdı. Uşaqlar xorla “Muğuş, Muğuş, it kimi hür!” əmri verəndə Məğrur bir az düşündü, sonra hürməyə başladı. O xeyli hürdü və birdən ürəyini tutub döşəməyə sərildi. Uşaqları bunu oyunun bir hissəsi bilib, onun belinə mindilər: “Muğuş, sən bizim eşşəyimiz ol” deyib onun yanbızını şillələyir, durub onları zalın o biri başına aparmağı əmr edirdilər.

Uşaqlar Məğrurun tərpənmədiyini görüb sakitləşdilər. Böyüklərdən kimsə onu qaldırdı, halını soruşdu, su verdi. Halının xarab olduğunu görüb təcili yardım çağırdılar.

***

Məğrur ağır addımlarla evə tərəf gedirdi. O özünü alçaldılmış, təhqir olunmuş hiss edirdi.

Yaşadığı məhəlləyə girəndə Uğurun riyaziyyat müəllimi ilə rastlaşdı. Müəllim Uğurun yoxlamadan “2” aldığını deyəndə əsəbdən Məğrurun bütün bədəni titrədi.

Məğrur qapını zərblə açıb arvadına bağırdı:

– O it oğlu hardadı?! Tez tap, göndər yanıma!

Uğur başını sallayıb atasının qarşısında dayanmışdı. Atasınan riyaziyyatdan niyə “2” almasının səbəbini izah edə bilmirdi. Bircə dəfə “Topar öldü” deyə bildi.

Atası milçəköldürəni qapıb var gücü ilə Uğura bir neçəsini çəkdi. Birdən nə fikirləşdisə, mizin üstünə qonmuş milçəyi öldürdü, ölü milçəyi Uğurun ovucuna basıb bağırdı:

– Ye!

Uğur gah ovcundakı milçək ölüsünə baxdı, gah atasına. Atasının onu belə bir işə məcbur edəcəyinə inanmaq istəmədi.

Atası Uğurun qolundan tutdu, ölü milçəyi onun ovcundan götürüb ağzına dürtdü.

Uğur öyüdü, milçəyi tüpürmək istəsə də, atası onun ağzını qapadı.

Uğur bir neçə gün yataqdan dura bilmədi. Nə qədər çalışsa da, ağzına bir tikə çörək qoya bilmədi; xörəyə baxan kimi öyüyürdü.

***

Məğrur yeni sifariş almışdı. Bu dəfə o, əyləncə mərkəzində deyil, uşağın yaşadığı evdə onu əyləndirməli idi. Uşağın atası sifarişi qəbul etdiyi üçün ona telefonda xeyli minnətdarlıq etmişdi.

Məğrur deyilən ünvana getdi. Onu uşağın atası mehribanlıqla qarşıladı. Tez də oğlunu səslədi:

– Gözəl oğlum, bir bax, gör kim gəlib?!

Otaqdan yeddi-səkkiz yaşında arıq bir oğlan boylandı. Onun xəstə olduğu dərhal bilinirdi. Oğlanın anası Məğrura çay gətirdi, yemək təklif etdi.

Məğrur kloun kostyumunu geyib oğlanın dərman qoxuyan otağına girdi, ona xeyli xoş sözlər dedi. O əvvəl bir neçə heyvanın hərəkətini yamsıladı, sonra da oğlanla birlikdə müxtəlif oyunlar oynadı.

Oğlanın valideynləri Məğrurla övladlarının şənlənməsinə ləzzətlə tamaşa edirdilər.

Məğrur işini yekunlaşdırdı, kostyumunu dəyişib adi paltarlarını geydi. Oğlanın atası onu qucaqladı, razılaşdıqlarından da artıq pul verib dedi:

– Çox sağ olun, Məğrur müəllim! Sizə sonsuz minnətdaram. Oğlum keçən il xəstəlik tapandan bəri ilk dəfə idi ki gülürdü. Bilirsiniz necə ağıllı uşaqdır?! Onun yolunda canımızı qoymağa hazırıq!

Məğrur dinmədi, eləcə başını tərpətdi.

Sizin uşaqlarınız dünyanın ən xoşbəxt uşaqlarıdır, – oğlanın atası dedi, – sizin kimi ataları var, yəqin, hər gün onları əyləndirirsiniz.

Söz Məğrura şillə kimi dəydi. Yadına oğlu Uğura yedizdirdiyi milçək düşdü. Yol boyu xəstə oğlanın valideynləri ilə özünün Uğura etdiklərini tutuşdurub utandı.

Məğrur işlədiyi əyləncə mərkəzinə getdi. İş otağına keçib maskaları, kostyumları mizin üstünə tökdü. O, iki saat gərgin işlədikdən sonra Uğurun itinə çox oxşayan bir it kostyumu hazıladı. Kostyumu geyib güzgü qarşısında dayandı:

Mən tərzini aldığım heyvanlar kimi vəhşiləşmişəm. Günahlarımı yumalıyam.

O, arvadına zəng edib məsələni başa saldı. Arvadı son illər ərindən ilk dəfə idi ki, mehriban danışıq eşidirdi.

Məğrur xəlvətcə həyətə girdi, əl damında kostyumunu dəyişib it kostyumu geydi.

Uğur gözünü kitaba zilləmişdi. Qapıda it zingiltisi eşidib sevindi, hövlnak qapıya boylandı. Möcüzə idi: Topar dirilmiş, həmişəki kimi astanada zingildəyib onu həyətdə oynamağa çağırırdı.

Uğur qapıya tərəf sıçradı. İtinin boynunu qucaqlayıb bağırdı:

– Topar, hazır ol, bir azdan atam işdən gələcək, atam qapıdan girən kimi onu parçala! Did, parçala!



# TAM ANLAMIYLA ANAR

Həyat ŞƏMİ

İstanbulda yazıçı Anarla qarşılaşdım. 18 oktyabr tarixində Hyatt Centric (Levent) otelində "Son mənzili İstanbul olan azərbaycanlılar" kitabının təqdimat mərasimi keçirilirdi. Mən də dəvətli idim. Kitab XX əsrin əvvəllərində Türkiyəyə köç etmiş, son nəfəsinədək vətənimizin istiqlalı amalına sadiq qalmış və bu yolda yorulmadan mücadilə etmiş azərbaycanlı mühacirlərin əziz xatirəsinə ithaf olunmuşdu. Bəndənizin adını da, redaktor kimi kiçik bir zəhmətini dəyərləndirərək, kitaba salıblar. Sağ olsun dəyər verənlər.

Kitab Azərbaycan Respublikasının İstanbul şəhərindəki Baş konsulluğunun təşəbbüsü və Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyinin (AİDA) dəstəyi ilə nəşr edilib. Çox maraqlı və ağır zəhmətin nəticəsində araya-ərsəyə gəlmiş bir əsərdir. Kitabın müəllifi tədqiqatçı-yazar Dilqəm Əhməddir. Məzar yerlərinin təsbiti və fotoşəkillərin çəkilməsi də müəllifin gərgin əməyinin məhsuludur. Bu kitab qiymətli bir əsər kimi tarixi hadisədir. Yeri gəlmişkən, bir daha Dilqəm Əhmədi təbrik və təqdir edirəm.

Kitab Azərbaycanın Şuşa şəhərində doğulmuş və istiqlal tariximizdə önəmli rol oynamış Əhməd bəy Ağaoğlu və onun ailəsinin tanıtımı ilə başlayır. Bu ailənin üzvləri İstanbulda Feriköy İslam məzarlığında uyuyurlar. Kitabı redaktə etdikcə bir qarabağlı kimi həmvətənlərimin və Azərbaycanımın aydınları ilə qürur hissi keçirdim. Onu da deyim ki, Füzuli rayonunun Gecəgözlü kəndindənəm. Gecəgözlülər isə Qarabağ xanlığında mühüm yer tutan Cavanşirlər sülaləsinin Gecəgözlü tirəsinin davamçılarıdır. Bizim əslimiz-kökümüz, ulu əcdadlarımız Şuşadan, Qarabağ xanlığından gəlmədirlər.

İstanbulun bütün məşhur məzarlıqlarında uyuyan azərbaycanlılar araşdırılmış və adları bir-bir kitaba daxil edilmişdir: Feriköy İslam məzarlığı, Karaca Ahmet məzarlığı, Seyit Ahmet, Zincirlikuyu, Edirnekapı, Sakızağacı məzarlıqları, Yehya Efendi Dərgahı, Büyükada, Bülbüldere, Eyüp, Fatih, İhlamurkuyu, Kartal, Dedeler

və Bakırköy məzarlıqları. Azərbaycan xalqının istiqlal, azadlıq, kültür yolunda canlarını fəda etmiş aydınları və onların ailələri bu məzarlıqlarda uyuyurlar.

318-ci səhifədə məşhur Rəfibəylilər şəcərəsinin hərbçi nümayəndəsi və fəxri Səməd bəy Rəfibəylinin (Sayqın) adı keçir.

Tədbirin reallaşacağı salona daxil olanda Azərbaycan Yazıçılar Birliyinin sədri Anar müəllimi gördüm. Doğma bir adamımı görmüş kimi ona tərəf yeridim. Kübarcasna salam verib əl tutdum. Həyat yoldaşım Mehmet Sönməzə Anar müəllimi təqdim etdim. Onlar da isti görüşdülər (əslində, bu, onların ikinci görüşü idi. İlk görüşləri 08 noyabr 2023-cü ildə Pendikdə keçirilən Zəfər proqramında olmuşdu). Anar müəllim üzümə baxıb duruxdu, sanki kim olduğumu xatırlamağa çalışdı. Anlayan kimi hər zamankı tavrımla "Mən Həyatam" dedim. "Həyat Şəmi". Elə bil Anar müəllimin gözlərinə işıq yayıldı, dodaqlarına gülüş qondu, gülümsədi… O anda 1999-cu ilin mart ayında gənc yazarlardan bir neçəsi ilə Anar müəllimin AYB-dəki otağında baş tutan ilk şəxsi tanışlığımızı xatırladım. Mən o zaman da özümü təqdim edərkən Anar müəllim, indiki kimi gülüməsəyərək xoş bir ifadə ilə "Həə, adını eşitmişəm bu yaxınlarda. Həyat Şəmi sənsən? Bax, nə qədər simpatik bir gəncsiniz. Mən saçları dağınıq, üstü-başı səliqəsiz birini gözləyirdim" demiş, ardınca da gülərək "adətən, şair-yazarları belə görürük, təbii bir dağınıqlıqla" deyə əlavə etmişdi. Həm mutlu olmuş, həm də tam anlamıyla anlamışdım Anar müəllimi. O zaman ilk dəfə idi ki, Anar müəllimi belə yaxından görürdüm. Gənclik hərarəti ilə çox sevinmişdim (Və o vaxt- 2000-ci ildə, 10 nəfər gənc yazara Prezident təqaüdü veriləndə mənim adım siyahıya yeganə xanım yazar olaraq salınmışdı. Heç xəbərim də olmamışdı, bunu hər kəs bilir. Qohumlarım adımı efirdən eşidib mənə zəng etmişdilər. Elə sevinmişdim ki, uçmağa qanadım olmamışdı. Məni dəyərləndirən Anar müəllim və Ayaz Vəfalı olmuşdu. Bu gün onlara bir daha dərin təşəkkürümü bildirirəm. Üstündən 25 il keçib o görüşün. Ondan sonra Anar müəllimi çox tədbirlərdə, AYB-nin pilləkənlərində, Natəvan klubunda lap yaxından görmüşdüm. Ötən 25 il ərzində onun otağının qapısını hər hansı bir xahiş və ya arzu-istəyimlə bağlı döymədim. Etiraf edək ki, bu cür hallar şair-yazarlar arasında çox yaşanır.

Anar müəllimə, mən Həyat Şəmiyəm deyəndə üzündəki işıq mənə də sirayət etdi. Əziz adamımı görmüş kimi üzümə nur doldu. "Bakıya gələndə bir AYB-də məni də ziyarət edərsən, yaxşımı?" – dedi. Son dəfə bu yaxınlarda 29 sentyabr-07 oktyabr arasında Bakıda olmuşdum, bir həftəlik. O zaman Anar müəllimlə görüşmədiyim üçün bu gün utandım onun qarşısında. Son səfərimdə Elçin Hüseynbəyli, Qulu Ağsəs, İlqar İlkinlə hal-əhval tutdum AYB-də. Amma Anar müəllimin otağına tərəf belə getmədim. Düşünürdüm ki, indi yanlış anlayan olacaq. Sanki ondan bir təmənnam var – filan deyə! Hətta Bakıdaykən DGTYB-nin 25 illik yubiley tədbirinin keçirildiyini eşitdim və dəvət olunmasam da, o tədbirə qaça-qaça getdim. Yeri gəlmişkən, DGTYB-nin yaradıcılarından olmuşam (1998). Türk dünyasının onlarla yazar və şairlərinin əsərlərini (Ali Akbaş (şeirlər), Raisa Sarbi (Çuvaşiya: şeirlər kitabı), Robert Minnullin (Tatarıstan: şeirlər kitabı) Daniya Nağımullina (şeirlər), Elvira Hadıyeva (şeirlər), İlya İkonnikov (Quzey Arxangelsk: şeirlər), Razil Vəliyev (Tatarıstan: şeirlər kitabı), Tuğrul Tanyol (Türkiyə: şeirlər kitabı), Əbdürrahim Karakoç (Türkiyə, şeirlər) və unutduğum daha kimlər…) Azərbaycan

dilinə çevirmişəm. Ən son tərcüməm isə Vyaçeslav Al-Serginin iki hekayəsi olub ("Üç general" və "Nənəmin əziz xatirəsinə" hekayələrini ruscadan Azərbaycan dilinə çevirmişəm). DGTYB də sağ olsun, daim olsun…

Yuxarıda qeyd etdiyim kimi, 318-ci səhifə Rəfibəylilər şəcərəsinin nümayəndəsi Səməd bəy Rəfibəyli ilə başlayırdı. Anar müəllimin anası Nigar Rəfibəylinin ailə şəcərəsindən olan şəxslə. Səməd Rəfibəyli Cümhuriyyət Ordusunun Qarabağdakı 1-ci Cavanşir piyada alayının komandiri kimi 1920-ci ilin mart və aprel aylarında Xankəndi və Əsgəranda milli hökumətimizə qarşı qiyam qaldırmış erməni daşnakları ilə döyüşlərdə şəxsi qəhrəmanlıq göstərənlərdən olub. Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) süqutuna kimi "podpolkovnik" hərbi rütbəsində 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayının komandiri olub. Azərbaycanda Sovet hakimiyyəti qurulduqda Səməd bəy bununla barışmayıb, 1920-ci ilin iyun ayında rus bolşevikləri ilə erməni daşnaklarının birləşmiş qüvvələrinə qarşı Qarabağ üsyanında qeyri-bərabər döyüşlərdə peşəkar zabit kimi vuruşub. Üsyan yatırıldıqdan sonra isə S.Rəfibəyli komandiri olduğu hərbi hissənin yerdə qalan bir qrup heyəti ilə birlikdə Türkiyəyə keçib. Orda hərbçi kimi fəaliyyətini şərəflə davam etdirib və 19 yanvar 1980-ci ildə, 88 yaşında İstanbulda vəfat edib.

Anar müəllimin bu tədbirə xüsusi dəvətinin səbəbini də kitabdakı bu bölümlə əlaqələndirdim. Səməd bəy Rəfibəyli, Gəncədə "El atası" adlandırılan Ələkbər bəy Rəfibəylinin kiçik qardaşı Məşədi bəyin oğlu, Cümhuriyyət zamanında Gəncənin xalq qubernatoru olmuş Xudadat bəy Rəfibəylinin əmisi oğludur. Nigar Rəfibəylinin atasının, yəni Xudadat bəyin dostdoğma əmisinin oğludur.

Gəncənin böyük Rəfibəylilər ailəsinin, sülaləsinin çox parlaq nümayəndəsi idi Nigar Rəfibəyli. Ulu öndər Heydər Əliyev Gəncə səfəri zamanı Sərdar bağında Nigar xanım Rəfibəylinin abidəsinin açılış mərasimində iştirak edərkən çıxışında Gəncənin tarixi haqqında danışaraq Rəfibəylilərin xüsusi yerini qeyd edib. Nigar xanımın da bu şəcərənin davamçısı olaraq Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətlər göstərdiyini bildirib: "Ancaq onun ailəsinin həyatı da faciəli olmuşdur. Gəncəlilərə həm qəhrəmanlıq qismət olmuşdur, həm də, təəssüflər olsun ki, faciələr, repressiyalar da qismət olmuşdur. İyirminci illərin repressiyalarında, otuzuncu illərin repressiyalarında çox dəyərli gəncəlilər – ziyalılar məhv edilmişdilər. Onlardan biri də Nigar xanımın atası Xudadat bəy Rəfibəyli – Azərbaycanın ilk müstəqil hökumətində, Xalq Cümhuriyyətində nazir vəzifəsini tutmuş bir insan repressiya qurbanı olmuşdur. Ancaq tarix hər şeyi öz yerinə qoyur. Repressiya qurbanı olmuş Xudadat bəy Rəfibəylinin qızı Nigar xanım Rəfibəyli böyük yol keçmiş, Azərbaycan mədəniyyətinin inkişaf etməsi uğrunda çalışmışdır".

Anar müəllimlə İstanbuldakı görüşümüz məni haradan-haraya apardı. Məmnun oldum, xatırladım və bu səmimi yazını yazdım. Siz də oxuyun, dedim. Bakıya gedən kimi ilk görüşəcəyim insan Anar müəllim olacaq, inşallah!

# ŞEİR VAXTI

## Əkbər QOŞALI



***

Dəniz üstdən ötür dolmuş buludlar,
Kim bilir, hirsini hara tökəcək…
Əlim qaşım üstə, fikrim uzaqda,
Üfüqlər xəyaldı, sahillər gerçək…

Sahil dolur-daşır insanla bəzən
Yaşlı qayğılar var, gənc əyləncələr…
Fikri dağıtsa da körpə ləpələr,
Hamı burdan evə yorğun dönəcək,
Üfüqlər xəyaldı, sahillər gerçək…

Sahillər qocalır, sular gəncləşir,
Görəsən, yorurmu sahili dəniz?..
Neçə ki sahil var, neçə ki dəniz,
Onların sevdası heç bitməyəcək.

Balıqqulağı var burda bu qədər,
Burda pıçıltı da sirr qala bilməz…
Yerin qulağı var – belə deyiblər –
Yəqin ki, buranı görüb deyiblər.
Hamı əvvəl-axır burdan keçəcək.
Üfüqlər xəyaldı, sahillər gerçək.

***

Sahil adam kimi dalıb dənizə,
Arabir qırağa çıxır yosunlar.
Qatlasa dizini sahil bir azca,
Dəniz bir qıraqda göl-göl balalar…

Hər sahilə gələn sahilmi bilir?..
Hər dənizə girən dənizçi deyil;
Göz torpaqdan doymur, dənizdən bezmir –
Bu da Nuhdan qalma bir adət olar...

Birisi ağ çadır qurub – sağ olsun,
Kimsə ocaq çatıb – günü ağ olsun!
Gündüz əlimizdə bir çırağ olsun,
Atalar sözüdü: arayan bular…

Hər su qırağına sahil deyilmir,
Dənizin, sahilin sözü bitməyir.
Odur, könül alır, ya könül verir,
Könlün qıt vaxtında, ah,
nə xoş bazar…
Arabir qırağa çıxır yosunlar…

***

Atamın sözləri düşür yadıma:
Soyuğu yamandı, yaya aldanma…
Baxıram sıxlaşan, dolan buluda,
Yoxsa göy üzündə qurultaymı var?..

***

Nabran…
Dəniz sahili…
O başdan bu başa gəlib-gedirik
Sahildə nə olur? –
Balıqqulaqları, narın qum,
bir də
dənizin qırağa atdığı nəsə…

Nə yaşıl orman var,
nə də göy çəmən,
bəs nədi,
bizləri gətirən bura?
O yaşıl ormanlar,
göy çəmənliklər
çox gözəl olsa da,
bir gün gəlir də,
qaçmaq istəyirsən,
uzaqlaşırsan...
Bəzən özümüzdən qaçmaq istərik,
Özgədən, özündən, hər yerdən qaçan
Gəlib soluğunu sahildə alar…

Bəs dəniz olmayan ölkələr neynir?..
Dənizə, sahilə özgələr neynir?..

Ancaq biz…
Və ancaq Xəzər sahili…
Balıqqulaqları, narın qum,
bir də
Xəzərin qırağa atdığı nəsə…
Təsadüf olmayır dünyada heç nə…

Balıq tanımayır öz qulağını,
Deyirlər balığın yaddaşı olmur;
Amma insanlarçün
bu balıqqulaqlı,
bu narın qumlu sahillər
sahilsiz xatirə yığnağı olar –
O ya yaşanıbdı, ya yaşanacaq…

Heç nə gərək deyil,
Nə yaşıl, nə göy…
Boz sahil
boyunca yeriməyimiz,
Dənizi dinlərcə kiriməyimiz
Hopacaq sabahkı xatirələrə –
Bu balıqqulaqlı, bu narın qumlu,
Heç yerə getməyən üzüboz sahil
Dünyanın ən əlvan yeri olacaq…
Ən rəngli yuxular qazanacaq o
Həsrətin əlçəkməz süsü olacaq…

Neynək, bu sahildə sadədil olaq,
Balıqqulağına tutunaq duraq;
Bu dəniz, bu sahil, bu qum nə deyir?..
Torpaqla dənizin öpüşdüyü yer
Nəsə bir hikmətə sahib olmalı…

Gəl hədiyyə verək bir-birimizə:
Bu bir cüt qızılı balıqqulağı –
Biri sənin olsun, biri də mənim,
Bizi bu sahilə gətirər yenə
Dəniz pıçıltılı balıqqulağı…

***

Dəniz qovur istini,
Öz istim yetər, deyir –
Nə günəş yox olacaq,
Nə Xəzər itər – deyir.

Sahildə nə hikmət var? –
Fikirlilər axışar
hər axşam-səhər, deyir;
Özüm də darıxıram –
Adamdan betər, deyir…

Hər sahilə gəlişim
Özümdən qaçışımdır;
Dodağımdı dalğalar –
Qara torpaq, ağ alın,
İzn ver, öpüm – deyir…

Dəniz-Torpaq sevgisi
Heç zaman bitən deyil.
Tanrı verib bu hökmü,
Qiyamət günündə də
O hökm keçər – deyir.

Bu da şair alxışı:
Dalğana təpər! – deyir.

O qədər öyrəşmişik –
Mən əl edib gedirəm,
Şahə qalxır dalğalar,
Mənə elə gəlir ki,
uzaqdan "Əkbər!.." deyir…

***

Dənizi dinləyirəm,
Nə danışır, bilmirəm.
Mən dağ dili bilirəm,
Çöl dilini bilirəm.
Çəməndə gül bilirəm,
Dəniz dili bilmirəm.

Dənizi dinləyirəm,
Nə danışır, bilmirəm.
İnsan bilmədiklərin
Öyrənməyə aşina.
Bəlkə, ona görə də
Dəniz öyrədən olub,
Dağlarsa dərd ortağım…

Dağlardan qopan çaylar
Dinləyib dərdimizi.
Yuxumuzu dinləyib,
Nə ki gizlinimiz var,
Sulara danışmışıq…
Dərdimiz yüngülləşib,
Necə dərdlər yüklənib.
Nə yuxular eşidib,
Dənizə qaçıb çaylar.

Bizim bütün çayların
Son ünvanı Xəzərdi...

Dədəmiz-babamız da
Hey axın eləyiblər
Dağlardan dənizlərə.
Yoxsa öz sirlərinin,
yoxsa yuxularının
ardınca at çapıblar.

Atlarının ayağı
dənizə dəyməyincə
dinməyibdi ulular.

Harda dəniz vardısa,
Bir türk at çapıb ora,
Bir çay dərd daşıyıbdır
O dənizə, əminəm.
Yuxumuzun dalınca
gəlmişik dənizlərə.
Qabarırsa dənizlər,
Yuxunu xeyrə yozub,
Sakit ləpələyirsə,
qaramatı itirir.
Dəniz ana kimidir –
Ata Dağlar sussa da,
Ana gah layla çalar,
Gah əsib-coşub susar…

Dənizi dinləyirəm,
Dinləyib öyrənirəm.

Yuxumuzun ardınca
sənə gəlmişik, dəniz!

## URMU GÖLÜNÜN ÖYKÜSÜ

Adıma Urmu derlər,
Suyum göyə çəkilib…
Göllüyüm qeyb olsa da,
Yenə quru göllərin ən gözəli özüməm.
Türküstan talesizi,
Aralın bacısıyam;
O daha tez qurudu –
Məhşərə hazırlaşır
atamqızı elə bil…

Ən uzaq yaddaşımdan süzülüb gələnləri
danışım, qoy qalmasın –
Min illər öncəydi – biz ayrılanda.
Aral sağ əlini çəkdi başıma,
Başıma gələnə bax –
Min illər sonradı

indi biz ikimiz də quruyuruq,
quruyuruq...
Nə mənim Acıçayım,
nə də bacım Aralın
Ceyhun ilə Seyhunu
su daşımır dağlardan…

Xəzərə də əl çatmır…
Araz boynuburuqdu…

Aralın da mənimtək
gəmiləri pas atır…
Tanrının işinə bax –
Duzlu su çürütməyən gəmilər indi
bir-bir
susuzluqdan qəhr olur…
Elə bil dil bilirlər,
Elə bil göl bilirlər…
Göl vardımı bizimtək?..

Siz, ey zalım göllərin ən zalım gəmiləri,
Sirdaşınız kim olsun?..
Kölgənizə yığışıb
əsnək vurur dəvələr
Balıqlar üzərdilər böyrünüzdə ilmüdam,
Bəlkə, mən bilməyirəm,
Balıqlar dəvə olub?
Bircə onu bilirəm,
dəvələr balıq olmaz…

Qanadsızdı dəvələr,
Dəvələr dözümlüdü,
Dözəcəklər, dözəcəklər,
Bizim son qətrəmiz də quruyan gün
–
baxarsız,
qanad çıxaracaqdır
kölgədəki dəvələr,
inanın, düz sözümdü…

Xəzərə əlim çatmır…
Əlimi göyə açdım…



Sevinc ELSEVƏR

# GİZLƏNPAÇ

Gizlənməyə elə yer seçmişdi ki, heç kim onu orda axtarmağı ağlına gətirməzdi. Uşaq vaxtı da gizlənpaç oynayanda ən etibarlı sığınacaqları o tapırdı, uşaqlar əsir-yesir olurdular, heç kim oyunun axırına kimi onu tapa bilmirdi. O vaxtlar bütün həyatının bu cür oyunlarla keçəcəyini bilməzdi. Nə biləydi elə hey gizlənəcək, onu axtaracaqlar. Uşaqlıqdakı oyunlarda gizləndiyi yerdən çıxmağı faciəli nəticələnməzdi. İndisə gizli qalmaq həyat idi, yaşamaq idi, tapılmaq ölüm.

Gözünün qabağında dostu Fuadın bir qolunu dirsəkdən kəsdilər. Bunu nümayişkaranə şəkildə hamının gözü önündə elədilər ki, başqaları da "gözüçıxmış qurd qardaşından" dərs alsın.

Qoca anasının evini satsa, uduzduğu pulu ödəyə bilməzdi. Odur ki, yox olmağa qərar verdi, aradan çıxmalıydı. Amma hələlik uzağa gedə bilməzdi. Ölkədən də çıxa bilmirdi. O da ayrı söhbət idi. Fərariydi, qaçmışdı ordudan. Harda tutulsa, gedəcəkdi əlli-ayaqlı.

Kəndlərinə getməyi heç ağlına da gətirmədi. Axtarışdaydı. Həm hökumət axtarırdı, həm qumarbazlar. Şəhərdə yoxa çıxandan sonra onu əvvəlcə öz rayonlarında, öz kəndlərində axtaracaqdılar. Verilən vaxt daralırdı, zaman daraldıqca nəfəsi tıncıxırdı. Qəfildən gecə yarısı qan-tər içində yuxudan ayılaraq lüt-üryan kirayə yaşadığı birmərtəbəli həyət evinin pilləkənində oturub fikirli-fikirli siqaret sümürəndə, bədəninə daraşan ağcaqanadları könülsüz-könülsüz qovanda ağlına gəldi bu fikir.

Bir həftə qabaq əmisi oğlunun bacanağı müharibənin od-alovundan qorumaq üçün ailə-uşağını yığıb gətirib tökmüşdü kəndlərinə. Kənddən gizlicə ona dəyməyə gələn qardaşı xəbər vermişdi bunu. Əmioğlunun bacanağı deyirmiş ki, bu gün-sabahlıqdır, ola bilsin, kəndləri

işğal olunsun. Gülləbaranın altında arvad-uşaq sarılığa tutulub. Axır yığışıb köçüblər kənddən. Ancaq kənddən hamı köçməyib hələ, qalanlar da çoxdur orda.

Qərara gəldi: o, kənddə, əmioğlunun bacanağının evində gizlənəcəkdi. “Ara sakitləşsin, sonrasına baxarıq” – təsəlli verdi öz-özünə. Uşaqlıqdakı kimi sevindi lap. Elə yerdə gizlənəcəkdi ki, heç kim onu tapmayacaqdı yenə. Bəlkə, ölüm belə!

Hamının qaçmağa üz qoyduğu kəndə gedib gizlənəcəyi kimin ağlına gələrdi? Əmioğlunun bacanağı Nailin maşınıyla yola düşdü. Nail kənddə qalan bəzi əşyaları götürməkçün gedirdi. Bacısıgilə də daşınmaqda kömək edəcəkdi.

Dağların döşündə, yaşıllığın içində gözəl bir kənd idi. Adam heç belə kənddən çıxmaq istəmirdi. Canını vətəndən çox istəməyinə baxmayaraq, qaçıb gizlənmişdi, ürəyi pis oldu, kövrəldi üzü dağlara baxanda. Dəhşətli təəssüf hissi bürüdü bütün düşüncələrini. “Kaş müharibə olmayaydı, iş bu yerə çatmayaydı” – dedi ürəyində.

Bu cür gözəl kəndi heç düşmənə vermək də rəvadırmı? Doğrudan da, uğrunda ölməli kənd idi!

Elə bilirdi hamı çıxıb gedib deyə, kənd kimsəsiz olacaq. Ancaq küçələr adamla dolu idi.

– Kənd boşalmayıb axı deyəsən?.. – sükan arxasından gözünü yola zilləyən Nailə sual elədi.

– Kim deyir ki, kənd boşalıb? Bizim elin adamları asanlıqla çıxmazlar kənddən. Qələt eləyir düşmən. Budey, bunu görərlər kənd yerinə, – sonuncu cümləni deyib, dirsəyini göstərdi gözünü yoldan çəkmədən.

Baxmayaraq, Nail hamıdan qabaq kənddən çıxmışdı, kəndin təəssübünü çəkirdi.

– Bizə baxma ey. Arvad başımı xarab elədi. Bacısıgil də o yandan. Əl çəkmədilər, dedilər, gətir tök bizə arvad-uşağı. Mən də başım dinc olsun deyə, apardım. Həm də şər deməsən, xeyir gəlməz. Gərək işini ehtiyatlı tutasan. Ancaq özümün bir ayağım kənddə olacaq. Ev-eşiyi başlı-başına buraxmaq olmaz ilin-günün bu vaxtı.

– Yaxşı eləmisən. Ağllı iş görmüsən, – deyib maşının şüşəsini aşağı endirdi. Sərin meh boynuna, boğazına doldu, elə bir həzz duydu ki, az qaldı sevincdən qışqıra. Amma ar elədi, yaylağa istirahətə gəlməmişdi.

Maşın kəndin içiylə irəlilədikcə yollarda qabaqlarına çıxan adamların üz-gözünə diqqətlə baxırdı. Qəribədir, bu kəndə ilk dəfə yolu düşməyinə baxmayaraq, adamları doğma gəlirdi, aralarında köhnə tanış axtarırdı gözü. Halbuki yeganə tanışı içində oturduğu maşının sürücüsüydü. Adamları həm də ona görə nəzərdən keçirirdi ki, əhvali-ruhiyyələrinin necə olduğunu öyrənə. Əlbəttə, narahatlığı var idi, kənddə gizlənmək qərarına gəlsə də, gülləbarandan da qorxurdu. “Görəsən, yağışdan çıxıb yağmura düşməmişəmmi?” – deyə götür-qoy edirdi ürəyində. Ancaq bir qərara da gələ bilmirdi. Düzmü eləyirəm, səhvmi eləyirəm deyə, özünə təskinlik verə, özünü sakitləşdirə bilmirdi.

Yol boyu qarşılarına xeyli qolunu, qıçını itirmiş cavan çıxdı. Onları görəndə qəribə hisslər keçirirdi. “Bu adamlar hamısı müharibənin od-alovundan keçiblər. Qollarını, qıçlarını torpaq, millət yolunda qoyublar. Ancaq mən qorxumdan qaçdım, vuruşmadım, gizləndim. Qaçdım, nə oldu? Başqa müharibələrin içinə düşdüm” – qara-qara düşündü.

Qolu gözünün qabağında kəsilən oğlan ağlına gəldi. O hadisə hər gecə yuxu-

larında təkrarlanırdı. Dözə bilmirdi. Hər gecə yuxuda ödü ağzına gəlir, ürəyi qalxır, yediyi-içdiyi xirtdəyinəcən qalxır, boğazına dirənir, boğulhaboğulda güclə ayılır, eyvana qaçırdı. Hamilə arvadlardan betər olmuşdu. Qusub bulayır, sakitləşir, sonra sabahadək siqareti siqaretə calayırdı. Bundan böyük cəza ola bilməzdi onunçun. Bəlkə də, gedib-gəlib özünü gizlicə günahlandırdığına görə bütün bunlar başına gəlirdi.

Taledən hara qaçasan? İndi bu cəbhəyanı kənddə başına nələrin gələ biləcəyini düşünəndə əti ürpəşdi. Bir gecə yatdığı evə raket düşsə, tikəsi belə ələ gəlməyəcəkdi. Sonra özünə təsəlli verdi ki, onda hər şey anidən baş verəcək, heç nə hiss etməyə vaxtı olmayacaq, bəlkə, heç öldüyünü də başa düşməyəcək. Hər halda, göz görə-görə qolunu kəsməklərindən yaxşıdır. Hələ qolunu deyir, bəlkə, onlar qıçını kəsmək istədilər?! Bu daha pis! Daha böyük faciə!

Müharibənin yarım-yarımçıq qoyduğu cavanlara utancla baxıb köks ötürdü. Bəli, onlardan hansınınsa yerində ola bilərdi. Ancaq canının hayındaydı. Bütün həyatı alt-üst olub, gizlənpaçla keçib. Halbuki gedib bir qolunu, bir qıçını, lap elə bir gözünü itirib gəlsəydi, indiyə qalan həyatını rahat yaşamağındaydı. Üstəlik, qəhrəman kimi. Alnıaçıq, üzüağ. Daha belə qorxaq kimi yox! Əlbəttə, ölə də bilərdi, ancaq onsuz da bu da yaşamaq deyildi. Üstəlik, bu kənddə, kim bilir, necə öləcək deyə düşünəndə ürəyi elə sıxıldı ki, gözünə lap qaranlıq çökdü.

Başqa bir yandan fikir onu götürmüşdü. Bu müharibədən qayıdan oğlanlar soruşsalar ki, ilin-günün bu vaxtı kəndlərində nə iti azıb, onlara nə deyəcək, nə cavab verəcəkdi. Hər halda, qumarbazlardan qaçıb gizləndiyini deyə bilməzdi. Fərari olduğunu bilsələr, üzünə tüpürməzlərmi? “Biz gedib sənin kimilərin yolunda can qoymuşuq, əlimizi, qolumuzu, ayağımızı itirmişik. Sən də avara-avara gəzib qumar oynamısan? Üstəlik də, canının hayındasan!” – deyə?!

Nail onu düşürdüb qapı qonşusuyla tanış elədi, bacısıgili də yığıb geri qayıtdı. Nailin qonşusu Rauf yaxşı oğlan idi. Qonağın gəlişinin səbəbini öyrənmək istəsə də, sırtıqlıq eləyib soruşmadı, sözzad da vurmadı. Qonağın gəldiyi günün axşamı öz həyətlərində yaxşı bir süfrə açdı, kənd çolpası, çəkmə arağıyla. Oturub vurdular, söhbətləşdilər, hətta mahnı da oxudular.

Kefi kökəlmişdi. Bir-birinin dalınca sağlıq deməyə başlamışdı. “Bunu da içək bu kəndin igid, düşmənə qan udduran oğlanlarının sağlığına! Biri elə sənin sağlığına!”... sağlığı eşidəndə Rauf tutuldu, qaralan kimi oldu. Gülüşü dodağında dondu, qaşlarını çataraq çımxırdı:

– Ələ salırsan məni?

– Niyə görə ələ salım ki? Başa düşmədim! – onun da gülüşü dodağında dondu.

– Özünü axmaqlığa qoyma! – Rauf əməlli-başlı sərxoş idi. Masanın arxasından durub tək qoluyla yaxasından yapışmışdı.

– Elə bilmə, təkqolam deyə, başını partlada bilmərəm! – Rauf daha da qızışırdı.

Raufun tək əlini birtəhər yaxasından ayırıb ayağa qalxdı. Burnunun bərabərində dayanıb xoruzlandı.

– Nə deyirsən e sən? Başın xarabdı? İçə bilmirsənsə, içmə də bu zibili. Pis söz dedim? Sənin sağlığına içdim də! Biz vaxtında avaralıq eləyəndə sən gedib vuruşmusan! Qolunu itirmisən! Sağ ol! – əməlli-başlı özündən çıxmışdı.

– Sənə kim deyib ki, mən döyüşdə olmuşam? – Rauf qəfil sakitləşib, gedib yerində oturdu. Sustalmışdı. Tək əliylə üzünü ta alnından çənəsinədək sığadı. Elə bil salavat çəkdi.

– Heç kim deməyib! Elə deyil ki? Yoxsa sən də qumarda itirmisən qolunu? – gözlərini bərəldərək soruşdu.

– Yox, əşi! Qumar nədir?! Bu kənddə qumar nə gəzir?! Bizimki ayrı söhbətdi. Biz kasıbçılıqdan bu gündəyik.

Sonra Rauf işin nə yerdə olduğunu açıb danışdı. Sən demə, kənddə gördüyü oğlanların hamısının başına eyni bəla gəlibmiş. Qıtlıq, çətin günlər başlayanda kənddən keçib gedən yad qatarları soyurmuş cavanlar, canlarını riskə ataraq. Qatar gedə-gedə vaqonların üstünə atlanır, əllərinə keçən malları aşağı tullayırlarmış. Bəzən bu işin axırı yaxşı qurtarmırmış, faciəylə nəticələnirmiş. Ani bir ehtiyatsızlıqdan cavanlardan hansısa biri qatarın altına düşür, ən yaxşı halda qolunu, qıçını, ən pis halda isə həyatını itirirmiş.

Raufu diqqətlə dinlədikdən sonra hər şey ona aydın oldu.

– Vallah, xəbərim yox idi. Bilsəm ki bu səni belə incidir, heç söhbət açmazdım ki! – deyə üzrxahlıq elədi.

– Yaxşı, başa düşdük. Uzatma! – Rauf əl atıb süfrədən iri, yaşıl bir almanı götürüb dişlərinə çəkdi. Oğlan almanı elə qəzəblə dişləyirdi ki, xartıltıdan qulaqları narahat oldu.

Alma xartıltısından əti ürpəşirdi. Onu tanıyanlar hamısı bu adətini bilirdi, bilməyənlərə də bildirirdi. Ancaq indi Raufdan almanı elə xartıltıyla yeməməyini xahiş edə bilmədi, ürək eləmədi. Rauf almanı yeyib qurtarana qədər qulaqları bu işgəncəyə dözdü.

Rauf qəzəbdən damağını da dişləyib qanatdı. Qanlı almanı masaya qoyub ağzındakı çeynəyib kənara tüpürdü. Ancaq onda ətinin ürpəşməyi dayandı.

Bir azdan yenə kefləri kökəldi. Kəndlərinə gələn qonağa olan maraqları Raufun dost-tanışını süfrə başına yığmışdı. Deyir-gülür, söhbətləşir, zarafatlaşırdılar. Cavanların içində biri vardı, hər iki qolunu itirmişdi. Ən çox diqqətini o oğlan çəkirdi. Hər iki qolunu dirsəkdən aşağı itirən cavan içkisini özü içirdi. Badəni dirsəyinin büküşüylə götürür, ağzına aparırdı. Oğlan maşın sürür, kənd içində sürücülük edirdi. Hamıdan çox o gülüb-danışırdı. Arada kürəyi qaşındı, oğlan üzünü Raufa tutub kürəyini qaşımağı xahiş elədi.

Lap yanında oturduğuna görə tez əlini həmin qəribə oğlanın kürəyinə atdı. Samir dedikləri oğlanın gözləri xoşbəxtliklə parladı:

– Eşitmisənmi, kürəyində qaşınan yeri ilk dəfədən tapan adam səni, həqiqətən, çox istəyir?! Nə əcəb tapdın sən? Durnanı gözündən vurdun e, qardaş!

Öyrəndi ki, hərənin bir yarası var. Birinin atası öldürülüb, birinin qardaşı vurulub, o birinin ən yaxın dostu. Evinə bomba düşəni var, əsir götürülən doğması olanı var. Bu cavanların hamısı lazım olan vaxt lazım olan yerdə ola bilmədiklərinə yanırlar. Kəndi tərk eləməməkləri də bu səbəbdəndir. Onlar gözləyirlər. Son nəfəslərinə qədər dayanmaq üçün, ürəklərinin atəşinə bir damla da olsa, su səpmək üçün gözləri yoldadır.

Gecənin bir aləminə qədər içdilər, mahnı oxudular. Şən mahnılar da oxudular, qəmli mahnılar da.

Yolun sonu idi, bəlkə də. Yəqin ki, bu kənddə öləcəkdi. Necə, hansı şəraitdə bilmirdi. Ancaq həyətdə paltar sərdiyi

yerdə vurulan anasının dərdini ürəyində daşıyan Akifi, qardaşı cəbhədə itkin düşən Ramini, çay kənarında minaya düşüb doğulmayan körpəsiylə göyə sovrulan sevdiyinə ağlayan Fəridi, sürdüyü yük maşınında gülləbaran olunan atasına yanıb-yaxılan Raufu, bütün ailəsini bir gecədə, bir damın altında itirən Samiri qoyub heç yana getməyəcəkdi, buna artıq əmin idi. Onların meşə boyda yanğısını söndürməyə dimdiyində bir damla suyla gedəcəkdi boz, vəfalı sərçə kimi.

Adını xatırlamayacaqdılar. Dəftərlərə, kağızlara fərari kimi düşəcəkdi, bəlkə də. Ancaq bu onu qətiyyən narahat eləmirdi indi. Əsas odur ki, artıq nə istədiyini bilirdi, qalmağı özü seçirdi, onu buna heç kim məcbur eləmirdi.






Günel AĞAZADƏ

## YUXULU GERÇƏKLƏR

Mənim gerçəklərim yuxu kimidi,
Yalan səhərləri açmaz gözlərim.
Nə qaranlıq bitər, nə gecə, yarım...
Mənim işıqlarım yox yollarımda,
Bir ovuc ulduzu tutub ovcumda
Səmaya səpirəm günəş batanda,
Yumuq gözlərimdə kədər yox, qəm yox...
Biri gözlərimi açmaq istəsə,
Gözümə baxmağa cəsarəti yox.
Mənim səssizliyim səslə doludu,
Dinləmək istəsən, topla özünü.
Acı çəkdiyini görməyim deyə,
Məndən uzaqlara çevir üzünü...

## MƏNƏVİ ÖLÜM

Məntiq adlı yola çıxdım,
Qısa zaman, qısa yolum.
Yorulduqca addım atdım
Və zamansız mən yoruldum...
Saatlarda qaldı gözüm,
Saat diliminə döndüm:
Parçalandım, bölündüm
Və mən öldüm...
Gözlərimi açıb gördüm:
Zaman, məkan boşluğunda
Yaşayıram...
Geriyə yolum yox,
Görünmür önüm.
Bu mənəm və yaşadığım
Mənəvi ölüm...

## QATLANDIM

Bu dünyanın işi çətin:
Eniş-yoxuş, dərə-təpə...
Harda ki bitdi taqətim,
Bu dünyanı hamarladım.
Dörd qatladım, tumarladım,
Döş cibimdə saxladım...
Bu dünyanın işi çətin:
Harda ki bitdi taqətim,
Hamar yolda, düzdə qaldım...
Ətrafıma bənd bağladım,
Sərhəd qoydum, tikan əkdim.
Gül bitirdim,
Əllərimə zəncir vurdum,
Güllərə ümid yetirdim...
Bu dünyanın işi çətin:
Harda ki bitdi ümidim,
Çox yoruldum...
Mən bu dünya işlərinə
Elə də çox qatlanmadım,

Öncə Allaha bağlandım.
Sonra da bir övlad kimi
Bir az övlad payım üçün,
Bir azca da özüm üçün
Dörd qatlandım.
Sol döşdəki cibdə qaldım...

## BİLSƏN...

Sən bir bilsən...
Ən ümidsiz zamanımın,
Ən qaranlıq yollarımın
Aydınlıq əllərisən –
Gözübağlı tutunduğum,
Xəyalıyla rəqs etdiyim,
Tənhalığımı sevdiyim...
Sən uzaqsan, sən yaxınsan -
Addım-addım yeridiyim,
Həsrətində böyüdüyüm.
Gözlərimi yumub-yumub
Səbəbsizcə sevindiyim...
Uzun-uzun gecələrdə
Pıçıltımı bölüşdüyüm.
Yuxudaykən sayıqlayıb,
Sevdiyimi söylədiyim;
Oyanıb sevgimi dandığım,
Sən atəşində yandığım;
Səssizliyinə dözməyib
Gizli-gizli ağladığım...
Sən yoxluğum, sən varlığım,
İllər öncəm cavanlığım.
İllər sonra... İllər sonra
Xatirəsində qaldığım.
Uzaqlara dalıb-dalıb
Saçlarının ağ telində
Həzin-həzin qocaldığım.
Sən bir bilsən...
Ən ümidsiz zamanımın,
Ən qaranlıq yollarımın
Aydınlıq əllərisən,
Gözübağlı tutunduğum...

## İKİÜZLÜ SABAHLARIM

Yenə səssiz bir gecənin
Çiyninə yaslanıb qaldım.
Əlləri yox ki gecənin,
Pərişan qaldı saçlarım.
Həqiqətlər bir-bir gəlir,
Yuxu olur...
Yuxu tutmur gözlərimi,
Ruhum yanır, cismim donur.
Kim bilir, daha nə qədər
Yalan-yanlış sabahları
Gözüaçıq qarşıladım...
Səmalara aşiq olsam,
Günəş də, ulduz da, ay da
Elə mənim özümdədi...
Aşiq olduğum səmanın
Zülmətində aydınlandım.
Gündüzün zülmət üzündən
Qaranlıqlara qapandım.
Mənə bir gün vermədilər
İkiüzlü sabahlarım...

## BİZDƏN BİRİ

Getməlidi bizdən biri –
Dayan bir az,
Dayansın bizdən birisi.
Havamda yağmur qoxusu,
Gözümdə kədər yuxusu,
Saçlarımda külək səsi...
Qoy getsin bizdən birisi,
O, mən olum.
Sevmək üçün qalmaq nə ki?
Qırmaq lazım
Sevgi adlı bu qəfəsi...
Bəlkə, elə mən gedərkən
Bu küçədən, bu şəhərdən,
İtirərkən izimizi
Sevəcək bizdən birisi...



## *“Ulduz”da “Genç yürekler”*

“Yazının işığında geleceye yürüyoruz...” “Genç Yürekler” dərgisinin şüarı olan bu cümlə ilə yazının sevdalı yollarına addım qoymaq xoşbəxtlikdir. Nə qədər Rey Bredberi “Dadli Stounun ölümü” hekayəsində beynimizə yeritməyə çalışsa da ki “yaşamaq yazmaqdan əfzəldir”, ruhumuz bunu qəbul etmir. Yazmaq taleyimiz, yazmaq həyatımızın özüdür. “Genç Yürekler” dərgisinin adı da elə-belə seçilməyib. Dərginin heyəti “bir gəncin ürəyinə toxunmaqla başlar hər şey” gerçəkliyi ilə Türk dünyasında özlərinə ulduz yolu salmaq qərarında idilər 2019-cu ildə. 5 il keçdi, yolları Türk dünyasının Qafqazda vuran ürəyi olan Bakıda “Ulduz” ilə kəsişdi.

Qulu Ağsəsin rəhbərliyi ilə “Ulduz” kollektivi daim ədəbiyyata sadiqdir. Hər ay yeni sayının çıxmasını nənəmin turşulu supu, anamın qurudlu xəngəli kimi dişlərimin ucu sızlaya-sızlaya gözlədiyim tək jurnaldır “Ulduz”. Müqayisə edə biləcəyim daha həsrətli heç nə tapammaram; nənəm 5 ildir ki, bu dünyada yoxdur, anam 10 ildir ki, qurud qoymur. Hər ayın başında yenilənən həsrətimi hər ayın sonu “Ulduz”la ovuduram. Və bu sətirləri yazarkən belə, gözlərim dolur...

Hə, təsəllidir mənə “Ulduz”. Və bu ilin sentyabrında “Ulduz”dan “Genç Yürekler” keçdi. Həsrətimin rənginə ay-ulduzlu al bayrağın məğrurluğunu qatdı “Ulduz”un sentyabr sayı. Balaca Şəkinin böyük ürəkli insanları qapılarına üçrəngli bayraqla yanaşı, al bayraq da asıblar, gələnlər görür. Və mən Şəkinin gözəl payızında “Ulduz” oxuyuram.

Muhterem Şahin “Senin törene kurban” deyə yazıb Bestami Yazgana ithafən... O Bestami Yazgan ki, “Ah benim korlu yüreğim” şeirində deyir: “Hasret başa taç yazılmış, Dert, alnına borç yazılmış...” Bəlkə də, sayın Muhterem Şahin “Tozlanmış raflardan bir şiir buldum” deyəndə elə bu şeiri nəzərdə tutub, kim bilir?! Düşdüyü o heyrətin içində Tanrının ona əta etdiyi şair ruhunu adam arasına çıxarmağı bacarıb. Təsəllisi bu olub: “Hayret edip şaşmak yasak!” “Burası Bozok yaylası” şeirində deyir ha, sayın Şahin, “her ilçesi bir gül koklaması”, “Genç Yürekler”e ürəyini açmış “Ulduz” da gül qoxusu saçır. Ürək qoyulan hər yazıdan gül ətri gələr!

“Genç Yürekler” dərgisinin yola qoyulduğu gündən bu yana qət etdiyi məsafə, kamına yetdiyi səmt ağacları, nəfəs dərdiyi yolayrıcları haqqındadır Mehmet Hakkı Yanmazın şeiri. “Yazının işığında atılan addımlar gələcəyə çatacaq” inamı var şeirin içində:

İlmin, eğitimin, bilgin ve kültürünle, Kalemin ve kelamın tesirli hikmetiyle, Aydınlık günler kapında, sabret, az ötende,“Genç Yürekler”, gelecek gelecek seninle.

Arslan Kayanın (Âhar) “Şairin şiiri”ndə pəncərə-dünyaya baxıb keçən şairlərin xatırlanması vəfadır-şairə, şeirə, insanın özünə. “Sürgündeyken Halikarnas gibi Sessiz gemilerde türküler söylemek” arzumudur, yaşanmışlıqmıdır, xatirəmidir? Bəlkə, heç biri deyil, Tanrının şairə sirr pıçıldamasıdır? Halikarnas balıqçısının-Cevat Şakirin Azra Erhata göndərdiyi son məktubdakı o cümlələri xatırlayıram: “Yahu, mən bu dünyaya bir daha gəlməyəcəyəm. Dağların, suların necə axdığını görsünlər ki, gözlərim açıq qalmasın…” Şeirlərdəki sirləri də bilsəydi insanlar, şair olaraq gözümüz açıq qalmazdı dünyadan yükümüzü çəkəndə… Müşfiq demiş, “arzuya bax...”

“Turana esiyor Baküden rüzgar, Yeşil, kızıl, bir de gök, ay-yıldız var!” Cemil Sütbaşın “Kızıl elma” şeirini oxuyandan sonra dilimin əzbəri olan misralardır. Heca-heca qürurlanmışam! Qürurumun müşayiətçisi Fazlı Sakarın “İki hece” şeirindən seçdiyim misradır: “Sokakları bırakan yolun hayalindeyim”. O yolun ki, Türk dünyasının bu başından başlayır, o başınacan gedir.

Erdem Ayıkın “Değişmeyen tek şey” adlı yazısını Baumanın 44 məktubunun davamı kimi oxudum. Həyatımızın hər anında fərqində olmadan özümüzə nəsə qazandırdığımızı deyən müəllif insanın nəyisə dəyişmək cəhdinin bəzən boşuna olduğunu vurğulamaqdan çəkinmir. Onun fikrincə, insan dəyişimə özündən başlamalıdır. Güllərin quruması istəməyən insan hər gün o gülləri sulamağı vərdişə çevrilməlidir. Bacararmı? Erdem Ayıkın yazısının sonunda açıq qalan sual budur.

Şərqi Anadolunun qış mənzərəsində insanın xoşbəxtlik arayışından bəhs edir müəllifi Esma Erdoğan Ayçiçek olan “Doğudan bir kış öyküsü”. İnsana ən soyuq qış günündə belə, isinməyi öyrədən yazıdır.

Ayşe Nur Sivri “İstikbalimizin İstiklali” yazısını Mehmet Akif Ersoyun “İstiklal marşı”na həsr edib. Qəşəng bir cümlə keçir yazıda: “Biz Türk milletiyiz, aç yatarız, yeri gelir, susuz kalırız; ancak Vatan olmadan yaşayamayız”. Vətənə olan sevginin sadə sözlərlə bu qədər dərin anladılması Ayşe Nur xanımın qələminin peşəkarlığının göstəricisidir.

Dostluq-mənə görə, sevgidən daha mücərrəd qavramdır. İnsanı sevgidən çox, məhz dostluq xəyal qırıqlığına uğradır. Bumin N.Dündarın “Dost hançeri” şeiri elə bu xəyal qırıqlıqlarının poetik əksidir. “O`ndan gelir, O`na gider” deyən Bestami Yazgan isə “həyat-məmat arasında qaçaraq keçən ömrün” faniliyini anladaraq, sanki dost xəncəriylə uğradığımız xəyal qırıqlıqlarını bağışlamağımızı diktə edir. Mənsə sayın Bestami Yazgana üz tuturam: “Yalan dünyanın köçəri quşları kimi yaşadığımız zaman kəsiyində sol tərəfimizə dost əliylə son sürət saplanan bıçağı bağışlamayan bizmi günahkarıq, yoxsa o bıçağı saplayan?”

Ahsen Yıldız Şahin və Selahaddin Kaşgarlı öz yazılarında uyğurların məruz qaldığı zülmə diqqət çəkirlər. Yazıları oxuduqca Türkün tarixində hələ dilə gəlməyən, hələ üstü açılmayan nə qədər zülm olduğunu düşündüm. Babalarım, valideynlərim 1988-ci ilin o qarlı qışında canlarını götürüb Ermənistan-Azərbaycan sərhədini bəri keçəndə də zülmün əlindən qaçmışdılar. Zülm zülmdür-zaman onun rəngini də, yaşatdığı ağrıları da dəyişmir. Bişirdiyi yeməyi qazanında qoyub zalımın qəddarlığından qaçan anamın qaçqınlıq günlərində

yazdığı qırıq-qırıq xatirələrin bir gün kitab kimi nəşr olunmasını diləməkdən başqa əlimdən nəsə gəlmir. Və zülm haqqında yazılan yazılara giziltili bir şükür duyğusu ilə yanaşıram. Nə də olsa, "söz uçar, yazı qalar..." Murat Aybirdi "Türkistanlı çocuklara tunç kafiye" adlı şeirində təsəlli verməkdən ötəyə keçməsə də, inanıram ki, "Bitecek bu kara kış, mevsim dönecek yaza". Və Türkün izi nə silinəcək, nə də unudulacaq! Zaman-zaman o izlər axtarılacaq, tapılacaq, üzə çıxarılacaq: Ali Onur Karanın "Batı Trakyada Türk varlığı" adlı yazısı kimi.

Edib Aykut Çiçekli "Ebediyeti kutlu kılmak" adlı yazısında müasir insanın insandan qopmasını dilə gətirir. İmran Azaklı Tekelinin "Ağlamaklı bir Mona Lisa" yazısı Edib Aykut Çiçeklinin fikirlərinin təsdiqi kimi qələmə alınıb sanki. İnsan insana gərəkdirsə, insan insansız yaşaya bilmirsə, seçdiyimiz – itələndiyimiz tənhalıq bizə əlac ola bilərmi? Təbii ki, yox! Amma ürəyimizi qıranlar, qəlbimizə dəyənlər bizi həmin əlacsızlıqla baş-başa qoymaqda mahirdirlər! Dünənimizə baxanda-tarixə boylananda müasir insanın, həqiqətən də, tənha olduğunu anlayır, üzülürük... Məsafələr daha uzunkən, zaman daha yavaş irəliləyərkən, həyat daha bəsit yaşanırkən insan insandan bu qədər qopmamışdı heç. Muhammet Bekir Karacakaya "Türkistandan Anadoluya Türk kültüründe ferfene toplantısı" adlı yazısında ictimai münasibətlərin dünənindən bəhs edir... O dünəndə ortaq asılan qazanlar, eyni sevinən uşaqlar var.

Payız bizim ürəyimizdən keçir, yoxsa biz payızın ürəyindən? Yaradıcı insan olaraq bizmi qazanclı çıxırıq payızdan, yoxsa payızmı neçə-neçə şeir, hekayə, esse qazanır ürəyimizdən keçdiyi anlıq yolçuluqlarda? Melike Yazganın "Sonbaharım" şeirini oxuyarkən bunları düşündüm... Cavabsız qalan bütün suallara ehtiramla növbəti yazını oxumağa tələsdim. "Sevgi güzel şey" dedi Lokman Tümtürk. Yazıda sevgidən daha çox sevənin nəyə çevrilməsindən bəhs edilir. Sevgi gözəlləşməkdir!

Yolun məramı kirlənməyibsə, yolçuluq qudsaldır. Havva Ay "Yolcu selamı" şeirində yazır: "Bu satırlarda tanıştık siz yolcularla, Yolunuz hangi güzergâhta?" Əhməd İsayevin "Bəndər" romanında Göygöldən üzübəri Gəncəyə gələn yolun təsviri var. Bu iki misrada o yolu niyə xatırladım, bilmirəm. Hikmətini yolu yaradan-Yaradan bilir... Unutmaq istədiyim, daha doğrusu, yerli-yersiz xatırlamaq istəmədiyim o qədər oxucu xatirəsi var ki, ruhumda. Unutmağın çətin olduğunu söyləyə bilməyənlər elə asanca "Unut!" deyə məsləhət verə bilirlər ki! Amma Ebru Yılmaz bütün səmimiyyətiylə "Zor olacak" deyir:

Tam unuttum derken,
Ya da unuttum diyerek kendimi kandırırken,
Kimseye bizden bahsetmeyerek
Yaşatıyorum derinlerde seni...

Cem Arslan "Genç Yürekler" dərgisinin Sorumlu Yazı İşleri Müdürüdür. "Ulduz"un sentyabr sayında onun olduqca məsuliyyətli bir işin altına çiyin verdiyinin şahidi oldum. Cem Arslan yazar, redaktor, akademik Dr.Ömer Küçükmehmetoğludan müsahibə alıb. Söhbətin "Köroğlu" dərgisi ilə bağlı hissəsində 2016-cı ilin qışında Gülnar Səma ilə birgə Mikayıl Müşfiq haqqında yazı yazmağımız, "Köroğlu" dərgisinə göndərməyimiz yadıma düşdü… Dərgi nəşr olunanda da yazmağın verdiyi sevinc qədər sevinmişdik.

Büşra Ekinci "Güven edebiyatı" adlı yazısında günümüzün dərdlərindən birini dilə gətirib: insanın insana inamı qa-

lmayıb. Hə, o gerçəklə razıyam ki, insan həmişə insandan əyrilik, vəfasızlıq gözləyib. Amma kürəyini söykədiyi, ürəyini verdiyi birindən qeyri-dürüst hərəkət görəndə özünə zehnən qurduğu dünya yıxılır axı… O anlarda ədəbiyyat köməyə çatırmı, xilaskara çevrilirmi? Büşra Ekinci həmkarlarına üz tutur, yazdıqlarımızla insanın insana güvənməsini aşılamağa çağırır bizi.

Necdet Özkaya "Edebiyat başka türlü anlatmaktır" kitabından kiçik bir yazı ilə "Ulduz" oxucularının görüşünə gəlib. Danışılan nağılların, rəvayətlərin qədim insanları öz sehrinə salmağından yazan müəllif bu prosesi ədəbiyyatın yolçuluğunun bir hissəsi sayır. Yazıda həmçinin ədəbiyyatın təkcə var olanı deyil, bəzən olacaqları da anlatdığı həqiqətini oxuyuruq.

Hərdən ağlımıza gəlir hamımızın: "Telefon, internet yox ikən insanlar necə xəbərləşirdilər? Məsələn, kəndin o başında olub-bitəndən necə xəbərləri olurdu? Axı insan informasiyasız yaşaya bilməz". Hələ atalar sözümüz də var insanın doymaz marağı haqqında: "Qulaq gündə bir söz eşitməsə, kar olar!" Bəs keçmişdə qulaq o yeni sözü necə eşidirdi? Hamza Öztürkçünün "Kirazlı köyün berberi" hekayəsində məhz bu suallara cavab tapacaqsınız.

Bir şairin başqa bir şairin şeirində düşüncə döngələrinin xəritəsini tapdığını görmək həmişə xoşbəxt edir məni. Bu, qələmin həmrəyliyidir! Bu, yaradıcılığın səmimiyyətidir! "Cemal Safi için gönlümden…" yazan Mehmet Ali Kalkana bu mənada mütəşəkkirəm. Elə səmimiyyətlə yazıb ki "Cemal Ağabey"! Yazıda Cemal Safinin "İmkansız" şeirinin yurdunu da tanıyırıq. Sədnik Paşa deyirdi: "Şeirin özündən yurdu şirindir!"

"Mutsuzluk: hakkı çok yenen bir kavram" yazan sayın Hatice Zeynep necə gözəl yanaşıb müasir insanın bədbəxtliyinə. Xoşbəxtliyin nisbi olduğunu anlamamaq cahillikdir-müəllifin "Mutluluk anarşisti" adlı yazısını oxuyandan sonra gəldiyim qənaət budur. Ardınca Ayşe Şeyma Arslanın "Türk" şeirindəki xoşbəxtliyini gördüm. "Dağları əridən", "Cahanı saran" bir qövmün mirasçısı olmağın xoşbəxtliyini yaşayır bu günün türk şairi!
Belinay Demir isə hekayəsində türkün tarixində öz izini qoymuş bir qəhrəmandan-Kara Mehmet Çavuşdan yazıb. Türk Milli Mücadiləsinin adsız qəhrəmanlarına ithaf edilmiş hekayə hər şeyini geridə qoyub Vətənin hayına yüyürən igidlərin fədakarlığının ədəbiyyatda bir daha boy göstərməsidir.

Esra Söylemezin "Atarlı Aziz" hekayəsinin qəhrəmanı da adsız qəhrəmanlardandır. Amma bu dəfə biz qəhrəmanı düşmən gülləsinin qarşısında deyil, insan eqosu ilə müharibədə görürük. "Doğma", "yad" anlayışının mənasızlaşdığı, təkcə insan olmağın bir dəyərə sahib olduğu anlar yaşanır hamımızın həyatında. Bizim missiyamızın biri, bəlkə də, birincisi o anı əlimizdən qaçırmamaqdır. Yoxsa ruhumuzda elə peşmanlıqlar tayalanar ki, içində kədərlər yuva qurar… Murat Karakoyunlunun "Halet-i Ruhiye"sində həmin peşmanlıqları oxuyuruq içimizdəki günəş qürub etmədən. Ümidimiz diri qalır: hər qürub bir dan üzünün müqəddiməsidir!

Mehmet Kütükçüoğlunun "Çivi Mustafa" hekayəsinin qəhrəmanının gözü uzağa dikilib. O qədər uzağa ki, özünü də unudub. Yaşamağın ən asanının özünü unutmaq olduğunu düşünür bəzən kimsə… Yanıldığını anlaması gecikmir… Cümləmin sonuna nə "şükür" kəlməsini qoya billəm, nə "heyif"; insan olmaqdan danışıram, konkret sərhədlər cızıram, amma özüm də bilirəm ki, insan olmağın çərçivələri elastikdir… Bəşəriyyətin daş

sütunlarından biridir: “İnsan əvvəlkidir elə!”

“Başlanğıç”: Gerçeklik üzerine… Erdem Yapan həyatın, düşüncənin ədəbiyyatda deyil, kinodakı əksindən danışır, incəsənətin bu sahəsi ilə ədəbiyyatın sərhədlərində gəzişir. Erdem Yapan o sərhəddə oxucudan gizlətdiyi daha nələri tapmışdı, bilmirəm, amma gizlədilən hansısa düşüncə olduğunu fərq etmək çətin deyil.

“Hamının ən gözəl əsəri anası haqqındadır…” Bizim dəyərli Elxan Yurdoğlunun sözüdür. “Xətir üçün…”dən sonra aldığım rəylər məni bir yazıçı kimi sevindirdi, bir övlad kimi ağlatdı. Mən hələ anamı anladacaq gözəl əsər yazmamışam, məncə… Uğur Zaferin “Sol yanımda gül saklı” şeiri də onun anasına yazdığı ən gözəl şeir deyil, məncə… Ümumiyyətlə, ananı anladacaq o ən gözəl söz dilə gəlməyib, bəlkə də… Fəlsəfəni bir tərəfə qoyuram, etiraf edirəm ki, bu şeiri ağlayaraq oxudum.

Türkistan aydını Kasım Tınıstanoğlunu Sabırbek Börübayın yazısında tanıyırıq. Bir daha anladım: “Öz xalqının dərdi ilə dərdlənən aydınların işığı zamanın bağrını yarmağa qadirdir!” Dərddən qorxmaq bəşərin ən asan etdiyi seçimdir, düzdür, amma dərd yükünü kürəyinə alan, onu mənzil başına çatdıranlardır düz dünyanın düz vaxtını xatırlayanlar, bu haqda danışanlar, yazanlar… Məncə, Tuba Özkanlı elə buna görə ürəklə, çəkinmədən “Endişe sermayedir” deyir.

Amma şairin gözünə “Şimdiki zamanın penceresinden” hər şey fərqli görünür: insan yaşadığı anların cəmindən ibarət olanı yığır, üstünə adını yazır: “Yaşadıqlarım…” İnsan nə yaşasa, onunla vardır. Nurşah Talay ən sadə sözlərlə insanın həmişə olduğu yeri – heç vaxt olmadığı yeri anladıb:

Ne ilerdeyim, ne geride,
Tam ortada andayım.
Ne geçmişteyim, ne gelecekte,
Anı yaşarım –
Hayatım orda benim.

Yağmur Filiz Şahin “Özüm atasözüm” yazısında qeyd edir, “Atasözleri, toplumların en değerli kültürel parçalarıdır”. Mənim böyüdüyüm atalar sözləri və göyçəli məsəlləri isə mənimçün təcrübələrin deyil, düşüncələrin nəticələridir. Çünki təcrübə sübut edir ki, atalar sözləri reallığın fövqünə qalxa bilir, yaxud tam tərsinə, reallığın hökmranlığı altında əzilir. Semiha Arasboranın şeirində biz həmin o hökmran reallığın bircə küncünü görürük. “Ben köylü kızıyım, Anadoluyum” adlı şeirdə ən sevdiyim misralar bunlar oldu: “Bir tebessüm ile kalmaz kederim, Ben köylü kızıyım, Anadolu’yum”. Hə, insan bəzən budur-kədəri olduğu kimi-müvəqqəti yaşayan. Hatice Zingi isə “İnsan kimdir?” adlı yazısında insan olmağı tamam başqa cığırların kəsişmə nöqtələrində anladır. Onun fikrincə, Tanrının sözləri sayılan bütün qudsal kəlamlar “Yaradanın insana öz gerçəyini xatırlatmaq cəhdidir”. Lakin müəllif bu cəhdin uğurlu olub-olmadığı barədə bizə ipucu vermir. Düz də edir! Həqiqət individualdır!

Kenan Karanın “Gülcihan” şeirində ayrılıq var. Lirik qəhrəman ayrılığın səbəbini axtararkən ilkinlikdən sıyrılıb çıxa bilmir: günahkar seviləndir... Ya əgər o da sevirsə? Milyon illərdir ki, ayrılığın günahkarı odur, sənsən, mənəm. Və elə o vaxtdan bəri də hamımız günahsızıq... Özümüzə yaratdığımız kədəri də, özümüzə tapdığımız kiçik sevincləri də seyr edən bircə tamaşaçımız olur həmişə-dövran. Ona görədir ki, hamımızın pəncərəsində “qandan bir hırka var”.

Ömer Kayanın “Sarışın kurda ağıt” şeiri haqqında fikir bildirməyə cürət etmədim. Ruhum bu şeir qarşısında saygı duruşunda:

Sarı yağız bir deli kurdu
andırırdı gözleri
Ömrü bir destan, yüreği bir kor,
sözü ateşti
Şimdi mıh gibi aklımda
tutuyorum ettiği sözleri
Ağıtlara sığmazdı ya... bir tabuta
sığdı gitti
Ayakta tutan bizi kavgası,
derdi ve ülküsü
Kabına dar gelen adam kırklara
karıştı gitti
Şimdi dudağımda yarım kalan
bir Bozdoğan türküsü
Aydın'ım kurt nefesli ordularla
yarıştı gitti

Semiha Dede "Yeşim taşı efsanesi" (bir kitap eleştirisi) adlı yazısında dünya ədəbiyyatındakı ümumi problemdən-uşaq ədəbiyyatının yetəri səviyyədə olmadığından danışır. Uşağına oxumağa milli ədəbiyyat nümunəsi tapmayan valideyn məcbur qalır, xarici müəlliflərin kitablarını alır. Nəticə etibarilə, uşaq öz milli-mənəvi dəyərlərindən, mənsub olduğu xalqın təfəkküründən qopur, uzaqlaşır. Yerli yazarların da eləsi var ki, xarici ünsürləri əsərinə qatmaqla müasir üslubda yazıb-yaratdığını düşünür. Və belə bir vaxtda Semiha Dede Ömer Ünalın "Yeşim taşı efsanesi" kitabına rast gəlib. "Türk tarixi dastanlarındakı real qəhrəmanların bolluğu"ndan istifadə etməyi həmkarlarına tövsiyə edən müəllif ümidlidir ki, Ömer Ünal kimi yazarların sayəsində "uşaqlar doğma torpaqlarla bağlarını itirməyəcəklər".

Yusuf Alper Oyar "Malihuyla dönemeçleri" adlı şeirində qəribə bir hikmətə söykənir: "İnsan insanın ihanetidir". "Dönemeç sonsuzluğuna tutukluydu hayat..." deyən şairin ümidsizliyin qoynunda çiçək açdırmağını umur oxucu. Təəssüf ki, tapmır… Yolu bu dəfə də Aslı Elif Demirin "Girdap"ına düşür oxucunun. Ümid olmasa da, tərəddüd var burada-ümidsizlik uçurumunun başında durub ayağımızı yerdən qaldırmadan öncə bu tərəddüd bəs edir bəzən geriyə dönməyə: "Vefa(sızlık), Parçalar durursun içimi!" Tərəddüdlər həmişə həqiqətə doğru gedən yolun səmt ağacıdır!

"Müəllim çörək yemir"…İndiki uşaqları bilmirəm, amma biz birinci sinfə gedəndə belə bilirdik. Geriyə dönüb baxanda ömrümüzdən keçən müəllimlərin hansının əsl, hansının qəlp olduğunu yaxşıca seçə bilirik. Çox istəyərdim ki, mənim xatirəmdə qəlp izlər qoyanlar da nə vaxtsa Sümeyra Karaca kimi özlərini sorğulayaydılar: "Ben öğretmen olamadım…" Cümlənin sonuna sual qoymaq şansı da tanıyardım o qəlp müəllimlərə.

Tuncay Çalışkanın "Günebakanların arasından" adlı yazısı isə səmimiyyətin əslidir. Ukraynada yaşayan türklərə baş çəkən Tuncay Çalışkan yazır: "***Kırım'da su aynı, su tadı başka, gece aynı, serinliği başka, güneş aynı, sıcağı başka, kavun aynı, lezzeti başka, evler aynı, pencereleri başka, yollar aynı, yürüyeni başka, çocuklar aynı, giyimleri başka, ezan aynı, avazı başka; iyilik aynı, muhabbet aynı-hepsi aynı, bakışlar da, gözdeki yaş da, akıl taşıyan baş da, duvardaki damgalı taş da-her şey Türkiye ile aynı".***

"Neşter" şeirində Ülkücan Sütbaşın lirik qəhrəmanı üsyankardır. Yaşama, dövrə, ətrafdakı insanlara-hər şeyə üsyan edən qəhrəman özünə təsilli yeri axtarmır. Bunu şairin ədəbi manevri kimi dəyərləndirdim. Təsəlli yerini oxucu özü öz həyatında tapsın, şeiri hansı ahəngdə istəsə, o cür də oxusun… Mustafa Türk isə "Adamın biri" şeirində ən böyük təsəllinin Yaradan olduğunu söyləyir.

Vedat Oyuklunun "Kaybedilen yitik" və Muhammed Burak Tunayın "Yorgun

emekçiler" şeirləri həyat otağımın divarındakı tabloların bədii təsviridir. Məncə, çox adam bu iki şeirdə özünü tapacaq. "Hamı" demədim, bu tabloları görməyənlər də var. Və bu görməməzlik həmin tabloların reallığını yox etmir.

…Beləcə, gəlib çatdım bir payız "Ulduz"unun sonuna. Yarpaqların sarının saysız çalarına bürünməyini gözləyirdim, leysan qoymadı. Dumanında azdığım bir payız günündə "Ulduz"un üz qapağına baxa-baxa oxuduğum yazılardan neçəsinin məni ağlatdığını saymağa çalışıram. Sonra da düşünürəm: ağlamağa vaxt yoxdur, məni "Azalyanın kitabı" və "Afayət muzeyi" gözləyir. Bu şeirin haradan, niyə gəldiyini isə özüm də bilmədim…

Bu payız sarı gəlmədi...
Geyindiyi boz nimtənə
Naxış həsrətinə yenik...
Arzu yolum heç bitmədi,
Sözləri qoydum nimçəmə,
Dolanıram gədik-gədik...

İtdi yarpaq arasında
Dünənimin ayaq izi,
Sabahıma nə aparım?!
Hörümçəyin sarısında
Axtarıram bu payızı,
Özümü kimdən qoparım?!

Şeirlərim mesaj olur,
Mesajlarım dərd yanğısı...
Görən soruşar: "Dəlisən?"
Ağlamağım yasaq olur...
Güzgüdə də sükunətdir,
Tapılmır üzümə deyən:
... Ağla, qoy gözün ağrısın,
Ağlamağın şeiriyyətdir,
Sən axı Şəfa Vəlisən!

**Şəfa Vəli**

# Robert BYORNS




**"İŞDƏ MƏHƏBBƏT MACƏRASI"**
**FİLMİNDƏN**

Mənim ürəyimin rahatlığı yox,
Hər gün gözləyirəm elə kimisə...
Yuxusuz qaldığım gecələrim çox:
Səbəb elə odur... odur, kimdisə.

Kimsə mənimlədir... məndən uzaqda...
Hardadı, axtarım, tapım mən onu,
Axtarım tufanda, qarda, sazaqda –
Mənim həsrətimin yetişsin sonu.

Ey təmiz, müqəddəs, ülvi hissləri
Qoruyan qüvvələr, nə olardı siz
Mənim həyatımdan silib pisləri,
Mənə saf məhəbbət göndərərdiniz.

Kimsə mənimlədi məndən o yana,
Kimdisə, dost etdi mənə kədəri...
Bütün varlığımı verərdim ona,
Yalnız yaşayardım ondan ötəri.

**Tərcümə edən: Nazir RÜSTƏM**

# Pərvin ƏLİYEVA



***

Göy qurşağı yeddi rəng,
bir də meyxoş sərinlik;
Ürəyin ki kövrəkdir, sən,
ey günəş qəlbli qız,
Sən, ey günəş üzlü qız, sən ey gecə saçlı qız,
İçində yırtıcı hiss qarışdırır qütbləri,
Bir də avqust istisi.

Gecə zülmət, ay da yox,
görünür nə də ulduz,
İşığa gəzir ilbiz.
Dincəlir qarışqalar bircə, onlar xəbərsiz
Pərişan adamlardan.
Sayıram iki, üç, dörd
– dərd əlindən bezarsan,
Bir də avqust istisi.

Gəzir xoşbəxt çağların
yenə gözündə xülya,
Üryan qalan qəlbinin yasını saxlayırsan.
Gündüzlər baş qatırsan,
gecələr – qisas hissi;
Axı sən ki bilirsən, dərd adamı yandırar,
Bir də avqust istisi.
Analar can çəkişir, balalar intizarda;
Bakı boyda şəhərdə
“Azadlıq” heykəlinə ancaq
baxıb keçən var.
Ürəklər qan qırmızı, qan rəngli plakatlar,
Bir də avqust istisi.

Xəyalımın önündə dimdik durur o səhnə,
Yanır korun-korun od
– ürəyin necə gəldi?!
Bircə sözün bəs idi zərbəni endirməyə
və məni öldürməyə,
bir də avqust istisi.

Məni o incilərin,
məni o gündüzlərin bircəsində sevindir.
Sözüm – haray nidası...
Məni “xoşbəxtlik” adlı ömür talasına at,
Məni kəmənd atına, məni arzuma yetir.
Qoy yandırsın sevdanın şux alovu,
yanğısı,
bir də avqust istisi.

## İNSANXANADA İNSAN

İnsanxanada insan
Yeknəsəq mühazirə deyir:
Dünyanın küçələri bir-birindən fərqlidir,
Yollar müasir asfalt, yollar – işıqlı plakatlar.
İllərin o tayından gün sayır,
Mərcantək görünən ömür tabutdan ağır,
Tikə-tikə talaşalar dönür külə.
İl ildən ağır gəlir,
Kindən qalaq qurub bir tay təkəbbür,
Hopub iliklərinə saxtakarlıq.
Adamlar köntöy daşdır elə bil,
Tükənmək bilmir vəzifə ədası
Nakəsi, nadanı
böyüdüb edirlər qəhrəman...

İnsanxanada
Bir yaşıl dəryadır dünya;
Azına qismət qızıl xalı,
Çoxuna qismət köhnə həsir...
İnsanxanada
İnsan tutulmadı bir məhəbbət yağışına,
Nə tufanı, nə yeli var.
Bu hökmü verə bilmirəm,
İstixana effekti yandırır hamını.

İnsanxanada insan
Yeknəsəq mühazirə deyir:
Çözələnir min ilin bayatısı –
Didir varlığını dəryada ümman.
Bu dünyanın
Əsli-Kərəm, Leyli-Məcnun naləsi var.
O qədim xarababazar –
Nə gözləyirsən ondan?!
Yüzlərlə biganədən barmaq sayı laləzar
Doğulur, yaradır, yaşadır
Hər qarış torpaqda, sal daş üstündə.
Dönür, min yarpaqlı çiçəyə dönür,
Olur, gül ətirli gülabdan əfzəl.
Fəqət atəş içindədir,
Fəqət od içindədir,
Köksündəki nəhrlər – səadət piyaləsi...
İnsanxanada ildə bir dəfə
İnsanoğlu tən olsa,
Axı dünya dağılmaz.
Şair də gözəl deyir:
“Necə görsün işığı gündən qaçan yarasa?!”.
İnsanxanada istixana effekti –
Günəşdən qorxan da yanır,
Günəşə gen olan da.
Ürəyində qəlpədir şöhrət,
qılınc kimi kəsir
və səslər:
“ – Mən şərqəm!”
– “Mən qərbəm!”.

## “HƏYAT” QƏZETİ

Napalm bombaları kimi yandırır bəzi
sözlər;
Fotoşəkilllər köksündə asılan
Vyetnam muzeyidir.

Baxdıqca hər dəfə bir göz yanır oyuğunda,
Bütün qitələrdən səslər eşidirsən.
Dünyada hər 10 saniyədən bir
kimsə QİÇS-ə necə yoluxursa,
Bəlkə də, hər 5 saniyədən bir
kimsə ölür öz içində tənhalıqdan...

Bu, “Mond” qəzetinin
40 il əvvəlki sayında yoxdur,
Bu, “Həyat” qəzetidir,
Bu, bütün dövrlərin üstündəki
qan qırmızı oxradır.

İndi demirəm, alkoqoldan, heroindən
ölür adamlar – onlar bilinəndir.
Bilinməyənlər –
Bu qəddar kapitalizmin
hərgünkü sinə dəftəridir.

Kaş ki sərxoşluqla mübarizədən çox
Huşyarlıqdan danışıla...

***

Bu nəhəng qələbəlikdə
şəhərlər,
yollar,
küçələr
adamla dolu.
Qəribə hərarət,
həsrət,
həsəd,
ağrı...
Yaşamaq ümidi ilə
müdhiş çırpınışda
bir yığın adamın
eyni hekayəsi var...

***

Hərdən bir göz qırpımında olur hər şey,
Boylanır bir göz də öz içindən
çiçək bükümü kimi
içindəki qırmızılıqdan xəbərsiz.

Hərdən daha çox arzulayarsan təqdir,
Qəribə şeylər istəyər könlün.
Xəta ardınca xəta edərsən,
Yumarsan gözlərini böyük boşluğa.

Utanarsan acgözlüklə yediyin həsəd
hissindən,
Çevrilib bir göz də içindən
baxar xısın-xısın,
Sıxılarsan içindəki qırmızılıqdan.

Hərdən bir göz qırpımında olur hər şey,
Hər şey elə bir az da yarıda qalmış nağıl,
Heç nə yox imiş kimi.
Yandırır adamı köz kimi,
udur adamı torpaq kimi
və hər şey bitir.

Göydən üç alma düşmür,
Göydən od da yağmır, göydən alov da,
ancaq dönür bir ovuc duaya insan...

## BİRCƏCİK YER KÜRƏSİNDƏ

Hələ neçə yuxulardan keçəcəyik,
Yozacağıq:
Bu körpədir,
Bu körpüdür.
Gözlərimizdə canlanacaq
Neçə sima, neçə xislət.
Barmaqlarımız neçə mürəkkəb tutacaq,
Yazacaq, hey yazacaq!
Biri doğru, biri yalan...

Yaracaq neçə sübhü
Mürəkkəb rəngindəki kor ilan,
Bəlkə də, ən adi, ən adi şeydən
O ilan çata bilməmiş ən xoşbəxt günə,
Neçə qəlbi yıxacaq zəhərli  sözlə.

Hələ neçə yuxulardan keçəcəyik,
Yozacağıq:
Ömrümüz haqqa yetənə kimi
Bir planetdə, bircəcik Yer kürəsində
Bacı-qardaş adamlar
Asılacaqlar bir-birinin ayağından,
Utanacaq Yer üzü.

Hələ neçə yuxulardan keçəcəyik,
Yozacağıq:
Fikir davasında böyük və azad,
Xoşbəxt və bədbəxt olan kim?!
Çapacağıq hər sözün üzərinə gürzümüzlə,
Üzəcəyik hamımız hansısa nəhrlərdə,
Ta ki qalib, ya da məğlub olanacan.

Hələ neçə yuxulardan keçəcəyik,
Yozacağıq:
Bu, körpədir,
Bu, körpüdür...
Sonra və sonra biləcəyik,
Biri qafil gənclik, biri körpə qocalıqdır,
Könlü ilə söhbət edir hamısı.
Hansısa sətirdə çəkirdi can şirəsi,
Biri şirin, biri acı.

Bilirəm, yaşamağa heç kim
 tapmayacaq macal.
Yuxuların ömrü
elə insan ömrü kimi qısadır...

**QUYUDAN SƏS**

Sonra başladı həyat,
Əvvəldən heç nə olmamış kimi.
Ya ağac dibində
Dünyanı yaradan süjet var,
Ya quyu dibində
Vəbaya tutulanlar
Qurban – günahsızdır.

Bu Leyla əvvəlki deyil,
Dünya elə əvvəlkidir.
Sevincinin hamısı qəzəb,
Qonur qanadlarına uçan yerdən,
Barmağının ucunda sənə sarı qaçan ömrün
Möcüzə işləri var.

Kişilərin zavalına gəlib bu dünya,
Qızıl-qırmızı qandır.
Qadınların baxışları yara olub,
Qalıbdır yaddaşında.

Bu Leyla əvvəlki deyil,
Dünya elə əvvəlkidir.
Nə insan, nə də dünya
Həyatın mənalı yerini görür.
Bu quyu qat-qat dərindir,
Qaranlıqda ruhi dinclik, məftunluq.

İşıq da iztirab, işıq da həyat.
Ömrünün aramca bir vaxtı
Vaxt sənə dar!
Zərrə illərin bərəkəti yox,
soyuqdur, soyuq.
Haradasa bir xatirə qanıqara qırılır,
Gündə yüz yol  ölür quyudakı səs.

***

Savaşmaq ön cəbhədir,
bütün cəbhələrdə savaş – yaşamaq!
Təpələnirsən bəzən, olsan da dağ,
yarı yıxılmış ev kimi.

Ancaq heç nəyi saxlamır həyat
öz rəngindən –
cənnət və cəhənnəmdən başqa.
İlahi!
Mən necə də inanıram;
Bəzən tənhalıqdan da ucalmaq olur…

Bu səbir, bu səbat məni insan edəcək,
Göldə bir atəş səsitək itəcək…

***

Bir sidqi-ürəklə sevinmək gəlir içimdən,
hamının əvəzinə itaətsizlik
göstərmək istəyirəm
XXI əsr uşaqları kimi –
Onlar çox sərbəstdir,
Hamısı nə istədiyini bilir.

Bu sırada sanki təkcə əyləşmişik,
çiynimizin üstündən getdiyimiz yolun
hara olduğunu bilmirik.
Görürəm ki, qupqurudur hər şey,
adamların sözü təpimiş haldadır.
Adamların dodaqlarında səadət pıçıltıları,
baxışlarında divar sərtliyi,
bu ahəngdən bir şey dadmaq arzusu...

Qızıl boyunbağı kimi keçirək
boynumuza xatirələri,
nə vaxtsa anamızın tapaqçada südlə
bişirdiyi qənddən dadaq,
keçmişdən soraq kimi ağzımız
dada gəlsin.

Kimsə qəhərləndi,
kimsə dilləndi…
Bu vaxtı ötənəcən,
bu yolu keçənəcən kəskin şəkildə
danışqan adama dönəcəyik hamımız.



Yaddaşımızdakı boş otaqlar
dağınıq halda.
Xəlvəti üstümüzə soyuqlar qonar,
Yamyaşıl dünyanın alaçığında –
it mırıltıları, dibçək dibləri,
cavabsız məktublar…
Bir də gözü ilə keçmişini silmək istəyən
milyonlarla adam…



# M.T.SİDQİNİN ƏDƏBİ-PEDAQOJİ GÖRÜŞLƏRİNDƏ SAĞLAM HƏYAT TƏRZİ PROBLEMLƏRİ

Azərbaycan ictimai-pedaqoji fikir tarixində istedadlı şair və publisist, filosof, böyük maarifçi olan Məhəmməd Tağı Sidqi görkəmli bir pedaqoq kimi mədəniyyət hamisi olaraq özünə möhtəşəm bir mənəvi abidə ucaltmışdır.

Vaxtilə Azərbaycanın Qarabağ, Şirvan, Bakı, Lənkəran və başqa bölgələrində olduğu kimi, Naxçıvanda da yaranan "Əncümənü-şüəra" adlı ədəbi məclisin təşkilatçısı və fəal iştirakçılarından olan M.T.Sidqinin xalqımızın ədəbi-mədəni həyatına misilsiz töhfələr bəxş edən bir ziyalı kimi xidmətləri danılmazdır.

Pedaqoji elmimizin ilk qaranquşlarından olan M.T.Sidqi öz maarifçilik fəaliyyətində məşhur rus pedaqoqunun mütərəqqi fikirlərini dəstəkləmişdir. Bir sözlə, o, bütün pedaqoji görüşlərində K.D.Uşinskinin təliminin tərəfdarı olmuşdur.

Klassik Şərq poeziyasını və fəlsəfəsini mükəmməl öyrənən, damla-damla bəşər elmlərini hafizəsinə həkk edən Sidqi qədərsiz mütaliə sayəsində dövrünün dərin elmi dünyagörüşünə malik, ensiklopedik bilikli bir ziyalısı kimi maarifçiliklə ciddi məşğul olur. O, pedaqoji fəaliyyətinə Ordubad şəhərində "Əxtər" məktəbində başlamış və Naxçıvanda 1884-cü ildə "Poeziya", "Qız məktəbi" kimi milli məktəblərin əsasını qoymaqla olduqca şərəfli işlər görmüşdür.

Gərgin ədəbi, elmi, pedaqoji fəaliyyətlə məşğul olan M.T.Sidqi öz müəllimlik işində çox sanballı dərsliklər yazmağa başlayır. Açdığı məktəblərdə şagirdlərin elmi-praktiki fəaliyyətini dərindən izləyən, çoxsaylı pedaqoji eksperimentlər, müşahidələr, sınaq-yoxlama işləri aparan Sidqi Azərbaycanda ilk dəfə olaraq "Pedaqogika" dərsliyini yazır. O habelə maarif və məktəbşünaslıq sistemi üçün çox vacib olan "Məktəb nizamnaməsi" adlı çox yararlı bir dərslik də yazır. Daha sonra görkəmli pedaqoq əsl maarif fədaisi kimi "Şagirdlər üçün qaydalar" adlı kitabı qələmə almaqla olduqca xeyirxah bir iş görür.

Azərbaycan ictimai-pedaqoji fikir tarixinin bir çox korifeyləri kimi, M.T.Sidqi də öz elmi-pedaqoji fəaliyyətində elmin, əqli tərbiyənin insanın kamil bir şəxsiyyət kimi formalaşmasında müstəsna əhəmiyyətini israr edirdi. O yazırdı ki, insanı müəzzəz və müşərrəf edən və zülməti-cəhalətdən çıxarıb nuri-mərifət və təriqi-səadətə yetirən elm və ədəbdir.

Böyük pedaqoq elmsiz insan ilə yetişmiş ağac və ədəbsiz adamla cansız cisim arasında bir fərq görməyərək deyirdi: "Elmsiz insan ilə yetişmiş ağacın və ədəbsiz adamla ruhsuz cismin bir təfavütü yoxdur". Sidqi elmi tərbiyəsiz, tərbiyəni isə elmsiz qəbul etmirdi və onların hər ikisini vəhdət halında götürürdü. O, ədəbsiz və mərifətsiz alimi, ədəbli və mərifətli nadanı yarımçıq adam hesab edirdi. Böyük mütəfəkkir və şairlərdən Sədi Şirazi, Əbdülməcid Sənai, Mövlana Cəlaləddin Rumi, Abbasqulu ağa Bakıxanov, Mir Mövsüm Nəvvab və b. kimi, M.T.Sidqi də mənəvi şüurla mənəvi davranışın (deyilən sözlə görülən işin) vəhdətinin təmin olunması probleminə toxunur. Fikrimizcə, Ruminin "ya göründüyün kimi ol, ya olduğun kimi görün" ifadəsini bu barədə deyilən bütün sözlərin əsas müddəası hesab etmək olar.

M.T.Sidqi bir çox hallarda əxlaq tərbiyəsini, mənəviyyatı elmdən, əqli tərbiyədən daha üstün tuturdu. Bu problemlə bağlı qələmə aldığı "Tənviri-əfkar" əsərindən oxuyuruq: "İnsanın qədr və şərafətini artıran dörd şeydir: birinci ədəb, ikinci elm, üçüncü sədaqət, dördüncü əmanət və siyasətdir".

Məşhur filosof sözü ilə işi bir-birinə uyğun gəlməyən adamların aqibəti barədə belə deyirdi: "Ədəbi olmayan aqil və əməli bilinməyən alim fəqət şücaətli silahsız qoşuna bənzər. Buna görə də insan daima elm və ədəb təhsilinə çalışmalıdır. Elm bir ağacdır ki, onun səmərəsi əmək və ədəbdir. İnsanın qiyməti-həqiqiyyəsi az-çox elmi və əməli ilə bilinir. Yəni insanın bildiyi şeylərdən və məqbul əməllərindən savay bir qiyməti yoxdur. Elmi və əməli nə mərtəbədə olsa, dəyəri və qiyməti o qədərdir. Bəs insanın həqiqi qiyməti bu vəchlə bilinməkdən, gərək həmişə elmini və əməlini və ədəb və əxlaqını artırmağa çalışasan".

Görkəmli maarifçi uşağın təlim və tərbiyəsinə kiçik yaşlardan başlamağı məsləhət görürdü. Məşhur pedaqoq qeyd edirdi ki, uşaq ağ və qaranı, istini və soyuğu anlamağa başladığı vaxtda gözəl xasiyyətləri onlara anlatmaq, təlim və tərbiyəsinə qeyrət və diqqət etmək lazım, bəlkə, vacibdir. Çünki uşaq yaş ağaca bənzər. Təzə, yaş ağac hər nə qədər əyri olsa, düzəltmək asandır. İnsanın da kiçiklikdə tərbiyə qəbul etməyi vazeh mətləblərdəndir.

M.T.Sidqi uşağın ailədəki tərbiyəsinə toxunaraq qeyd edir ki, bu vəzifə ilk növbədə valideynlərin üzərinə düşür. Və bu hər kəsdən əvvəl ananın, sonra da atanın birbaşa vəzifəsidir. Onun fikrincə, insan şəxsiyyətinin formalaşmasında ən vacib amillərdən biri ailədə uşağın tərbiyəsidir.

Şəxsiyyətin təşəkkülündə və inkişaf etməsində əsas amillərdən biri olan məktəbə M.T.Sidqi xüsusi qiymət verirdi. O, böyük maarif xadimi kimi məktəbin misilsiz dəyərini belə təqdim edirdi: "Məktəb nədir? Məktəb bizim elm və maarifimizin vasitəsidir… Məktəb cəhalət dərdinin dərmanı və mərifət bağının xiyabanıdır ki, həmişə cahilləri: alim və divanələri aqil eylər. İllərcə məktəbə gedib tərbiyə və ədəb kəsb etməyən kimsələr və məktəbdə ömür keçirib elmlərdən və fənlərdən bərəmənd olmayan şagirdlər rəngarəng güllər və çiçəklər ilə dolu bir bağçada gəzib-dolanan kora bənzərlər. Məktəb bir cismə bənzər ki, onun ruhu müəllimdir".

M.T.Sidqi məktəbdə təlim-tərbiyə işinin aparıcı siması olan müəllimlərin rolunu yüksək qiymətləndirir, həm də onların qarşısına çox böyük ciddi tələblər qoyurdu. Məşhur pedaqoqun fikrincə, müəllim birincisi, "ülüm və fümunə dara" (dərin elmi biliyə malik), ikincisi, (obadi-elm və tərbiyə sahib-vüquf" (elmi təlim

etməyin və tərbiyə verməyin üsullarından xəbərdar) olmalıdır.

Təsadüfi deyildir ki, müəllim peşəsinə, bu təkrarsız ülvi sənət dünyasına verilən ən dürüst qiyməti də məhz həmin maarifçinin yetişdirməsi olan böyük dramaturqumuz H.Cavid vermişdir. O, təlim, təhsil və tərbiyəsinin ağır yükünü şərəflə daşıyan müəllim barədə “elm və ədəb rövnəqinə ömür sərf edənləri və insaniyyət aləminə xidmət edənləri, ülüm və maarif, rəvac və intişarına çalışanları mədəni xalqlar heç vaxt unutmazlar” – deyirdi. Sevimli müəllimi M.T.Sidqinin yoxluğunu dəhşətli itki hesab edən ədib yazırdı: “Sidqinqin vəfatı xəbərini eşidib elə bildim ki, həqiqətən, mənim atam vəfat edibdir… İnsanın üç atası olur: əvvəlincisi, elm atasıdır… Güman edirəm ki, o mərhumun rəhməti heç kəsə məndən artıq təsir eləməyib və eləməyəcəkdir”.

Ömrünün on ildən artıq bir dövrünü Şərq ölkələrinə səyahətdə keçirməsi və həmin ölkələrin qabaqcıl elm, mədəniyyət, mütərəqqi maarifpərvər adamları ilə yaxından ünsiyyətdə olması, habelə ərəb, fars dillərini mükəmməl öyrənməsi ona gələcək pedaqoji fəaliyyətində böyük uğurlar gətirmişdi. Tanınmış Azərbaycan şair və pedaqoqu Şürbi yazırdı ki, o elə bir maarifçi idi ki, dərin maarifçilik ağlı ilə bütün Yaxın və Orta Şərqdə işıq saçırdı.

Rus dilinin imkanlarının genişliyini müdrikcəsinə hiss edən şair və pedaqoq hətta “Azərbaycan-rus və fars lüğəti”ni də tərtib edir. Və bu dilin əsas fənn kimi tədrisinin vacibliyini göstərən Sidqi hazırladığı əlyazma dərsliklərinə Puşkinin, Lermontovun, Tolstoyun əsərlərindən seçmə hekayə və şeirlər də salır.

Böyük pedaqoq göstərirdi ki, məktəbdə tədris olunan fiziki tərbiyə məşğələləri şagirdlərin bədəncə ahəngdar inkişafını təmin etmək, sağlamlığını möhkəmlətmək, habelə onlarda iradi-mənəvi keyfiyyətləri formalaşdırmaqla yanaşı, cəsur, dəyanətli, mübariz vətəndaş kimi öz əxlaqi vəzifələrini yerinə yetirmək üçün də (məsələn, xalq üçün çalışmaq, vətəni müdafiə etməyə hazır olmaq və s.) imkan yaradır.

Görkəmli pedaqoq çoxşaxəli maarifçilik fəaliyyətində sağlamlığın təkcə insanın şəxsi xoşbəxtliyi üçün deyil, başqa cəhətlər baxımından da zəruri olduğunu söyləyirdi. Yəni məsələn, əgər insan nə qədər bədəncə gümrah, qıvraq və möhkəm əzalara malik olarsa, o, sağlam və davamlı bir şəxs kimi doğma yurdunun quruculuq işində, el-obanın müdafiəsində, xeyir və şər işlərində bir o qədər də yaxından iştirak edər, yararlı bir şəxs kimi yaxşı fəaliyyət göstərər və bu keyfiyyətə malik adamlar həyatın insanlara bəxş etdiyi nemətlərin hamısından daha səmərəli şəkildə istifadə edə bilər.

Yaradıcılığında fiziki tərbiyə motivləri ilə bağlı dəyərli qənaətlərə gələn böyük pedaqoq insan sağlamlığının qorunub möhkəmləndirilməsində nəfsin saxlanılmasına sağlamlıq mənbəyi kimi baxırdı. Onun fikrincə, yeyib-içmək işində daim orta həddi, qədəri gözləmək vacib məsələlərdəndir. O yazırdı: “İnsanın nəfsinin səlamətliyi bədənin səlamətliyinə dəlildir. Nəfsi səlamət şəxsin əqli kamil, fikri sabit, xəyalı vüsətli və zehni salim olur…”.

Gigiyenik amillərin əhəmiyyətinə xüsusi diqqət ayıran M.T.Sidqi insanın yaşaması və sağlamlığı üçün qida nə qədər lazımsa, o dərəcədə də təmizliyə fikir verilməsini zəruri hesab edirdi. Bu barədə yazırdı: “Təmizlik və nəzarət insanın əvvəlinci vəzifəsi hesab olmaq kimi səhhətə-bədinin də əvvəlinci əsası deməkdir. Xüsusən də təmizlik və məharət müsəlmanların qamətinə biçilmiş bir libasdır.

Odur ki, deyiblər: “Nəzafət imanın əsəridir”. Və bu da məlumunuz olsun ki, təmiz köhnə çirkin libasdan əfzəldir. Təmiz və səliqəli şəxslər yediyi xörəyin ləzzətini və geydiyi libasın rahətini anlayıblar və bədənin təharət və nəzafətinə diqqət eləmək kimi, sakin olduğu mənzilin və əyləşdiyin otağın da havamı və özü təzə, təmiz olmağı lazımdır. Çünki havası qəliz və özü natəmiz məhəllərdən bir parça mərəzin zühurə gəlməyi aşikardır. Pəs buna görə cəmi, böyük və kiçiklər, ələlxüsus, məktəb uşaqları bu barədə hər nə qədər diqqət və qeyrət etsələr, yenə azdır”.

M.T.Sidqi fiziki tərbiyənin əsas amillərindən olan idman, gimnastika, oyun, turizm və s. kimi fiziki təmrinlərdən savayı, onun əsas vasitələrindən sayılan normal qida, istirahət, yuxu, rejim, mənzil və iş şəraiti, rahat geyim və sairə məsələlərə xüsusi fikir verilməsinin vacibliyini də qeyd edir. Böyük pedaqoqun fikrincə, orqanizmin səhhətinin gümrah və qıvraqlığı üçün bədən üzvlərinin təmiz və pak saxlanması, təmizliyə ciddi riayət olunması – paltar, geyim ləvazimatlarına tez-tez qulluq edilməsi mühüm şərtlərdəndir. Təmiz uşaq necə olur? Böyük filosof özü qoyduğu suala çox dəqiq və sərrast cavab verir: “Təmiz uşaq dırnaqları tutulmuş, əl və ayağı, ağzı, burnu, üstü, başı və cəmi libasları pak və pakizə olur. Tənəffüs zamanında paltarlarını əsla toza və torpağa batırmaz. Məktəbə daxil olanda libaslarına və başmaqlarına elə diqqət ilə baxar ki, nəbadə napak və natəmiz olsun. Əllərini və burnunu silməkdən ötrü həmişə cibində bir təmiz dəsmal saxlar. Bu tövr uşaqların kitablarına və dəftərlərinə baxanda insanın qəlbi fərəhlənir. Təmiz və səliqəli uşaqlar hər yerdə hörmət və rəayət görüb, hamının nəzərində məğbul olur və heç kəs onların söhbətindən və ülfətindən ikrah etməz. Əlhasil, məktəbimizin ümumi şagirdləri və nəzarətə alınıb məharət və təmizliyə diqqət etmələri lazım və bəlkə, vacibdir”.

M.T.Sidqi bütün yaradıcılığı boyu millətinin əziz balalarını nikbin, xoş ovqatlı, dəyanətli və mübariz görmək arzusunda idi. Odur ki, o hər bir gəncin öz şəxsi və ictimai gigiyena qaydalarına əməl etməyini yalnız onların deyil, ailə və məktəbin də birgə işi hesab edirdi. Böyük maarif xadimi gənclərin fiziki sağlamlığına cəmiyyətin xoşbəxtliyi, ölkənin mənəvi sərvəti kimi baxırdı.

Məşhur pedaqoq bu barədə hətta ““Məktəbi-tərbiyə”nin şagirdləri üçün ədəb qaydaları”nda da şagirdlər qarşısında tələblər qoyur, onlara ciddi əməl etməyi tövsiyə edirdi: “Məktəbə gələn vaxt şagirdin əl-ayağı, üstü-başı təmiz və dırnaqları tutulmuş, xüsusən libası pakizə olmalıdır”. Yaxud “Tənəffüs vaxtlarında təğyiri-havadan ümum şagirdlər məktəb həyatınə çıxmalıdır. Belə ki, məktəb otağında heç bir kəs qalmasın gərək” və s.

M.T.Sidqi insanın şəxsiyyət kimi yetişməsinə nüfuz edən bir sıra psixoloji komponentlərin, əxlaqi-etik keyfiyyətlərin, habelə fiziki tərbiyə amillərinin təsirini müsbət hal kimi dəyərləndirir. “Vücudu xəstə olan adam təbiətə və ruhi xəstə olan həbibə möhtacdır” deyən ensiklopedik alim, üləma psixoloq və mürşidin “həkimanə sözləri”ndə daha aydın sezilir: “Nəzafət və təmizlik artıq dlərəcədə lazım olan bir zinətdir. Buna görə də insan vücudunu, libasını, məskənini hər vaxt təmiz və pakizə saxlamalıdır. Çünki libasın və bədənin təmizliyi ruhun təmizliyinə dəlalət edir”.

M.T.Sidqi tənbəlliyin insanı fiziki və mənəvi şikəstliyə təhrik edən, onu əxlaqi simasızlığa sürükləyən, məhvə yönəldən mənfur bir vərdiş olduğunu dönə-dönə təkrarlayırdı. Böyük maarifçi zəhmətin,

fiziki əməyin insan əxlaqını saflaşdıran, mənəviyyatını zənginləşdirən bir vasitə olmaqla yanaşı, həm də onun cismani möhkəmliyinə, fiziki kamilləşməsinə zəmin yaradan başlıca amil olduğunu vurğulayırdı.

"Tənbəllik və işsizlik fərq və zərurət qapısının klididir. İşlək adama ən böyük cəza bikar qalmaqdır… Tənbəlliklə keçinən adam hər umduğundan məhrum qalar… Tənbəllik və kəsalət insanın vücudunda bir böyük mərəzdir. Məsələdir ki, deyərlər: "İşləyən dəmir parıldar, işləməyən dəmir paslanar". "Tənbəl adam badam yemək istər, amma sındırmağın zəhmətindən qaçar".

M.T.Sidqi həmin məktəb qaydaları içərisində uşağın hafizə və səhhətinə düşmən kəsilən, onun gələcəkdə sağlamlığına sarsıdıcı zərbə vuran siqaret çəkməyin əleyhinə olaraq, bu məsələyə ciddli münasibətini bildirirdi: "Papiros və tənbəki çəkmək bilmərrə qadağani-şədid olunur. Bu əmələ cəsarət edənlər ciddi tənbeh olunacaqdır".

Bundan başqa, həmin qaydalar siyahısında uşaqların asudə vaxtının təşkilində, onların hərəki bacarıq və vərdişlərinin formalaşdırılmasına zəmin yaradan oyunlar prosesində intizama tabe olmaq, əxlaq qaydalarına əməl etmək, kollektivçilik hissinin güclənməsi və s. kimi mənəvi-əxlaqi tələblər də qeyd edilirdi.

M.T.Sidqi insan səhhətini möhkəmləndirən təbiətin sağlamlaşdırıcı qüvvəsi olan hava, su, günəş şüası və s. vasitələrdən lazımi qaydada istifadə etməyi də tövsiyə edirdi. Çünki təmiz və açıq havada olmaq, vaxtaşırı çimmək, mütəmadi bədəni yaş dəsmalla silmək, göy çəməndə və yaşıllığa qərq olmuş bol ağac olan yerlərdə gəzintiyə çıxmaq, günəş vannası qəbul etmək və sair kimi gigiyenik amillərdən lazımınca bəhrələnmək insan sağlamlığı üçün başlıca şərtlərdəndir. İnsan həyatının xoşbəxtliyini onun sağlamlığında axtaran pedaqoq, bu qiymətsiz sərvətə yiyələnməyin qneseoloji köklərini hər bir şəxsin öz əqlində, fəhm-fərasətində görür: "…səhhət və afiyət, yəni bədənin salimliyi gözəl nemətlərin ümdəsidir. Vücudun səlamətliyini dünya dolusu qızılnan bərabər tutmaq olmaz. Bir adamın bədəni salamat olmasa, çox şeylərin zövq və şövqündən məhrum qalar. Xülasə, səhhəti yerində olan adam bir qiymətsiz xəzinə sahibidir və bir böyük nemətə malikdir. İnsan bədənin səlamətliyindn savay, qüvvəyi-hafizə və qüvvəyi-zehniyyə və fikriyyəsinin mühafizəsinə də diqqət etməlidir. Çünki səhhəti-zehniyyənin mühafizəsi səhhəti-bədəniyyənin mühafizəsindən artıq dərəcədə lazımdır".

Böyük maarifçinin pedaqoji görüşləri arasında fiziki tərbiyəyə dair söylədiyi qiymətli fikirlər bu gün də çox aktualdır. Şübhəsiz ki, uzun illər aparılan pedaqoji müşahidə və eksperimentlər təsdiq edir ki, şagirdlərin təhsil aldıqları məktəb binalarının sanitar-gigiyenik tələblərə cavab verməsi, sinif otaqlarının, kabinetlərin, idman və qiraət zalının, məktəbin kitabxanasının və s. təmiz və səliqəliliyi, işıqlı olması kimi amillər onların sağlamlığına, normal fiziki inkişafına müsbət təsir göstərir.

Fiziki tərbiyənin əsas vasitələrindən olan gigiyenik amillər – yuxu, qida, rejim, kollektivdə olan əhval-ruhiyyə, şəxsi və ictimai rejim xüsusi yer tutur. Çünki şagirdlərin sağlam və gümrah böyüməsində rejim müstəsna rol oynayır. Sağlamlıq isə insana şadlıq və fərəh gətirir, ona nikbinlik bəxş edir. Odur ki, Sidqi yuxu, qida və s. kimi gigiyenik amillərin normal tənziminə daim diqqət verilməsinin zəruriliyini qeyd edir: "İnsanın bədəninin

səhhətinə, zehninin qüvvətinə və bəlkə, dövlət və müknətinə rövnəq və rəvac verən gecə bir az tez yatıb, sübh vaxtı bir az tez durub gəzməkdir, xüsusən xoş havalarda. Səhhəti-bədənə malik olan adamın iştəhası yerində olar və yediyi təamı yaxşı həzm edər və yuxusu həddi-etidal üzrə olar işdən çox yorğunluq bilməz. Zehni salim, fikri səlamət, vücudu pürqüvvə və ixtiyarı öz əlində olar. Hifzü-ssəhhətə nafe olan şeylərin cümləsindən tez yatıb tez durmaq, bədəni öz qüvvəsindən artıq yormamaq, həddindən ziyadə yeməmək, təamı dürüst və gözəlcə, naziganə çeynəmək, tərli-tərli su içməmək, hamamda çox yubanmamaq, həmişə başı sərin, ayaqları isti tutmaq, əyləşdiyi və yatdığı mənzilin havasını tazalamaq. Əlavə bədənini və libasını təmiz, pakizə saxlamaq…”.

Qidanın qəbul qaydalarını və onların normal ölçüdə qədərini göstərən, habelə bu işdə daim etidalı gözləməyi tövsiyə edən maarif xadimi çox haqlıdır. Bu, bir həqiqətdir ki, yeyib-içməkdə qədəri gözləməmək, həddi aşmaq bədənin daxili orqanlarını gücə salır, maddələr mübadiləsinin, əqli və fiziki iş qabiliyyətinin pozulması və s. kimi patoloji halların yaranmasına gətirib çıxarır. Əksinə, az yemək, yaxud vaxtında qidanın qəbul edilməməsi də orqanizmin sağlamlıq müvazinətinin itirilməsinə səbəb olur. Klassik pedaqoqumuz olan Sidqi yenə yazır: “Gündüz xabqeylulədən savay özgə vaxt yatmamaq (xabqeylulə günortadan bir saat irəliki yuxuya deyilir). Hərgah ittifaqən bəzi gecələr yuxusuz da qalsa, yenə gündüz yatmamaq. Mümkün olduqca qeyzlənməmək, zehni və xəyalı çox yormamaq. Hər bir cüzi şeydən ötrü mükəddər olmamaq və bir şeyə adət etməmək. Hər bir bihudə şeylərdən ötrü dərd və qüssə, həsrət etməmək. Özünü çox eyş və işrətə, zövq və səfayə verməmək. Əlhasil hər bir hərəkəti həddi-etidal üzrə tutmaq hifzü-səhhətə nafedir. Bir də təbiblərin, kəmalatlı adamların və təcrübə görmüş kişilərin buyurduqlarının xilafincə hərəkət etməmək. Mümkün olduqca böyük-kiçik hifzü-səhhət kitabları vardır; hər dəm onları alıb oxumaq. Xülasə, insan üçün ən əziz və qiymətli olan səhhətin qədrü-qiymətini bilmək və mühafizə etmək şərən və əqlən fərz və vacibdir.

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, Sidqi xoşbəxtliyi var-dövlət yığmaqda, hər cür alçaq vasitələrlə vəzifə və mənsəb qazanmaqda görənləri də kəskin tənqid etmişdir. Onun fikrincə, belə adamlar ağılca və əxlaqca naqis adamlardır. Çünki beləläri “vacibi qeyri-vacibə dəyişirlər”. Şərəfi, namusu, qeyrəti mənsəbə, vəzifəyə, can sağlamlıqlarını isə pula satırlar. Elə adamlar var ki, lazımınca istirahət etməyib, öz bədənlərinin sağlamlığı qeydinə qalmayıb, özlərini və ailə üzvlərini yarıac saxlayıb çoxlu sərvət toplayırlar. Sidqi öz səhhətlərini qızıl toplamağa qurban verən adamları “ruhi xəstələr” adlandırmışdır və göstərmişdir ki, bədəni xəstə olanın sandıq dolusu qızılı olsa da, onu xoşbəxt hesab etmək olmaz, beləläri ən bədbəxt adamlardır.

Onun “insanın hər şeyi – zehni, əxlaqi, mərifəti, zövqi gözəl olmalıdır”, – fikri də bunu təsdiq edir. Sidqi yazırdı ki, yaxşı əsər zehni sağlamlaşdırır, pis əsər isə zövqü korladığı kimi, əxlaqı da korlayır. Onun etikasının əsas tələblərindən biri bu idi ki, insanın bədəni sağlam olduğu kimi, zehni də sağlam olmalıdır: Hər bir “insan bədənin salamatlığından səvayi qüvveyi-hafizə və qüvveyi-zehniyə və fikriyyəsinin mühafizəsinə də diqqət etməlidir… İnsanın zehni sağlam, fikri salamat, vicudi pürqüvvə, ixtiyarı öz əlində olmadıdır”.

Sidqinin fikrincə, ədəbiyyat bunda insana kömək edən vasitələrdən biri

olmalıdır. Oxumaq, xülasə, insan üçün ən əziz və qiymətli olan səhhətin qədri-qiymətini bilmək, mühafizə etmək şərən və əqlən fərz və vacibdir.

Beləliklə, böyük maarif fədaisi, tanınmış pedaqoq, xalqımızın gözəl filosofu və şairi M.T.Sidqinin yaradıcılığında fiziki tərbiyə, fiziki mədəniyyət problemi ilə bağlı araşdırmalara hələ xeyli ehtiyac duyulur. Onun ictimai-pedaqoji irsində, fəlsəfi görüşlərində, habelə maarifçilik fəaliyyətində insan səhhətinin qorunması, sağlam həyat tərzinin formalaşdırılması, insan həyatını rövnəqləndirən sağlamlıq məsələləri, habelə insanın ruhən və cismən inkişafında fiziki tərbiyənin rolu ilə bağlı dəyərli fikirlər pedaqogika elmimizə ərməğan edilmiş əvəzsiz mənəvi sərvətlərdəndir.

**Mobil ASLANLI HUNTÜRK**






Zöhrab MEHDİ

## ŞUŞAM, OYY!

Səni yenidən görmək, ah,
Bir başqa aləm, bir başqa!
Bəlkə, ondandı bu gün, bax,
Göy başqa aləm, yer başqa!

Həsrət, vüsal bir arada,
Bir arada sevinclə qəm.
Olanlar üzməsin səni,
Qəm eləmə di, qəmin kəm!

Dilimdən heç düşmədin ki,
Çıxmadın ki heç huşumdan.
Nə sevdalar gəldi, getdi,
Tək sən getmədin başımdan!

Gözüm çıxsın, boynum sınsın,
Bir az gec gəldim, bağışla.
Sən də üzə vurma daha,
Nolar, keç, gəldim, – bağışla!

...Necə dözdüm səndən ayrı,
Yoxsa ürəyi daşam, oyy?!
Bir də ayrılıq olmasın,
Bir də dözmərəm, Şuşam, oyy!

## NECƏSƏN?!

Bu zirvə həminki, bu dağ həminki,
Bu sol həminkidi, bu sağ həminki,
Nə qədər istəsən, di bax, həminki,
A güllü, çiçəkli yaylaq, necəsən?!

Bu qaya bizimdi, süxur bizimdi,
Bu arxac bizimdi, axur bizimdi,
Bu sürü bizimdi, naxır bizimdi,
A qaşda otlayan daylaq, necəsən?!

Bu daşa, kəsəyə əyil, həminki.
Bu lilpar həminki, çeyil həminki.
Maraq həminkidi, meyil həminki,
A yarpızlı dərə, çaylaq, necəsən?!

Bu diriliş bizim, bu OL bizimdi,
Tanrıya açılan bu qol bizimdi.
Bu çəhlim bizimdi, bu yol bizimdi,
A şehli yal-yamac, oylaq, necəsən?!

Bu binə həminki, dəyə həminki,
Millənir tüstüsü göyə, həminki.
Bu yurd həminkidi, yiyə həminki,
A oba, a mahal, oymaq necəsən?!

## QUL OLDUQ

Varıq biz, dünən də vardıq,
Eş idik, həmdəmdik, yardıq,
Əridik – zirvədə qardıq –
Dərədə sel olduq, dostum!

Oxlanmış yurd göz dağımız,
Sinəmizdə köz dağımız,
Yandıq, çıxdı cızdağımız-
Kim deyər kül olduq, dostum?!

Necə zülümlərdən döndük,
Neçə bölümlərdən döndük.
Döndük, ölümlərdən döndük,
Silkindik, el olduq, dostum!

Meydan gördük, ərşad olduq,
Çox kəslərə irşad olduq,
Yeri gəldi, gürşad olduq,
Bozkırda yel olduq, dostum!

Baş qoymaqdan ötrü başa
Baş sındırmadıq da boşa....
Nəfsimizə deyil, haşa,
Biz haqqa qul olduq, dostum!

## VƏTƏN, AY VƏTƏN

Çiçəksən- üzülməz, dərilməzsən ki!
Dosta, yara peşkəş verilməzsən ki!
Elə bir sevdasan... sorulmazsan ki!
... Vətən, ay vətən!

Beşiksən, bələksən, kəfənsən, gorsan!
Könüldə atəşsən, ürəkdə qorsan!
Segahsan, Zabulsan, Şahnazsan, Şursan!
...Vətən, ay vətən!

Sən niyə bu qədər kiçilməzsən ki?!
Sən nədən bu qədər keçilməzsən ki?!
Ölçüyə gəlməzsən, ölçülməzsən ki!
... Vətən, ay vətən!
Dağım, dərəm, düzüm, aranım da sən!
İnancım, imanım, Quranım da sən!
Sənsiz mən bir heçəm, hər anımda sən!
... Vətən, ay vətən!

Hədəf «O», səmt doğru, yol uzun hələ!
...Qayım-qədim elin, ulusun belə!
Ay doğsun, qoy qurdun ulasın elə!
...Vətən, ay vətən!

## AYRILIQ

Bu qədər ayrılıq olarmı, Allah?!
Bu, yer ayrılıqdı, o göy ayrılıq.
Nəyə toxunursan, hara baxırsan,
Hər şey ayrılıqdı, hər şey ayrılıq!

Dənizə baxırsan, dəniz ayrılıq,
Çölə boylanırsan, çöl ayrılıqdı.
Bu cığır ayrılıq, bu iz ayrılıq,
Ovcunda tutduğun əl ayrılıqdı!

Bu dağ ayrılıqdı, daş ayrılıqdı,
Bu ağac ayrılıq, quş ayrılıqdı.
Gün gündən ayrılır, il ildən, Allah,
Üst-üstə qalanan yaş ayrılıqdı!

Dost da ayrılıqdı, yar da ayrılıq,
Yox da ayrılıqdı, var da ayrılıq.
Ocaq ayrılıqdı, qor da ayrılıq,
Burda ayrılıqdı, orda ayrılıq!

...Bu qədər ayrılıq olarmı, Allah?!
Hər tərəf... arxa da, ön də – ayrılıq!
Nə illah etsəm də, yahu, nə illah,
Baxıram, büsbütün mən də ayrılıq!

## ELƏ İSTƏYİRƏM

Elə istəyirəm – bir külək əsə,
Əsə şıltaq külək, kür külək əsə.
Diksinə, titrəyə yer, külək əsə,
Elə istəyirəm, elə – İlahi!

Elə istəyirəm – bir yağış yağa.
Yağa leysan kimi, gur yağış yağa.
Təpə gözlərinə yer, yağış yağa,
Elə istəyirəm, elə – İlahi!

Elə istəyirəm – bir günəş doğa.
Doğa üzümüzə nur, günəş doğa.
Gərnəşə, əsnəyə yer, günəş doğa,
Elə istəyirəm, elə – İlahi!

...Hələ ümidim var, hələ, İlahi!
Beləyəm mən də, bax belə, İlahi!
Neyləyim, özümdən asılı deyil –
Elə istəyirəm, elə – İlahi!

## UNUTMUŞAM

Bilirsənmi, səni necə unutmuşam?!
Unutmuşam, gözlərinin qarasına kimi.
Nəfəsinin istisinə, saçlarının qoxusuna,
qollarının arasına kimi.

Yanaqlarının qəmzəsinə kimi unutmuşam.
Dodaqlarının məzəsinə kimi unutmuşam.
Səni necə unutmuşam, bilirsənmi?!
Əllərinin qəbzəsinə kimi unutmuşam!

Bilirsənmi, səni necə unutmuşam?!
Unutmuşam, məhlənizin adamlarına kimi.
Ağaclarına, pişiklərinə, köşklərinə,
yumru-yumru damlarına kimi.

Ürkək-ürkək baxışına kimi unutmuşam.
Titrək-titrək yerişinə kimi unutmuşam.
Səni necə unutmuşam, bilirsənmi?!
Evinizin girişinə kimi unutmuşam.

Bilirsənmi, səni necə unutmuşam?!
Unutmuşam, dedim axı, dedim necə...
Di yan tökül – çartla, partla – nə bilim,
eh...
Unutmuşam bax beləcə!

## BİR DUA YAZIRAM

Hər gün bir dua yazıram göy üzünə –
Yazıram ki, günümüz aydın olsun.
Zəkamız iti, yolumuz açıq,
önümüz aydın olsun!

İzimiz itməsin, sözümüz bitməsin,
İşığımız, nurumuz azalmasın deyə...
Göy üzünə bir dua yazıram hər gün-
sıramız pozulmasın deyə!

Hər gün bir dua yazıram göy üzünə,
Yazıram ki, soyumuz kəsilməsin –
Kökümüz qurumasın, odumuz sönməsin –
çörəyimiz, suyumuz kəsilməsin!

Haylanaq, huylanaq o başdan,
Toy qurub toylanaq deyə –
Göy üzünə bir dua yazıram hər gün –
Boy verib boylanaq deyə!

Hər gün bir dua yazıram göy üzünə,
Yazıram ki, ulasın qurdumuz, oğul!
Qan-qada, dərd-bəla görməsin bir də –
görməsin – yurdumuz, oğul!

## OLMAĞA

Kim kimə barmağın tuşladı, dostum?
Kim kimin bostanın daşladı, dostum?
Bax elə o gündən başladı, dostum
...Yerin dar olmağa!

Lap Məşədə göndər, haca da... saxla.
İstər damda saxla... bacada saxla.
Hər an mənliyini ucada saxla
...Qoyma xar olmağa!

Görərsən – burnunun ucu göynəyər.
İçində bir nisgil, acı göynəyər.
Dərin bir yaranın öcü göynəyər
... Hayqırar car olmağa!

Can deyər yalandan çoxu, İlahi!
Sonra da fırladar "ox"u, İlahi!
Mənə səndən başqa axı, İlahi
... Kim var yar olmağa?!

Ah , bu ozan ömrü, bu dədə ömrü,
Asiyə, namərdə bu hədə ömrü.
Yetişər – götürüb eh – vədə, ömrü
...Gedərəm var olmağa!

**CANIM-GÖZÜM**

Məni qalxan elə doğrularına,
Məni məlhəm elə sarğılarına,
Məni qurban elə ağrılarına –
Elə, canım-gözüm!

İstəsən, eh elə, dilinə qondur.
İstəsən, meh elə, telinə qondur.
İstəsən, şeh elə, gülünə qondur –
Elə, canım-gözüm!

Məni çəpər elə maraqlarına,
Məni sipər elə dayaqlarına,
Məni təpər elə ayaqlarına –
Elə, canım-gözüm!

İstəsən, qor elə gözündə məni,
İstəsən, nur elə üzündə məni,
İstəsən, hürr elə özündə məni –
Elə, canım-gözüm!

Lap əsir də elə, kölə də elə,
Lap çevir belədən-belə də, elə
Vaxt keçir – di dur də, elə də, elə –
Elə, canım-gözüm!

***

...Çəkilmiş çaxmaqdı bürkü-
Gecənin bağrından qopan güllə səsləridi
Cırcıramaların aramsız, yeknəsəq səsləri –
Nöqtə atışı kimi dəyir – yuxum hədəfə...

...Çevrildikcə bu üzümdən o üzümə –
Elə bilirəm dünya da çevrilir mənimlə –
Yellənir, yırğalanır – oxundan çıxacaq
deyə –
Az qala ürəyim ağzıma gəlir – hər dəfə...

...Hələ bir yandan da o it,
Tənbəl-tənbəl yayqarasına hürən,
Nəfəsini boynumda, boğazımda hiss
etdiyim,
Ağzının seliyi üzümə, gözümə bulaşan...
... Bu da azmış kimi, bir də
Hər vəchlə yaxamı qurtarmaq istədiyim
Lənətə gəlmiş bu yaramazlar, bu çirkinlər –
Qara, sərsəm fikirlər – başımda dolaşan...

...Vaxt da üzə durub elə bil,
Başını aşağı salıb günahkar adamlar kimi.
Qaranlıq çəkilir arasına ağacların, kolların –
Çəkilir ki, az da... canımı sıxmasın...
...Yuxum cəhənnəmə, hazıram
Çıxıb pişvazına günəşi salamlamağa,
Açıb qollarımı bağrıma basmağa səhəri –
Yetər ki, başqa bir tərslik çıxmasın...



# VƏTƏNİM SƏNSƏN

Ayna ASİMQIZI

Yenə burdayam. Pəncərənin qabağında. Elə hey gözləyirəm. Günlər keçir birər-birər, mən yenə də burdayam. Günəş doğur, məni seyr edir, sonra o da gedir. Ay hər gecə məni izləməkdədir. Dan ulduzu hər gecə məni dinləməkdədir: "Sən danış mənə, dinləyirəm səni hər gecə". Sonra o da gedir. Mənə vəfasızlıq edir. Bütün dərdlərimi şeir təki əzbərləyən o gözəl pəri – o da mı məni tərk edir? Yox, o, vəfasız deyil. Ən azından o, gecələri məni yad edir. Sonra sabah olur, göy üzü aydınlanır. Gözəl səba məni xatırlayır. Hər gün saçlarımı darayır. Saçlarımın qoxusunu ona aparır. Dərdlərimin aşinasıdır. "Sən danış mənə, elçi olum sənin eşqinə. Səsindəki o məlahəti, o sədaqəti aparım sevdiyinə". Ah-naləm yetişir ərşə. Buludlar göz yaşı tökür mənim dərdimə. Amma buludlar ağlamasın, istəyirəm. Ağlamayın, nazlı buludlar. Axı onun ayaqları yağmur suyu ilə yoğrulmuş torpaqdadır. İndi üşüyür əlləri, soyuqdadır. O məni unutsa da, qıya bilmirəm ona. Sevirəm onu hələ də qəlbimin ən dərinində. O sevmirdi məni. Bəlkə də, sevirdi, mən bilmirəm hələ də, amma bilirəm ki, bu torpağı məndən çox sevirdi. Məni deyil, bu torpağı seçdi. Məni qoyub getdi. O, indi səngərdədir. Məni tərk etdi. O, indi cəbhədədir. Mən ona vətənimsən deyirdim, o mənə bu vətənimin çiçəyi. Mən ona can deyirdim, o bu torpağa yar. Bəlkə də, qayıtmayacaq. Sevgilim dediyi torpağın bir parçası olacaq. Sevdiyinə qovuşacaq. Mən də sevdiyini bu torpağa bağışlayan milyonlardan biri. Madam o bu torpağı məndən çox sevir, məni yox, onu seçir, mən də sevəcəyəm. Axı sevdiyimi bu torpağın qoynuna verəcəyəm. Sevdiyimi bir verdim, bir daha verməyəcəyəm!

## İNSANIN QİYMƏTİ

Bir balaca nöqtə kimiyik, əslində. Həm böyük bir romanın, böyük bir kitabın çatdığı son mənzil, həm də bəsit bir nöqtə, təklikdə heç nə. Görürsənmi, təklikdə heç nəsən, qədrin yoxdur, əslində, amma bir cümlə yetər böyük bir hökmü verəcək gücə qadir ola bilməyinə. İnsan deyib keçmə. Beş hərfli bu sözün hər bir hərfində bir sirr gizlidir, əslində. Həm acizsən, həm də böyük gücə sahibsən. Həm ölçüləri tənzim edirsən həm də ölçü sənsən. Düşünürsən, lakin anlamırsan. Ən böyük fərqindir düşüncələrin. Varlığının təsdiqidir sənin

düşüncələrin. Cismin heçdir, o olmasa da, sən varsan. O olmasa, sən, əslində azadsan. Ah, o cismin səni məhkum edir kiçik sərhədlərə. Aşmağa qoymur o sərhədləri. Zindandır sənə o bədən. Düşünürsən, lakin anlamırsan. Sən həm varsan, həm də yoxsan. Sən, əslində, ziddiyyətsən. Bunu heç vaxt görmürsən. Hər şeyi özü ilə bağlayan insan, sən, bilirsən, nəsən?! Dünyanın mərkəzinə qoyursan özünü. Həyat adlanan bu səhnədə baş qəhrəmansan düşüncələrində. Hadisələr baş verir sənin dövrəndə. Əslində, düşünsən, bu həyat səhnəsində köməkçi rol yoxdur. Hamı baş qəhrəmandır öz hekayəsində. Səni mər-kəzə qoyan insandır yenə də. Bir şam canlandır nəzərində. Ərafında dövr etməsə pərvanə, bir qiyməti olarmı yenə də? Bir düşün yenə də, olmasa, dünyada heç kəs, olsan sadəcə sən, bu qocaman dünyada olarmı bir dəyərin daha?.. Unutma əsla! Bir nöqtə kimisən, bir daha xatırla. Cümlə yoxsa, yoxdur bir dəyərin, heçsən, əslində. Bir söz kifayət edər sənə böyük qüdrət verməyə. Kiçik bir dünyasan sən də. Qoynunda bir həyat gizlədirsən, amma günəşin ətrafında bir pərvanə misalı dövr edirsən. Dəyərlisən sənə dəyər verənlərə dəyər verdiyin qədər.

## FÜZULİ VƏ HÜQO

**Hüqo:** Ey böyük sələfim, söylə, nədir həyatın mənası? Nədir bu vurhavur, nədir bu qaçaqaç? Hər kəs tələsir, baxmadan arxasına, məqsəd nədir hamı bilir guya, amma əldə etdiklərimiz əllərə qonan quş tüküdür sanki, bir mehlə onlar da bizim kimi yox olub gedəcəkdir. Ey ustad, maraqlıdr mənə, dənizin köpükləri kimi yox olub gedəcəksə hər şey əlimizdən, bəlkə də, biz də nə üçündür bu təlaş və bu savaş?

**Füzuli:** Sənlə mən arasında yüz illər var. Sənlə mən arasında mədəniyyətlər, kültürlər var. Sənlə mən arasında illər qədər yollar var. Sənlə mən dindaş deyilik, sənlə mən həmvətən də deyilik. Sənlə mən qarşı-qarşıya duran güzgülər kimiyik. Göz-gözə gəlsək, gözlərin aynasında görəcəksən sonsuzluğu, bu sonsuz çarpışma və çırpınışların səbəb və səbəbkarını. Həyatın mənası həyatın mənasını axtarmaqdan ibarətdir. Çılpaq gözlə baxsan, zahirən “biz”, – deyə bir şey ola bilməz. Çünki mən hacıyamsa, sən rahib, mən gündüz, sənsə gecə, birimiz günəş, birimiz ulduz. Amma düşünən dərindən, sadəcə baxan deyil görən, əslində, bu dünyada sən və mən olmadığını anlayar. Çünki bu dünya yaranandan “biz” var hər zaman. Fərq nədir axı bizdə?! Heç nə. Fərqliliklər zahirdədir. Biz eyniyik, əslində. Həyat eynidi hər kəs üçün, əslində. Hamı bir həyatın şöləsinə baxır, sadəcə, fərqli pəncərələrdən. Hər kəs bir-birini tənqid edir, baxdığı şeyə görə yox, baxmaq üçün durduğu yerə görə. Fərq yoxdur, ikilik yoxdur. Sən də, mən də eyni qayə üçün vuruşmuşuq, sadəcə, yollarmız fərqlidir. Son mənzilimiz eynidir. Bax sən öz zamanına, sonra da özündən əvvəl və sonraya. Bu dünyaya gəlmiş, gələn və gələcək insanların həyatında fərq varmı ki?! Bu maddi dünyada əldə etdiklərimiz, edəcəklərimiz hamısı eynidir. Hər kəs doğulur, böyüyür, özünü axtarmağa, mənliyini kəşf edib tapmağa öncə zehninin qaranlıq otaqlarından başlayır. Sonra qəlbində çarə tapır. Eşqin meyini dadır, kimininki dilində qalır, kiminiki dildən qəlbə yol tapır. Sonra yaşlanır, yox olub getməkdən, itib-batmaqdan qorxu tapır. İzini, tozunu bu dünyada qoymaq üçün şah əsər yaradır. Hər bir insan, bəlkə də, artıq bizim üçün adi görünən bir yola addım atır.

Bir insan böyüdüb yetişdirmək çoxlarının bu dünyada nişan qoymaq üçün yeganə yoludur. Milyonlara bu, adidir, lakin insan yetişdirmək alilikdir. Ən çətin iş bu işdir. Sonra qocalır, yolun sonuna çatır. Hər dövrdə, hər yerdə, hər zamanda, hər ildə dövran və kainatın gərdişi belədir. Ona görə də həyatın mənası bu dünyada deyildir. Çünki bu dünya çarx misalı dövr edir. Nə irəli, nə geri, olduğu yerdə hərlənir.

**Hüqo:** Ey arifi-ustad olan müəllim, həyatın mənasını tapan varmı bəs? Varsa, yolu hansıdır, hardadır? Hardan başlayır yolu? Son mənzil eynidir, bəs onun yolunun başı haradır?

**Füzuli**: Son mənzilə çatan yollar çoxdur. Saysız olan yolların yolçusu da çoxdur. Həyatın mənası həm bu dünyadadır, həm də deyildir. Bu sirri bu dünyada da,o dünyada da, sən hardasansa, orda taparsan. Çünki həyatın mənası, bəlkə də, sənsən, bəlkə, deyilsən. Amma sübuta eytiyacı olmayan yeganə fakt budur, həyatın mənasını içində gizlədirsən.

**Hüqo:** Ey mənim müəllimim, həyatın mənası insanda gizlidirsə, bəs onda nədən milyonlarla insan ömür boyu onu tapmaq uğrunda çırpınıb durur, bir ömrü bu yolda qoyub bu sirrə vaqif olmur?

**Füzuli:** Bu dünyada itib-batan çoxdur, bu dünyada axtarılan, tapılmayan da çoxdur. Unutma, bir şeyi gizlətməyin ən gözəl yolu onu gözlər önündə qoymaqdır. Həyat hər zaman mürəkkəb gəlir insana. Mürəkkəb düşünürük hər zaman. Bizə görə illər, əsrlər boyu axtarılan gözlər önündə ola bilməz. Əslində, ən böyük məsələ və imtahan da budur. Həyat çox sadə və düzdür. Həyat, dolaşıqlıqdan, döngələrdən, qarşıqlıqdan və qeylü-qaldan uzaqdır. Həyat dümdüz bir ip kimidir, əslində. Düyünlərdən azaddır. Biz düz ipin düyünlərini açmağa çalışıb, düyünü özümüz yaradırıq. Uzaqlarda axtardığımız, əslində, yanımızdadır. Baxmaq deyil, görmək lazımdır. Hamı qaçır, hamı təlaşdadır, məsələ isə dayanmaqdadır. Axtarışı buraxsaq, nəfəs alsaq, dayansaq, o olmayan düyünlər açılacaq. Həyatın mənası özü səni qarşılayacaq.

**Hüqo:** Dünyada ən böyük qüsur və eyib, dünyada ən böyük gözəllik və möcüzə insandır yenə də. Dünyanı gözəlləşdirən, həyatın dümdüz ipinə düzülən incidir insan. Eyni zamanda həyatın ipini dolaşdıran. İnci dəyərlidir gözəldir, safdır, təmizdir, sadəlikdir, incəlikdir, hətta gözəllikdir. Amma heyif ki, quru bir daş parçası, cansız bir cisimdir. İnsan bəsit bir nöqtədir. Böyük hekayələrin, romanların, cild-cild əsərlərin çatdığı son mənzil, son nöqtədir. Böyük dühaların böyük şah əsərlərinə, tarixin qızıl səhifələrinə öz möhürünü vurub son nöqtəni qoyan qüdrətdir, amma təklikdə cılız və heçdir. Bəmbəyaz kağız üzərində gözəlliyə vurulmuş sadəcə bir ləkədir. Kvazimodo insanın maddiləşmiş mənasıdır. Həm çirkindir, həm də çirkinliklər içərisindəki gözəllikdir. İnsan bir möcüzədir. Milyonlar birdən gəlir, amma bir-birindən fərqlənir. Mən deyərdim ki, insan bir əsradır, bir sirdir.

**Füzuli:** İnsan bir sirr deyil, sirr pərdəsi arxasındakı ləldir. İnsan bir möcüzədir. On görə yox ki, ikilikdədir. Çünki içində kəhkəşanı gizlədir. Hər bir insanın öz yeri var kəhkəşanlar içində. Ən gözəl olan zorla qazanılan. Uğrunda mübarizə aparılan. Ən dəyərli və qiymətli ləl-cəvahirat zəhmətlə, qətiyyətlə çalışıb əldə olunandır. Zəhmətsiz qazanılan nemət, çox ağılsız üçün əhəmiyyətsizdir. İtiriləndə dəyəri bilinəndir. Vəd olunan zəhmətlə qazanılan, ömrünü orta-

ya qoyub, ömür boyu axtardığın ömrünün mənasıdır. Çünki sənin hər anın, həyatındır. Həyatın qarşılığında aldığın, həyatının əvəzi, onun eşi, tayı-bərabəridir. Buna görə də gözəldir. İnsan buna görə bir xəzinədir. Çünki içində böyük bir sirri gizlədir. Ən dəyərli olanı çirkin baxışlardan əsirgəyir. İnsan çirkinliklər içərisindəki gözəllik deyil, insan gövhəri gizlədən mücrüdür, əslində. Böyük bir mağara və mədəndir. Almazı köksündə bəsləyir. Bu sirri illər boyu axtarır, sonda cavabı özündə tapır. Buna görə o cavab onun üçün qiymətlidir. Çünki zəhmətlə əldə edir. Buna görə də onun qədrini bilir. Hər şeyin səbəbi budur.

**Hüqo:** "İnsan bu qədər gözəldir, dəyərlidir, zinətdir", – deyirsən. "İnsan ikilikdə deyil", – deyirsən. Bəs onda bu ikilik nədəndir. Səbəbkarı kimdir? İnsan bu qədər gözəldirsə, nəyə görə bətnində çirkinlik yetişdirir? Öz cinsini qətl edir. Aşiq olur, sevir, sevilir, lakin saf və məsum olan sevgini, insanı öz atəşi ilə saflaşdıran eşqi ləkələyir. Ona verilən neməti hədər edir, yıxır, dağıdır, qurmaq əvəzinə qurulanı məhv edir. Bütün bunları edən insan bu qədər təmiz və bəyaz ola bilərmi? Demirəm, insan sadəcə ləkədir. Deyirəm, insan ləkəli ağ kağız kimidir.

**Füzuli:** Bütün bu çirkinliklər, bu qüsur və eyiblər axtarışdan irəli gəlir. İnsan yaradılışının mənasını, öz mayasını axtarır. Çoxları səhv yerdə axtarışa başlayır, sonra qaranlıqlar arasında qara bir kölgəyə çevrilir. Qaranlığın sonsuz boşluğunda yox olmağa başlayan insan özünə bir işıq axtarır, lakin qaranlıqda işıq tapılmayacaqdır. Buna görə də tapa bilmədiyi cavabların yerini özü doldurmağa başlayır. Fəqət hər boşluq öz əskikliyini axtarır. Bağlanmır onun içində bir yara kimi qan sızdıran o boşluqdur. Ona görə nə etsə də, çarə deyil, çatlaqlardan qara bir duman sızır insan ömrünə. O çatlaqları doldurmaq üçün insan vəhşiyə çevrilir, çünki doldurmur onun içindəki o boşluğu heç nə. Hər şeyə tamah salır, nəfs salır, çünki o boşluğu dolduracaq gerçəkliyi istəyir. Vəhşilik, iyrənclik və qaranlıq insandan deyil, onun içindəki açıq yaralardan gəlir. Unutma heç vaxt, insan nə qədər çirkaba batsa da, eşqi, sevgini ləkələyə bilməz əsla. Eşq o qədər saf-dır ki, ləkə tutmaz. Aşiqin eşqi incidirsə sevgilini, eşqin odunda yanmır, öz odu ilə yaxırsa sevdiyim dediyini, bu, eşq deyil. Eşq dildə yaranan deyil, qəlbdən dilə yol tapandır. Bu dünya bataqlıqdır, hər kəs bataqlıqdadır, sadəcə, bəzləri ulduzlara baxır. Ulduzlara baxan aşiqlərdir. Onlar ulduzlara çatmayacağını bilsə belə, yenə sevirlər. Çünki onlara eşq uğrunda bu həyatı qurban edirlər. Onlar eşqdən heç nə gözləmirlər. Onlar, sadəcə, eşq odunda yanmaq istəyirlər. Hər zaman, vüsal imkansız olsa belə, ona qovuşacağı günə çatmağa ümid edirlər.

**Hüqo:** Ey hikmət sahibi böyük ustad, sən dedin, bu dünyanın təməlində sadəcə biz var, sən və mən ola bilməz. Bəs onda bu ayrılıq, bu bölgü, bu kəsrət nədəndir? Qadını, kişisi, dindarı, dinsizi, alimi, cahili, kəndlisi, şəhərlisi, varlısı, kasıbı – hamısı insan deyilmi?.. Bu saydıqlarım hələ mində biri. Min illərdir bu dünyada hər qrup, hər təbəqə özünü qoyur zirvəyə, hər kəs bir-birinə baxır yuxarıdan. Kişilər qadınları, vaxt vardı, heç insan adlandırmırdı. Varlılar kasıbları tapdayaraq, əməyindən yararlanıb, əlindən haqqını alaraq qalxdığı zirvədən insanlara yuxarıdan aşağı baxmırmı?! Biz var bu dünyada, razıyam,

amma sizlərlə bərabər var bizlər. Bəs bu, çoxluq aləminin qüsuru deyilmi?!

**Füzuli:** Kəsrət, əslində, təklikdən gəlir. Hər kəs və hər şey tamın bir parçası, bir hissəsidir. Sən olmasan, mənim, mən olmasam, sənin varlığın bir heç nədir. Gündüz və gecə bir günü, günlər həftələri, həftələr illəri, illər qərinələri yaratmırmı?! Hər birimiz, əslində, ən dəyərsiz hesab etdiklərimiz belə həyat zəncirində bir həlqədir. Birinin əskikliyi kainatın məhvidir. Əslində, hər şey təklikdə heç nədir. Düşün bir az, dünyanı dizə gətirən güc və qüdrət gözəllik qarşısında müti kölə deyilmi?! Gücdə zəriflik və zərafət yoxdur, gözəllikdə heybət. Onlar birlikdə tam və gerçək həqiqət. Hər birimiz bir günəşin bir zərrəsiyik.

**Hüqo:** O zaman, ey böyük üstad, nə edək ki, bölgü, bu kəsrət sona yetsin? Küllün zərrələri vahiddə birləşsin. Bitsin artıq bu sancı, bu ayrılıq, bu vüsal. Nə edək, ey böyük üstad?!

**Füzuli:** Əbədi xoşbəxtlik bir olmağı bacarmaqdadır ancaq. Bir olmaq üçün, birlik olmaq üçün, əbədi xoşbəxtliyə qovuşmaq üçün özündən keçəsən gərək. Əbədi xoşbəxtlik damla olmaqdan keçib ümmanla bir bütün olmaqdır. Qığılcım olmaqdan keçib nurunu oda bağışlamaqdır. Pərvanə cismi oda bəxş edəndə yalnız anlayacaq eşqin dəyərini.

## ANA

*"Ey kahraman türk kadını,*
*sen yerde sü rüklenmeye deyil, omuzlar*
*üzerinde göklere yükselmeye layıksın.*
*M. K. Atatürk*

Yollar uzundu önümdə. Bilmirəm, bəlkə, çatmayacaqdım ümidlərimin bağlandığı yerə. Amma iki sətir sözə güvəndim, inandım, çünki inanmağa möhtacdım. Çarəm yoxdu başqa. Mən kimi minlərcə qadın iki sətir sözə güvənib gedirdik bilinməyən bir əlamətin arxasınca. Bəlkə, sonumuz qiyamət olacaqdı. Bilirdik, bu çıxdığımız yolda hər şey gələ bilər başımıza. Çünki vətənin hər qarışında bir təhlükə vardı. Hər gün bir yer alışıb-yanırdı. Hər gün bir igidin ölüm xəbəri bu vətənin hər dağında, daşında yanxılanırdı. Hər kəs qorxu içində, – "Görəsən, bu gün kimdir ölən, kimdir bu gün gedər-gəlməz olan?", – deyə gözləri ilə yol çəkirdi soyuq səngərlərə. Minlərcə gözəlin yol gözləyən gözlərində, baxışlarında min bir məna vardı. Dünyanın dərdini onların gözləri anladırdı. O qızın gözlərində nələr vardı, bir bilsən. Onun dolmuş gözlərində yanan, onu yandırıb-yaxan atəşi görsən, ürəyindəki susmayan səsi dinləsən, onun susqunluğundakı fəryad-fəqanı eşitsən, insanı sağır edən hayqırışlarını eşitsən, anlardın qaranlıq gecədən aydınlıq sabahın doğulacağını, amma bizi bizdən başqası eşitmədi. Bəlkə də, onların sonu, dəhşəti, fəlakəti bu oldu.

Əzrail olub şəmşiri əlində bir millətin ölüm hökmünü verən düşmən duymazdı ki bizi. Gözlərimizə baxmazdı, baxa bilməzdi. Qorxudan dizləri titrəyərdi. Əlləri əsərdi. Bir növ sağır ilandı, nəfəsimizi kəsməyi gözləyirdi. O gün qərar verdik, artıq

yetər, bu dağlarda, bu ovalarda ölümlər yanxılanmasın. Bir ümidlə çıxdıq bu yola.

Qar yağırdı, hər tərəf bəmbəyazdı. Qucağımda-qundaqda mərmi daşıyırdım. Mərmini köksümə övladım kimi sıxmışdım. Çünki mənin aydınlıq sabaha olan ümidimdi o mərmi. Əllərim donurdu soyuqdan. Çünki tək quru olan yun şalımı mərmiyə sarımışdım. Şaxtadan əllərim dondu, baxdım ki, əllərim çat-çat oldu. Artıq hiss etmirdim əllərimi. Kürəyimdə körpəm irəliləyirdim ümidim bağlandığı yerə. Qundaqdakı körpəm ağlamırdı daha. O da anlayırdı məni sanki, artıq çarə yoxdu. Çünki dayansam, ikimiz də donacaqdıq orda. O soyuqda, şaxtada addım-addım yaxınlaşırdım xəyalların çiçək açdığı aydınlıq sabahlara. Bu amansız soyuqda piyada çıxdım bu yola. Çünki mən bir anayam. Övladıma layiq olduğu gələcəyi qurmalıyam. Azadlığı, hürriyyəti övladıma miras qoymalıyam. Güvənib iki sətir sözə bir dastan yazdıq o illərdə.



## Gəray GÖYYURD

### BU GÜN ZƏFƏR GÜNÜDÜ!

Bu gün zəfər günüdü,
Bu gün hünər günüdü,
Xalqımın, vətənimin
Ən bəxtəvər günüdü!

Bü gün çatıb Allaha
Millətimin haqq səsi.
İlahi ədalətin
Bu gündür təntənəsi.

Bu gün vaxtın, zamanın
Qızılıdı, ləlidi.
İlin, ayın, həftənin,
Günün ən gözəlidi!

İgidliyin, mərdliyin,
Birliyin ad günüdü.
Şəhidlərin ruhunun
Ən xoşbəxt, şad günüdü.

Qoy axsın gözümüzdən
Qələbə göz yaşları.
Vətən güllü bağ olsun,
Nəğmə desin quşları.

Sevinc göz yaşlarıyla
Dərd-qəmimiz yuyulsun,
Analar yas libasın
Gərək bu gün soyunsun.

Gözü yolda qalmasın
Xankəndiylə Xocalı.
Sovuşsun birər-birər
Vətənin qeylü-qalı!

Yaxşılaşsın günbəgün
Xalqımın güzəranı.
Firavan həyatımız
Heyran qoysun dünyanı!

Bu millətin, vətənin
Köməyi Allah olsun!
Dövlətimiz qüdrətli,
Qanunumuz şah olsun!

## ƏZİZ XALQIM, QALİB ORDUM, DÖVLƏTİM

Sellər sayaq güclü oldu, gur oldu,
Sayəsində Qarabağım hürr oldu,
Dar ayaqda yumruq kimi bir oldu
Əziz xalqım, qalib ordum, dövlətim!

Daşı yarıb qayalardan sızdılar,
İşğalçının qəbirini qazdılar!
Tariximə şanlı tarix yazdılar
Əziz xalqım, qalib ordum, dövlətim!

Tərifləyib fəxarətlə öyürəm,
Nə yaxşı ki, siz varsınız, deyirəm!
Qarşınızda sayğıyla baş əyirəm,
Əziz xalqım, qalib ordum, dövlətim!

Ulu Tanrı daim sizə yar olsun,
Birliyiniz hər bir zaman var olsun!
Süfrənizdə bəhər olsun, bar olsun,
Əziz xalqım, qalib ordum, dövlətim!

Var-dövlətə, bol sərvətə layiqdir,
Xoşbəxtliyə, səadətə layiqdir!
Ehtirama, məhəbbətə layiqdir
Əziz xalqım, qalib ordum, dövlətim!

## İŞĞALI LƏNƏTLƏYİR, SÜLHÜ ALQIŞLAYIRAM!

Zəfər-zəfər yol gedir
Millətim qələbəyə!
Ürəyim quş sayağı
Sinəmdən uçur göyə!

Şəhid ruhları ilə
Vətən boyu dolaşır.
Keçilməz sərhədləri,
Sədləri keçib aşır.

Qazilər gözlərindən
Süzülürəm yaş kimi.
Hər birini bağrıma
Basıram qardaş kimi!

Zəfər göz yaşı ilə
Dərdim, qəmim yuyulur.
Vətənimə kəc baxan
Xain gözlər oyulur!

Haqq öz yerini alır,
Ədalət zəfər çalır!
Xalqıma divan tutan
Yağı düşmən alçalır.

İlhamımın gücüylə
Şeirim qanadlanır.
Misralar səf-səf durur,
Kəlmələrim atlanır!

Mən bu şanlı zəfəri
Bu cür qarşılayıram.
İşğalı lənətləyir,
Sülhü alqışlayıram!

Azadlığa qovuşur
Vətənimiz, yurdumuz.
İlahi ədaləti
Bərpa edir ordumuz.

İgidlər hazır durub
Komandanın əmrinə!
Ömrüylə ömür verir
Vətənimin ömrünə!

Ordumuzla fəxr edir
Komandanım, millətim.
Həmişə qüdrətli ol,
Güclü ol, ey dövlətim!

Haqlı yurd savaşında
Allah sənə yar olsun!
Daima müzəffər ol,
Vətən bəxtiyar olsun!

Kaş Allaha yetişsin
Şeirimin duası.
Əlinizdən öpürəm,
Siz ey şəhid anası!

Qarşınızda hörmətlə,
Sayğıyla baş əyirəm.
Qazi qardaşlarıma
Xoşbəxtlik diləyirəm!

## MƏNİM ƏZİZ XALQIM, ƏZİZ MİLLƏTİM!

Eh, nələr çəkmədi başın, a millət,
Qalmadı daş üstə daşın, a millət,
Soğuldu gözündən yaşın, a millət,
Hər üzünü gördün zülmün, zillətin,
Mənim əziz xalqım, əziz millətim!

Yurdun yağmalandı, evin dağıldı,
Gözəl arzuların qanda boğuldu!
Bətnindən igidlər, ərlər doğuldu,
Cahanı mat qoydu son şücaətin,
Mənim əziz xalqım, əziz millətim!

Çatdırdın dünyaya haqqın səsini,
Göstərdin xoş üzün kəskin tərsini!
Axır yağıların verdin dərsini,
Cəzası gərəkdir hər cinayətin,
Mənim əziz xalqım, əziz millətim!

Səndən formalaşdı bu qalib ordu,
İşğaldan qurtardı vətəni, yurdu!
Səni vəsf eləmək böyük qürurdu!
Şeirim-sözümdür sənə xidmətim,
Mənim əziz xalqım, əziz millətim!

Vətən sevgisini bildik haqq kimi,
Dünyada xalq yoxdu bizim xalq kimi!
Dayan arxasında, dayan dağ kimi
Şanlı ordumuzun, bir də dövlətin,
Mənim əziz xalqım, əziz millətim!

Millət ordusuyla bağlasa ilqar,
Qayaları yarar, dağı dağıdar!
Neçə ki dövlətlə birliyimiz var,
Davamlı olacaq qalibiyyətin,
Mənim əziz xalqım, əziz millətim!

## AZƏRBAYCAN ORDUSU

Xalqımın vuran qolu,
Sabaha baxan gözü.
Vətən, yurd sevgisinin
Heç vaxt sönməyən közü!
Gücünlə eşidilir
Dövlətimin haqq sözü.
Millətimin güvəni,
Düşmənlərin qorxusu –
Azərbaycan ordusu!

Sənin hər zəfərində
Şəhidlərin qanı var.
Yurdumun, dövlətimin
Şəfəqlənən danı var.
Hər kəs sənə borcludur,
Kimin ki vicdanı var!
Sevindirdin vətəni,
Bütün eli, ulusu –
Azərbaycan ordusu!

Varlığını qorudun
Bu vətənin, dövlətin.
Tarixlərə yazıldı
Mərdliyin, şücaətin.
Körpədən qocayadək
Bu xalqın, bu millətin
Minnətdarlıq hissi var
Sənə ürək dolusu,
Azərbaycan ordusu!

Başımızın tacıdır
Hər zabitin, əsgərin.
Qəhrəmandır, igiddir,
İnan ki, hər nəfərin.
Bu dünyaya səs saldı
Sənin şanlı zəfərin!
Səni vəsf eləməyə
Söz acizdir, doğrusu,
Azərbaycan ordusu!
Xoş gündüzlü sabahlar,
Səhər sənə yaraşır,
Qəhrəmanlıq, igidlik,
Hünər sənə yaraşır,

Boyuna biçilibdir,
Zəfər sənə yaraşır!
Tanrı sənə yar olsun,
Allah səni qorusun,
Azərbaycan ordusu!

## YENƏ SƏNƏ ÜZ TUTDUM, YENƏ SƏNƏ, AY ALLAH!

Nadan, cahil ,"ulaqlar"dan,
Namərd, sinsi tuzaqlardan,
Xain , satqın alçaqlardan
Dövlətimi qoru,Tanrım!

Düşmənimizi xar eylə,
Dünyanı ona dar eylə,
Xalqımı bərxudar eylə,
Millətimi qoru, Tanrım!

Qıpqırmızı yalanlardan,
Əqrəblərdən, ilanlardan,
Vəhşi, barbar talanlardan
Sərvətimi qoru,Tanrım!

Sən dayaq ol doğrulara,
Cavab tapaq sorğulara.
İmkan vermə oğrulara,
Qismətimi qoru,Tanrım!

Millətimin hər fərdi ər,
Qəhrəmandı hər bir əsgər!
Ordumuzu et müzəffər!
Qüdrətimi qoru, Tanrım!

Əskiltmə yurd sevgimizi,
Eşqlə doldur qəlbimizi!
Yumruq kimi bir et bizi,
Ülfətimi qoru, Tanrım!

## QƏHRƏMAN BİR MİLLƏTİN OĞLUSAN, ƏZİZ OĞLUM

*Oğlum Ömərə*

Ölum-qalım şüarı –
"Hər şeydən öncə vətən!"
Bu dünyada heç nə yox
Bu cənnət vətənə tən.
Haqq üçün uf demədən
Ölüm üstünə gedən
Qəhrəman bir millətin
Oğlusan, əziz oğlum.
Yolun haqqın yoludur,
Doğrusan, əziz oğlum.

Vətən, millət, hürr yolu
Bizimçün haqq yoludu.
Qəlbimiz yurd eşqiylə,
Sevgisiylə doludu!
Türk adı, türk milləti
İgidlik simvoludu!
Qəhrəmanlıq, comərdlik
Nağlısan, əziz oğlum,
Sən böyük bir millətin
Oğlusan, əziz oğlum!

Göz bəbəyintək qoru
Bu yurdu, bu dövləti.
Namus ilə ömür sür,
Dincə qoyma qeyrəti.
Haqqın ulu yolundan
Heç zaman dönmə qəti!
Çəksən də yüz işgəncə,
Ağrı sən, əziz oğlum,
Bil ki, haqq yolundasan,
Doğrusan, əziz oğlum!
Sən uca bir millətin
Oğlusan, əziz oğlum!

# QƏLBLƏRƏ YOL TAPAN POEZİYA: DAYANDUR SEVGİNİN ŞEİRLƏRİ ƏSASINDA



**İlahə SƏFƏRZADƏ**

Gözəl şeirlərin insan həyatındakı rolu dərin və çoxşaxəlidir. Bəşər tarixi boyu poeziya təkcə ədəbi növ kimi deyil, həm də emosional, intellektual və sosial ünsiyyət vasitəsi kimi mövcud olmuşdur. Şeirlər fərdi olmaqla bərabər, həm də ictimai səviyyədə qəlblərə yol tapır. Poeziya insanları nəinki özü, həmçinin dünya ilə əlaqə qurmağa, duyğuları ifadə edərək düşüncələri sorğulamağa, mədəniyyətin izlərini daşımaqdan insanların müxtəlif mövzulardakı mübarizələrini əks etdirməyə qədər bir çox funksiyaları özündə ehtiva edir.

İllərlə eyni şeirləri oxuyaraq eyni zövqü ala biliriksə, deməli, həqiqətən də, sənətdə gözəllik anlayışı dəyişmir. Çünki şairlər öz fərdi hisslərindən irəli gələn duyğularla yazıb-yaratmaqdan daha çox, xalqın ümumi sevgi, gözəllik, hicran, həsrət anlayışlarından yola çıxaraq, öz hisslərini fərqli insan emosiyaları ilə yoğuraraq vəhdət yarada bilirlər. Sevgi, ağrı, həsrət, ayrılıq, məhəbbət kimi duyğular şeirin obrazlı dili vasitəsilə şüurlarda mənəvi cəhətdən daha da yüksək pilləyə daşınır. Kəlmələrə düzülmüş təsirli emosiyalar şeirin qəlbində əks-səda verir. Bu məqalədə şeirlərini sevərək oxuduğumuz Dayandur Sevginin yaradıcılığından nümunələr seçib şərh etməyə çalışdım.

Hicran dərya, vüsal bir damla ətir,
Görməyən həsrəti nə bilər, nədir.
Bütün yaddaşımı sətirbəsətir
Siləm gərək səni unutmaq üçün.

***

Dəyişik düşübdür şirinim, acım,
Dünya balacadır, mən hara qaçım?
Yox ayrı bir yolum, özgə əlacım,
Öləm gərək səni unutmaq üçün.

Şairin “Səni unutmaq üçün” şeirindən gətirilən bu misralarda lirik qəhrəmanın öz sevgilisini unutmaq üçün çəkdiyi iztirab əks olunsa da, oxuyarkən mənəvi zövq yaşayır, haradasa başqa biri ilə öz dərdini bölüşürmüş kimi duyğulara qapılırıq. İnsanlar cənnəti yaşamağı, cəhənnəmi isə seyr etməyi sevirlər. Bəlkə də, məhz bu

şüuraltı hisslərimizlə bağlı səbəbdən irəli gəlir ki, ayrılıq, hicran, sevgi əzabının əks olunduğu şeirlər qəlbləri daha çox riqqətə gətirir, insanlara sevilməyin humanist mahiyyətini, bəşəri məzmununu poetik dilin vasitəsi ilə çatdırır.

Ritm, səs və təsvirlə zəngin olan şeirlər oxucuya dərindən təsir edərək onu sözlərin sehrinə düşməyə vadar edir, mücərrəd duyğu və düşüncələri konkretləşdirir, oxucunun xəyal gücünü, yaradıcı təxəyyülünü qidalandırır.



Üzü gülər günəşin,
Baxar yana səmadan.
Gecələr ay boylanar
Səmanın aynasından.

***

Tala-tala naxışdı
Səmada ağ buludlar.
Səmanın göz yaşıdı
Yağan yağış, yağan qar.

Bədii xəyal və romantik vüsətə malik olan misralar oxucunun qəlbini ələ almağa, ürəklərə yol tapmağa qadirdir.

Şeir həm də ictimai fəaliyyət, mübarizəyə ruhlandırmaq üçün vasitədir. Şair həm də cəmiyyətdə gördüyü naqisliklərə qarşı çıxır, ictimai idealını, onu düşündürən məsələlər haqqında öz narahatlıqlarını misralara tökür. Məhsətinin hələ uşaq ikən oxuduğum bu misraları beynimin bir kənarında özünə yer etmişdi:

Dün kaşu-kuzəmi daşlara çaldım,
Sərxoşdum, bilmədim, əlimdən saldım.
Kuzə dilə gəlib dedi ki, mən də
Sənin kimi idim, bu günə qaldım.

Dayandur Sevginin “Əl ağacı” adlı şeiri mənə həmin rübainin motivlərini xatırlatdı:

Qorxağın əlində darıxar, bezər,
Mərdlə hər ağrıya, acıya dözər,
Kişinin çiynində bayrağa bənzər,
Nakişi başında dar ağacıdı.

Bəndlərin birində lirik qəhrəman kuzəni əlindən salmaqla öz həyatı haqqında düşünürsə, burada əl ağacının məziyyətləri ilə öyünülərək yenə də dolayısı ilə həyat, insan psixologiyası, duyğu və düşüncələr haqqında xəyala dalır, öz səmimi hisslərini ifadə edir.

Ümumiyyətlə, poeziya mədəni irs kimi çox mühüm əhəmiyyətə malikdir və düşüncələr, hisslər, həyat haqqında qənaətlər şeirlər vasitəsilə nəsildən-nəslə ötürülür, genetik kod kimi formalaşır.

Şeirlər həm də rəqəmlərin mənaları və konotasiyalarından istifadə edərək yaradıcı bədii dil yaradır, nömrələr müəyyən mövzular və duyğularla əlaqələndirilir. Rəqəmlərin quruluşu da müəyyən ritm, qafiyə sxemi yaratmaqla oxucunun diqqətini cəlb edə bilir. Bu tip şeirlər qısa və yığcam olsa da, özündə düşündürücü mənalar ehtiva edir:

Sıfırdan başlanır, sıfırdan həyat,
Sıfırdan gedirik milyona doğru.
Zirvəyə yol gəzir, hamı zirvəyə,
Yüz minə can atır, bir ona doğru.

Dayandur Sevginin "Sıfır" adlı şeirindən sitat gətirilmiş bu misralarda rəqəmlər qeyri-adi birləşmələr və mənalar yaratmaq üçün təxəyyülü stimullaşdırır. Müəllif nömrələrdən unikal üsullarla istifadə edərək innovativ məzmun yarada bilmişdir.

Hər bir sənətkar kimi, Dayandur Sevgin də özündən öncəki yazıb-yaradan şəxsiyyətlərin ideya və düşüncələrinə istinad etmiş, onların bəşəri qayə və fikirlərinə yeni nəfəs gətirmişdir. Bu baxımdan "Dünya" şeiri səciyyəvidir. "Bir yandan boşalır, bir yandan dolur, Sirrini verməyir sirdaşa dünya" – deyən Səməd Vurğunun misralarına qüvvət olaraq müəllif yazır:

Titrəməz əlləri, qırışmaz üzü,
Seçməz nə əyrini, seçməz nə düzü,
Hamını qocaldır, qocalmaz özü,
Adəmin, Həvvanın yaşıdı dünya.

Həmçinin klassik ədəbiyyat ədəbi ənənələrindən yaranan Allaha müraciətlə (minacat) yazılmış "Allaha sual" şeiri də maraqlıdır:

Nə var ki salmağa mərdi kəməndə,
Ədalətin gözü yuxuludursa.
Allahın kölgəsi sayılan bəndə
Allahın özündən qorxuludursa,
Mən insandan qorxum, ya Səndən, Allah?

Bildiyimiz kimi, hələ qədim dövr ədəbiyyatından üzü bəri tarixən Allaha müraciətlə müxtəlif məzmunlu şeirlər yazılmışdır. Bu əsərlər insanların şüurundakı Tanrı arxetipinin poeziyaya köçürülmüş halıdır. Zamanla fani insanların əbədi Tanrıdan gözlənti və arzularını özündə ehtiva edib inancları nəsildən-nəslə ötürmüşdür.

Dayandur Sevginin çox sayda vətənə, torpağa olan sonsuz məhəbbət və bağlılığını ifadə edən şeirləri də vardır ki, bunlar da müəllifin qələmindən süzülüb gələrək yaddaşlarda daim yaşayacaqdır:

Arzu bulağımsan, ömür çırağım,
Dünyada ən böyük arxam-dayağım.
Göyündə ulduza dönməsəm də mən,
Yerində bir ovuc torpağam, Vətən.

Burada müəllifin şeirlərindən sadəcə bir neçəsini nümunələrlə şərh etsəm də, ümumilikdə Dayandur Sevgin poeziyası diqqətçəkən və yaddaqalandır. Bu da müəllifin formanı uyğun seçməyi ilə bərabər, həm də şeirlərdəki məzmun gözəlliyindən irəli gəlir. Ümid edirəm ki, o, oxucuları tərəfindən hər zaman dəyərləndirilərək qəlblərdə özünə əbədi yer edəcək.



# TARİXİN KÖLGƏSİNDƏ BU GÜN

Zəhra NAMAZLI

Tarixin kölgəsinə nəzər salmaq gələcəyə daha da ümidlə addımlamağa və geniş məlumat kütləsini təhlil etməyə imkan verir. Tarixi qədim olan bir ölkə dərin köklərə sahibdir və müasirliyi də bir o qədər çoxşaxəlidir. "Qədim xalq" anlayışı etnik tarixi olan bir ölkənin zəngin göstəricisidir. Azərbaycan xalqı tarix boyu keşməkeşli yollardan keçmiş və dövrümüzdəki müasir mühitdə, modern cəmiyyətdə inteqrasiya edərək beynəlxalq səviyyədə böyük nüfuza sahib olmuş, yüksək tribunalarda ev sahibliyi etməyə vəsiqə qazanmışdır.

Keçmiş Azərbaycan xəritəsinə nəzər salsaq, antik dövrün izlərini araşdırsaq, aydın olar ki, ibtidai icmanın qalıqları həkk olunmuş zəngin torpağın irsi silinməz bir tarixdir. Arxeoloji araşdırmalar nəticəsində belə yekun qənaətə gəlmək olar ki, Böyük Qafqaz, Kiçik Qafqaz, Dağlıq Qarabağ, Aran və digər coğrafi relyeflər sirlərlə doludur. Bu sirlər tarixi köklərə dayanan zəngin irsdir. Füzulidə Azıx mağarası, Qazaxda Damcılı bulaq bunların bariz sübutlarıdı. Daha sonra e.ə IX-e.ə VI əsrlərdə tarixi Azərbaycan ərazisində, indiki Cənubi Azərbaycanın şimal-qərbindəki Urmiya gölünün sahilində qədim dövlət olan Manna yarandı. Manna qədim Azərbaycan torpaqlarında yaranan ilk mərkəzləşdirilmiş dövlət hesab olunur. Azərbaycan dövləti antik mühitin digər müxtəlif milli etnik köklərinə bağlı olmuşdur. E.ə III minillikdə bu regionda mövcud olmuş qədim lulubi, kuti, sak tayfaları tayfa ittifaqlarının bilavasitə varisi idi.

Bu tarixin ardı olaraq e.ə IV əsrdən Azərbaycan ərazisində Qafqaz Albaniyası çarlığı mövcud idi. Regionun digər cənub-şərq hissəsi isə Atropatenanın tərkibində idi. Xronoloji ardıcıllığa əsasən, VIII əsrdə Atropatena və Albaniya Ərəb xilafətinin tərkibinə daxil olur. Və beləliklə, qədim xalqımız İslam mədəniyyəti ilə tanış olur. Baş verən digər xarici müdaxilələr və separatçı qüvvələrlə münaqişə yeni bir eranın başlanmasına zəmin yaradır. Azər-

baycan tarixinə nəzər yetirsək, ən qədim dövrdən ən yeni tarixə kimi çoxəsrlik ardıcıllığı olan antik bir ensiklopedik mənzərəylə rastlaşarıq. Antik tarix bizə məlum olan faktlar, araşdırmalar, ardıcıl xronologiya, tarixi siyasi-iqtisadi əlaqələr, dövlətlər arasında qarşılıqlı imzalanmış müqavilələr, tərtib olunan sazişlər, müharibələrin yaratdığı dağıntılar, xalqlar arasında qeyri-humanist rəftarın soyuq müharibə ilə nəticələnməsi və digər faktorlar. Tarix yalnız müharibələr, dağıntılar, nəhəng insan tələfatının nəticələndiyi qarşıdurmalar və savaşlardanmı ibarətdir? Genişləndirmə, vur, parçala anlayışının aktual olduğu bir zamanda yalnız dürüst hökmdarın və doğru siyasətin orduya başçılıq etməsindən başqa çarə görünmürdü. Müharibə hər hansı bir xalq, millət üçün dəhşətli nəticəsi olan fəlakətdi. Dövlətlər, tayfalar, siyasi qruplar və onların hərbi birləşmələri arasında hərbi əməliyyatlar formasında gedən münaqişə müharibə anlayışını yaradır. Böyük alim Albert Eynşteyn deyir: «Suveren dövlətlər mövcud olduqca müharibə qaçılmazdır! Əgər müharibə varsa, iki tərəfdən biri ya uduzmalı, ya da qalib gəlməlidir. Lakin tarix yalnız müharibə deyil, tarix zəngin mədəniyyət, incəsənət, elm, musiqi, ədəbiyyat, etnoqrafiya – bir sözlə, dərin və silinməz irsdir. Bir çox elm sahələri hələ bir neçə minilliklər bundan qabaq kəşf olunmuşdur. Bu isə bizə tarixin demək istədiklərini müəyyəm anlayış çərçivəsində izah edir».

Azərbaycan tarixinə nəzər yetirsək, çox dolğun şəkildə və sadə dillə desək, hələ qədim dövrdə yaranan dövlətlərin təsir dairəsini aydınlaşdırmaq bizə lazımi əsaslar verər. İlk öncə aşağıdakı mərhələlərdən keçərək bir daha Azərbaycan tarixinin necə zəngin və qədim olduğunu sübut edərik. Bunun nəticəsində dərin köklərə əsaslanan böyük mənbələrə nəzər yetirək. İlk öncə tarixin intibah dövrü olan nəhəng bir quruluşun – feodalizmin bu relyefdə yaratdığı yenidənqurma dövrünə və ilk yaranan Azərbaycan torpaqlarındakı müstəqil dövlətlərin ardıcıllığına nəzər yetirək.

İlkin yaranan feodal dövlətlər: Şirvanşahlar, Salarilər, Sacilər, Rəvvadilər, Şəddadilər Cənub-Şərqi Qafqazda, əsasən, indiki Azərbaycan Respublikası və qismən də indiki Dağıstan ərazisində mövcud olmuşdu. 1000 illik tarixə köklənən sülalənin yaratdığı hakimiyyət Azərbaycan orta əsrlər tarixində silinməz bir iz qoydu. XI əsrdə Azərbaycan torpaqları Böyük Səlcuq imperiyasının tərkibinə daxil olmuş və Azərbaycan xalqının formalaşmasında mühüm bir rol oynadı. X əsrdə Azərbaycan xalqının formalaşması prosesi sona çatdı. Tarixin iziylə getsək, xarici hücumlara məruz qalmış və torpaq istilaları ilə nəticələnən bir çox məlumatlar aşkar edərik. Teymurilərin və monqolların Azərbaycan torpağına basqınları və uğurlu yürüşləri yeni hadisələr üçün zəmin yaratdı.

XVI əsrdə yaranan Səfəvilər dövləti tarixdə yeni və uzun bir başlanğıc oldu. Şah İsmayıl Xətainin hakimiyyəti dövrü xalqın qırılmaz mübarizə əzmində silinməz bir iz qoydu. Bəli, ilk dəfə Azərbaycan tarixində müstəqil dövlətin yaranması Səfəvilər sülaləsinin adı ilə bağlıdır. XVI əsrdən etibarən eyni sülaləyə mənsub olan müxtəlif hökmdarlar xarici və daxili qüvvələrlə misilsiz mübarizə apardılar.

1747-ci ildən XIX əsrə kimi Azərbaycan ərazisində xanlıqların hakimiyyəti hökm sürdü. Müxtəlif regionlarda ayrıca

müstəqil xanlıqların yaranması möhkəmləndirmə siyasətini bir daha bəyan etdi. Azərbaycanın şimalında yeni siyasi qüvvə yarandı, cənubunda, şərqi və qərbində digər iqtisadi, aqrar islahatlar həyata keçirildi.

Azərbaycan torpaqları əsrlər boyu cənubdan ərəblərin hücumuna, şimaldan isə Rusiya imperiyasının təcavüzünə məruz qalıb. Xanlıqların hakimiyyətindən sonra XIX əsrdə torpaqlarımız Rusiya imperiyasının tərkibinə daxil oldu. Və bunun nəticəsində Azərbaycan torpaqlarında xanlıqlar hakimiyyətinə son qoyuldu, ərazi quberniya və əyalətlərə bölündü.

Rusiya imperiyasının süqutundan sonra 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yarandı. Daha sonra 1920-ci ildə yaranan Azərbaycan SSR 1936-cı ildə SSR-nin tərkibinə daxil oldu. Ta ki 1991-ci ilə kimi-Azərbaycan SSR-nin tərkibindən çıxıb müstəqilliyini elan edənə kimi. Bu uzun sürədə bir xalqın tarixi ən əsaslı şəkildə desək, arxeoloji abidələri, tarixi irsi, ədəbiyyatı, mədəniyyəti haqqında geniş bir məlumat toplusu yaradır.

Bunlara əsaslanaraq yeni tarixə nəzər saldıqda II Dünya müharibəsindən sonra XX əsrin birinci və ikinci yarısında Azərbaycan SSR mədəniyyəti yarandı və çiçəklənmə, intibah dövrü keçdi.

40-60-cı illərdə iqtisadi inkşafa nəzər yetirsək, görərik ki, II Dünya müharibəsi ölkənin təsərrüfatına və sənayesinə ağır zərbələr endirdi, işğal olunmuş Sovet əraziləri azad olunduqca Respublikada xalq təsərrüfatı bərpa edildi. Neft sənayesinə yeni texniki avadanlıq, təchizat və texnologiyaların tətbiqi genişləndi, yeni neft yataqları istismara verildi. Dünyada ilk dəfə olaraq Azərbaycanda açıq dənizdə neft çıxarılmasına başlandı.

1947-ci ildə açıq mədəndə neft estakadaları quruldu. Dənizdə qazılan kəşfiyyat quyusu 1949-cu ildə fontan vurdu. Azərbaycanın təcrübəli neftçiləri Sovet İttifaqının müxtəlif regionlarında, xüsusən Volqaboyu və Uralda yeni neft yataqlarının kəşfində və istismarında böyük xidmətlər göstərdilər. Bu dövrdə Azərbaycanda Sumqayıt, Daşkəsən, Mingəçevir, Şirvan kimi yeni sənaye mərkəzləri yaradıldı. Bu dövrdə Sumqayıt şəhəri böyük kimya və metallurgiya şəhərinə çevrildi. Tezliklə burda Azərbaycan əlvan metallurgiyasının ilk müəssisəsi – Alüminium zavodu işə salındı. Burda nəhəng kimya kombinatı, sintetik kauçuk, boru-prokat zavodları işə salındı.

1945-1954- cü illərdə Cənubi Qafqazda ən böyük Su Elektrik Stansiyası Mingəçevirdə, Abşeronda Dövlət Elektrik Stansiyası, Daşkəsəndə Filizsaflaşdırma Kombinatının əsasları qoyuldu. 50-ci illərdə SSR-də ən böyük tikinti müəssisələrindən olan Qaradağ Sement Zavodu işə salındı.

1950-ci illərin II yarısı, 60-cı illərində Bakıda poladəritmə, soyuducu və şin zavodları, Sumqayıtda superfosfat və neftkimya, Mingəçevirdə kabel, Gəncədə alüminium zavodu, Şirvanda İşıq Elektrik Stansiyası istismara verildi.

70-ci illərdə artıq əhalinin 50%-i şəhərdə məskunlaşmışdı. Bu səbəbdən sanaye şəhərlərinin yüksək inkşaf etməsi, yeni sənaye sahələrinin yaradılması əsaslı rol oynadı. Bütün bunlar əhalinin sosial rifahının yüksəlişinə münbit zəmin yaratmışdı. 1947-ci il dekabırın 14-də ərzaq və sənaye mallarına kartoçka sistemi ləğv

edildi. 1967-ci ildə noyabırın 6-da Yaxın Şərqdə ilk metropoliten, Bakı metrosu istismara verildi.

Halbuki bu tarixdə totalitar rejim davam edirdi. Güclü totalitar rejimin təmin olunmasında Stalinin, Azərbaycanda isə Bağırovun şəxsi nəzarəti altında işləyən Dövlət Təhlükəsizlik və Daxili İşlər Nazirliyinin mühüm rolu vardı.

Rusiya imperiyası bir çox ziyalıları, yazıçıları, alimləri təqib etməyə başladı, bir çoxlarını həbs edir, güllələyir və yaxud uzaq ölkələrə sürgün edirdilər. Repressiya qurbanlarını amansızca ağlagəlməz işgəncələrə məruz qoyurdular. Rusiya şərqşünaslıq elminin banisi Mirzə Kazımbəy çarizmə sədaqətlə xidmət etməkdə günahlandırıldı. "Kitabi-Dədə-Qorqud" dastanı feodal həyatını əks etdirən epos kimi dəyərləndirildi, tədqiqatçıları təqib edilməyə başlandı.

Akademik Heydər Hüseynovun 1949-cu ildə çap olunmuş "XIX əsr Azərbaycanda ictimai və fəlsəfi fikir tarixində" əsərində təsvir olunmuş Şeyx Şamilin başçılığı ilə xalq hərəkatı çarizmin müstəmləkəçilik siyasətinə qarşı mübarizə kimi qiymətləndirildi. Bu əsərə görə ona verilmiş Stalin mükafatı geri alındı.

Bu illərdə, əlbəttə ki, erməni fitnəkarlığının müxtəlif sahələrdə təzahürü davam edirdi. Azərbaycanda yaradılan yeni sənaye mərkəzlərinə bir çox erməni ailələri köçürülürdü. Bu da deportasiya siyasətinin ilkin addımlarıydı.

1997-ci il dekabrın 18-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin imzaladığı fərmanda 1948-1953-cü illərdə Ermənistandan azərbaycanlıların kütləvi deportasiyası – etnik təmizləmə və soyqırımı siyasəti qətiyyətlə pisləndi.

Xalq maarifi və mədəni maarif müəssisələrinin əasasının qoyulması mədəni inqilabın başlanğıc xronologiyası idi. İnqilabadək əhalinin yalnız 10%-ə qədəri savadlı idi. Sovet hakimiyyəti illərində ümumi icbari təhsil həyata keçirilmişdi. Bu isə xalqın maariflənməsində elmə olan marağın artırılmasında mühüm bir rol oynadı. Bir neçə məktəb, ali təhsil müəssisələri, texniki və peşə məktəbləri istismara verildi. Mədəni maarifə də olan maraq bir o qədər çoxalmışdı. Kütləvi kitabxanalar, klub, müəssisə, dövlət muzeyləri buna bariz nümunədir.

Azərbaycan xalqının xilaskarı, tarixdə böyük və silinməz bir iz qoymuş şəxsiyyət, humanizim və qayğının hökm sürdüyü bir dövrə rəhbərlik edən dahi şəxsiyyət – Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi xalqımız həyatında yeni bir səhifə idi. Bu səhifə qaranlıq yollarda yorulmuş və tükənmiş bir xalqın gələcəyə ümidlə baxması və günəşli bir günə oyanışı idi. Mərd, vətənpərvər millətin güclü və sarsılmaz siyasəti olan hökmdara ehtiyacı vardı. Nəzər saldığımız bütün tarix boyu bir çox məyus olduğumuz hallarla rastlaşdıq. Amma bir xalq olaraq heç bir zaman boyun əymədik və sarsılmadıq. Sanki əsrlər boyu güclü bir sərkərdənin gəlişini gözləyirdi xalqımız. Ulu öndər yalnız Azərbaycan tarixində deyil, bütün dünya tarixində güclü bir lider idi. Xalqa verdiyi töhfələr bir sivilizasiya üçün yenidən quruluş və yenidən oyanış idi sanki.

Bu irsi davam etdirən, azərbaycanlı anlayışını bütün dünyaya beynəlxalq tribunadan bəyan edən, bütün çətinliyi və ağırlığıyla bu çətin missiyanı öz üzərinə götürən, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tarixdə silinməz

bir iz qoydu. Prezident İlham Əliyev böyük tarixi şəxsiyyət, böyük dövlət xadimi və böyük strateqdir. Dünyanın siyasi tarixinə nəzər saldıqda xalqların taleyinə, bəşəriyyətin gələcəyinə təsir edən həlledici faktorlar sırasında lider amilinin rolu xüsusi olaraq diqqəti cəlb edir. Tarixi təcrübələr göstərir ki, tarixi-siyasi, coğrafi şəraitindən, siyasi sistemin xüsusiyyətlərindən asılı olmayaraq, liderlik fenomeni xalqların gələcək taleyində, milli dövlətin inkişafında aparıcı rola malikdir. Prezident İlham Əliyev strateji hədəfləri reallığa çevirməklə möcüzə yaratdı. Milli dövlətçilik tariximizin inkişaf mərhələləri çoxəsrlik keçmişə dayanır və olduqca keşməkeşlidir.

XX yüzilliyin sonunda yenidən müstəqilliyə qovuşan Azərbaycan xalqı qədim və zəngin dövlətçilik tarixinə malikdir. Tarixi Azərbaycan torpaqları müasir sivilizasiyanın inkişafa başladığı ən qədim mədəniyyət mərkəzlərindən biridir!







# Sarmaşıq

Günel MEHRİ

Əvvəllər heç önəm verməmişdi ki, əslində, bütün münasibətlərin ilk təması əllərlə başlar, əllərlə də sonlanar. Demə əllərin rəqsi çox önəmliymiş və yalnız iti gözlər bu ani və mübhəm rəqsdən xəbərdar ola bilərdi. Elə soyuqluğu da ilk əllər duyurmuş. Daxili aləmdə baş verənlərin əks-sədası əvvəlcə onları dondururmuş. Nə gözəl deyilib: “Qızınmağa yerin varsa, üşümək də gözəldir...”

Donurdu əlləri və qızınmağa doğma bir yer tapmırdı. Son zamanlar hara getsə də, nə geyinsə də, bu soyuq əllərindən çəkilmirdi. İsti içkilər içirdi,  əlcək taxıb əllərini qızdırmağa çalışırdı, amma xeyri yox idi. Zamanla başa düşdü ki, bu soyuğun kökü xaricindən deyil, daxilindən qaynaqlanır. Çünki üşüyən bədəni yox, gündən-günə tənhalaşan qəlbi idi. Birdən elə qəribsədi ki. Əllərinin onun əlləri ilə qucaqlaşmasından - sarmaşıq kimi bir-birinə sarılmasından ötrü burnunun ucu göynədi... Sarmaşıq kimi... Sarmaşıq... Aşeka... İlk dəfə bu kəlməni ondan eşitmişdi...

-Sevgi nədir, səninçün?

-Sevgi... Nə bilim. Hərədə bir cür olur bu hiss. Mənə görə sarmaşıqdır...

-Ha, ha, ha, ha... Sarmaşıq?

-Aha. Sar-ma-şıq!

-Sarmaşıq niyə? Gül, çiçək, kəpənək kimi gözəlliklər dura-dura, niyə sarmaşıq?

-Hm.. Bunun fəlsəfəsi var... O dediklərin gözəldir e, amma sevgi bənzətməsi üçün çox adidir.

-Məncə, çox həyasız bitkidir sarmaşıq.

-Ola bilər. Amma həyalı sevgi də an-

caq nağıllarda olur. Leyli-Məcnun kimi... Bax məsələn, güllər, ağaclar düz bitir. Amma sarmaşıq... O, ağaca sarılır, sarıla-sarıla böyüyür, ağacla bütövləşir. Və bir gün ağac və sarmaşıq vəhdətə çevrilir. Fikir versən, sarmaşıq sözünün kökündə belə sarılmaq, sarmaq var.

- Bağımızda görmüşdüm. Sarmaşıq yazıq qızılgülə elə sarılmışdı, gül əməlli-başlı saralmışdı. Nə qədər elədim, ayıra bilmədim güldən.

-Bəs nə deyirəm. Sevgidə də elə olur. Biri digərinin sevgisindən qidalanır. Əslində, bitkilərin xarakterində insanlara aid çox xüsusiyyətlər var. Fikir vermisən, insanlar aşiq olduqları dönəmdə sarmaş-dolaş gəzirlər. Əllərini, barmaqlarını bir-birinə kilidləyirlər. Bərk-bərk sarılırlar. Bax belə…

Onun əllərini əllərinə alır. Barmaqlarını bir-birinə keçirir. Sonra əlləri aşağı-yuxarı, yanlara doğru hərəkət etdirir, bir növ rəqsdəki kimi.

-Sarılmaq niyə bu qədər önəmlidir ki?

-Çünki sən sarıldıqda qarşı tərəfi həm vücud, həm ətir, həm də ruh olaraq duya bilirsən. Onu nə qədər arzuladığının fərqinə varırsan...

-Axı arzulamağın kökündə ehtiras durur...

- Ehtiras da sevgiyə aiddir. Sevgini ehtirassız təsəvvür etmək mümkün deyil...

-Belə de...

O vaxt onu haqsız çıxarmaq istəyirdi. Amma indi qəlbinin dərinliyində haqlı sayırdı. Və ən pisi o idi ki, özünə belə etiraf etməkdən çəkinirdi bu acı həqiqəti... Sən demə, həyatımızın ən qlobal çətinliyini "yox" əvəzinə "hə", "hə" əvəzinə "yox" deyəndə yaşayırıq. Sadəcə, bunu çox gec başa düşmüşdü. Onu itirdikdən sonra...

-Eşq sözü var a... Bilirsən ki, onun da kökü ərəbcə aşeka sözünə bağlıdır?

-Hmm. Eşitməmişdim. Aşeka... Nə qəribə sözdür. Türkcə aşk sözünü xatırlatdı.

-Hə də. Elə aşk sözü aşeka sözündən gəlir. Aşeka ərəbcədən tərcümədə sarmaşıq deməkdir. Aşeka, yəni ağaca sarılıb onu qurudan sarmaşıq...

-Nə məntiqsiz fikirdir. Eşq niyə qurutsun ki... Eşq insanı bəsləyir, böyüdür, gözəlləşdirir axı... Özün demirdin, son vaxtlar gül kimi açmışam, işıq saçıram. Məncə, bunlar hamısı eşqdəndir...

- Yenə də deyirəm, gün kimi işıq saçırsan.

-Ey eşq, sən nələrə qadirsənmiş...

Mübahisələri bitər-bitməz yenidən bərk-bərk sarıldılar. Sonra tanqo oynadılar. Düzdür, kinolardakı kimi alınmadı. Bir az sınıq-salxaq idi, amma olsun. Əsas təbii idi, içlərindən gələn kimi. Rəqsin arasında dodaqlarını düz qulağına yaxınlaşdırıb pıçıldadı:

-Deyirlər, tanqo sevgi rəqsidir. Mənsə deyirəm, sevgi özü elə tanqo ritmindədir. Sevəndə biz bütün enişləri, yoxuşları, sıçrayışları və zirvəsi ilə əsl tanqo həyəcanı yaşayırıq.

Qadın ovcu ilə onun ağzını qapadı:

-Onda susss. Gözlərini yum. Sadəcə ritmə qulaq ver... Eşqin ritminə...

Qarşıda hələ çox rəqsləri olacaqdı. Bədənlərinin ahəngi, qəlblərinin döyüntüsü, əllərinin sarılması çox ritmlərdə dəyişəcəkdi. Bu, çox möhtəşəm bir enerji mübadiləsi idi. Bu ritmlərdə gözlə görünməyən, yalnız ikisinin hiss edə bildiyi qızılı qığılcımlar keçəcəkdi əllərinin arasından. Və bu hələ sarmaşığın qızılgülə ilk həmlələri idi...

***

İlk dəfə idi üzbəüz durduqları. İkilikdə söhbət etdikləri. Ətrafdan adamlar keçirdi. Heç kimin fərqində deyildilər. Elə bil ikilikdə başqa bir zaman kəsiyinə, ya da məkana transfer olunmuşdular. Heç kimin onları görmədiyi və duymadığı bir yerə...

-Niyə elə baxırsan mənə?

-Sarılmaq istəyirəm, bərk-bərk sarılmaq və buraxmamaq!

-Niyə?

- Bunun niyəsi olur ki. Yəqin, antennalarımız tutur deyə. Bu qarşısıalınmaz bir dalğadır. İki insanın energetik bağlantısı... Üstəlik, tibb də deyir ki, bol-bol qucaqlaşın. Onda bütün xoşbəxtlik hormonları çoxalır. Endorfin, seretonin...

-Yaxşı.

-Nə yaxşı?

-Qucaqla məni. Elə burda. Elə indi.

-Axı baxırlar.

-Fərqi yoxdur. Baxsınlar. Mən bu anı yaşamaq istəyirəm.

-Qorxmursan?

-Yox. Biz varıq. Başqa heç kim...

Sarıldılar. Düz yolun ortasında. Günün günortasında. Şəhərin ən qaynar nöqtələrindən birində. Bundan əvvəl də dəfələrlə qucaqlaşdıqları insanlar olmuşdu. Amma heç kimlə, ən yaxınları ilə də bu təmasdan sonra belə rahat, güvənli və sakit hiss etməmişdilər. Bütün hüceyrələrinə həzin-həzin doğmalıq hissi yayılırdı. İndi fərqinə varmışdılar ki, sarılarkən vücudun bütün nöqtələri birləşirmiş. Və bir də ürək döyüntüləri... Onun ürəyinin öz bədəninin sağ boşluğunda, öz ürəyinin onun bədəninin sağ boşluğunda həmahəng guppultusu eşidilirdi. Elə bil bu ürəklər həmin boşluqları doldurmaq üçün imiş... Yerinə oturan iki uyğun pazl kimi...

-Deyirlər, qədim-qədim zamanlarda hər insanın vücudunda qadın-kişi birgə yaşayırdı. Özü də çox xoşbəxt. Sonra bir gün nə etdilərsə, Tanrının qəzəbinə tuş gəldilər və O, bu vəhdəti iki yerə ayırdı. Beləcə, qadın ayrı, kişi ayrı bədəndə oldu. Amma o vaxtdan bu yarımçıqlıq hissi onların ruhundan çəkilmədi və bu yarım canlar bütövləşmək üçün başladılar öz yarını axtarmağa. Və yalnız nadir hallarda onlar rastlaşıb bir-birini tanıyırdılar. Və onda heç kimlə olmayan qədər tamlıq, bütövlük, vəhdət hissi yaranırdı.

-Bizdəki kimi?

-Hə...

-Bəs başqaları ilə belə olurdu?

-Bizdəki kimi?

-Yox... Oxumuşdum ki, bu cür qəlb bağı ilə bağlılıq ancaq alov əkizlərində olur.

Alov əkizləri... Ruh əkizləri barədə məlumatı vardı. Bilirdi ki, ruhən yaxın hiss edən, düşüncələri üst-üstə düşən insanlardır ruh əkizləri. Amma alov əkizləri ilə bağlı heç nə bilmirdi.

Ayrıldıqdan bir xeyli sonra internetdə bu ifadə ilə qarşılaşdı. Maraq güc gəldi. Başladı araşdırmağa. Bu haqda çoxlu məqalələr oxudu, videolara baxdı. Alov əkiziylə rastlaşmış yüzlərlə insanın şərhini nəzərdən keçirdi. Hətta biriylə yazışdı da. Müqayisələr aparmaq, içini gəmirən suallara cavab tapmaq üçün. Və sualları cavablandıqca məyus oldu. İçindən ona zəng edib dəli kimi qışqırmaq keçdi: "Düz deyirdin. Yenə də haqlı çıxdın. Alov əkizləri mövcud imiş... Bizim kimi…"

Rusiyada yaşayan bir özbək qadın idi alov əkizləriylə bağlı yazışdığı şəxs. Özündən 10 yaş kiçik alov əkizi ilə virtual aləmdə rastlaşanda ayrı-ayrı ölkələrdə

yaşayırmışlar. Millətləri, həyatları fərqli idi. Qadın evli olmuş, ayrılmışdı. Övladı vardı. Kişinin də öz ailəsi. Bu münasibət mümkünsüz görünürdü əvvəl-əvvəl. Onları məsafələr ayırırdı, amma telepatik dalğalarla bir-birlərinin fikirlərini oxuyurdular. Təzə-təzə bunları təsadüf saysalar da, zamanla bu təsadüflərin zərurətdən doğduğu ilə barışdılar. Sonra aralarında yaranan qarşısıalınmaz doğmalıq hissi bütün bütləri yıxdı, sərhədləri çeynədi. Dəyişdilər, bir olmaq üçün çox vərdişlərindən vaz keçdilər. Nəhayət, birləşib iki qopmuş pazl kimi bütöv oldular. O vaxtdan illər ötüb. Amma eyni həyəcan, eyni doğmalıq hissi onları tərk etmir.

-Bəs hamı tapır alov əkizini?

-Yox. Çox az adam alov əkizi ilə qarşılaşa bilir. Amma görən kimi tanıyır. Fitrətdən gələn bir doğmalıq hissi yaranır elə ilk baxışdan, ilk sözdən. Amma ən önəmlisi qarşılaşma deyil. Uzlaşmadır. Çox vaxt mümkünsüz olur bu insanların münasibəti. Yəni cəmiyyət qanunlarına zidd görünür. Bax onda seçim qarşısında qalırlar...

Həqiqətlə burun-buruna gəlmək bəzən sarsıdıcı olur. Sarsılmışdı bunları öyrənəndə. Özbək qadın yazırdı ki, bu qarşılaşma zamanı eşqin elə bir halı yaşanır, sən öz əksinə baxırsan o insana baxanda. Güzgüdəki kimi. O qədər bənzər və o qədər də fərqli görünürsüz ki, bir növ qaranlıq tərəfinlə qarşılaşırsan. Həyatın, düşüncələrin, qanunların, olmazların dəyişir. İçindəki qadın enerjisi ilə tanış olursan. Çünki alov əkizinlə qarşılaşma bütünlüklə yenilənmədir. Və bütünlüklə təslimiyyətdir.

-Təslimiyyət…

-Hə. Eşq - başdan sonadək "sənə təslim oluram" deməkdir, «özümü, ruhumu, qəlbimi, vücudumu sənə verirəm" deməkdir. Bu elə bir bağlılıqdır ki, ağıl nəzarətdən çıxır. İngilis dilində bu ifadə "falling in love" kimi çox dəqiq səslənir. Yəni eşqin içinə düşürsən, yıxılırsan. Onda həll olursan. Katarsis baş verir. Beynindəki əlavə düşüncələrdən, neqativ hisslərdən arınırsan. Və yalnız bu katarsisdən sonra eşqin zirvəsinə yüksəlmək mümkün olur…

-Bəs bir-birini tapandan sonra ayrılanlar?

- Əlbət ki, ayrılanlar da olur, qovuşanlar da. Bu, tərəflərin mücadiləsinə bağlı. Amma ayrılsalar da, bütün sonrakı münasibətlərdə bir boşluq, natamamlıq hissi qalır. Yəni alov əkizinin ruhundakı yeri heç vaxt dolmur…

***

Kafedə "Lovers in Paris" melodiyası. Üzbəüz oturub sadəcə baxışırlar. Baxışları danışır, dodaqları susur. Əlləri də fincandakı içilməmiş çay kimi soyuqdur…

-Özün də bilirsən… Olmur. Alınmır…

-Bilirəm… Ruhlar eyni, yollar fərqlidir…

-Hə… Bəlkə…

-Məncə də…

-Sənin üçün darıxacam.

-Mən də…

-Yolun açıq olsun.

-Xoşbəxt ol…

Əlini uzadır, bir anlıq donmuş əllləri qovuşur. Son dəfə...

***

Bağdadır. Rəngi-rufu saralıb. Bir tərəfdə samovar pıqqıldayır, bir tərəfdə radioda musiqi gedir: "Gülüm, günün güllərimi qurutdu...." Diqqətlə sarmaşıqlara baxır. Qızılgülü dövrəyə alıblar. Gül də solub

bu sıx təmasdan. Ürəyi sıxılır. Bağ qayçısını götürüb sarmaşıqları doğrayır. Sonra solmuş gülün kökünü bir dibçəyə basdırıb tozlu əlləri ilə tərini silir. Yavaş-yavaş nəfəsi aramlaşır. “Qoymayacam quruyasan... Sən hələ çox gül açacaqsan...”

...Günlər keçir. Gül yenidən qönçələyir. Dibçəyi sulaya-sulaya gülümsünür...

***

Metro. Qatar qaranlıqdan işığa çıxıb dayanır. Sərnişinlər qatara minmək üçün vaqonlara yaxınlaşır. Bir anlıq gözləri qarşılaşır. Şüşənin arxasından baxışları bir-birinə ilişib qalır.

“O...”

“Hə, odur...”

“Necə arıqlayıb...”

“Hm... Saçları ağarıb...”

“Qapılar açılır”

-Ooo. Yenə də qarşılaşdıq...

-Hə... Gözləmirdim.

- Taleyin qəribə oyunları varmış. Neçə il olar görüşmədiyimiz?

-İnan, heç bilmirəm... Necəsən?

- Hər şey yaxşıdır. Xaricdən yeni qayıtmışam.

- Eşitdim, evlənmisən...

-Hə. İki qızım var. Birinin adı Sevgi, o birinin adı Eşq.

-Allah qorusun. Nə gözəl.

-Nəyə güldün?

-Heç... Aşeka yadıma düşdü...

-Hə... Aşeka... Demək, yadındadı...

-Ana, düşmürük?

-Az qalıb, Simurq. Darıxma.

-Oğlundur? Allah saxlasın. Nə maraqlı adı var.

-Hə... Simurq quş adıdır.

-Deyəsən, Simurq əfsanəsi də var. Öz küllərindən doğulan quş...

-Hə... Əfsanəyə görə, nə qədər yansa da, hər dəfə daha gözəl, daha parıltılı, daha güclü olur...

-Bu arada, əla görünürsən. Saçların da dəyişib, qısalıb...

-Hə... Çox sağ ol. Deyirlər, qadın ilk saçlarına qıyır stressə düşəndə... Saçlarının ucuna yığılmış neqativ enerjidən azad olmaq üçün.

-Hm...

Qapılar açılır.

-Di salamat qal. Səni gördüyümə şad oldum.

-Mən də... Allaha əmanət ol.

İlk dəfə vidalaşanda əl verib görüşmürlər. Sadəcə əl edirlər bir-birlərinə. Əvvəllər heç önəm verməmişdilər. Sən demə, bütün münasibətlərin ilk təması əllərlə başlayır, əllərlə də sonlanır. Demə, əllərin rəqsi çox önəmliymiş və yalnız iti gözlər bu ani və mübhəm rəqsin sirrindən xəbərdar ola bilərdi...

“Qapılar bağlanır. Növbəti stansiya “Sahil”.

Qapının şüşəsindən son dəfə baxışırlar. Beyinlərindən eyni fikirlər keçir: “Hm. Bu da son... Bəlkə? Amma yox... ”

Qapılar bağlanır və bu ani görüş də keçmişdəki bütün görüşləri kimi qatarın sürətlə irəlilədiyi qaranlıq tunelə qarışır. İkisi də təsirləniblər, amma dodaqlarına xoş təbəssüm qonub. Göz təmasları bitsə də, ürəklərində yarım qalmış dialoqu davam etdirirlər. Əvvəlki vaxtlardakı kimi:

“Səncə, niyə alınmadı bizdə?”

“Kim deyir ki, alınmadı?”

“Yəni nəticə olmadı da.”

“Baxır nəticə dedikdə nəyi nəzərdə tutursan? Məsələn, mən sevgi prosesinin

özünü sevirəm. O duyğunu yaşamağı. Sevinci ilə, hüznü, həsrəti, iztirabı ilə... Belə olanda son nəticə o qədər də böyük rol oynamır.”

“Demək, bu fikir doğru imiş? Ayrılıq da sevgiyə daxildir...”

“Hə. Kim deyibsə, dəqiq deyib. Yəni zamanı gələndə buraxmaq lazımdır. Bitirəndə də gözəlliklə bitirmək, gedəndə də sakitcə getmək, olub-keçənləri çirkinləşdirmədən, uzatmadan sağollaşmaq lazımdır. Dostluq olsun, sevgi olsun, ailə olsun, bu, belə olmalıdır. Yəni sevginin bir üzü ayrılıqdır, gülüm...”

“Yəqin ki, sevginin böyüklüyü də bunda imiş. Əlində bərk-bərk tutub didişdirmək əvəzinə, daşıya bilmədiyin bütün münasibətləri  həyatın axarına buraxasan gərək... Sarmaşıq məhv etməmiş...”

“Hə... Sarmaşıq məhv etməmiş...”



# XX əsr Danimarka şeiri



***İlk dəfədir ki, Azərbaycan oxucusuna bu sayda Danimarka şeiri təqdim edilir: Səlim Babullaoğlu və türk şair-tərcüməçi Hüseyin Duyğunun təqdimatında.***

**Knud Sörensen/ Knud Sørensen**

Görkəmli Danimarka ədibi, şair, ssenarist. 10 mart 1928-ci ildə Yörrinqdə anadan olub. Ötən əsrin 60-cı illərindən çap olunmağa başlayıb, 1961-ci ildə "Eksplosion"da şeirlərilə debüt edib. Romanlar, esse və poemalar, radiopyeslərin müəllifidir. "Partlayış" (1961), "Hamam otağında" (1999) və başqa kitabları dərc edilib. "En tid" (1997) romanı eyni ildə Danimarka Naşirlər assosiasiyasının "Kritikerprisen" mükafatına və "Weekendavisen" ödülünə layiq görülüb. Danimarka Agentliyinin ömürlük qrantını alıb. 2008-ci ildə "Yalnız sonluq çatışmır" adlı bioqrafik memuar-romanı dərc edilib.

1958-ci ildən Morse adasında yerölçən-topraqşünas işləyib.

2022-ci il sentyabrın 26-da 98 yaşında dünyasını dəyişib.

**Düşünürəm**

ki, bu çoxuna tanışdı.
Səhərdi
və sən yataqdasan
və sanki
bir hissən
azad olmaq istəyir,
qurtulmaq istəyir
köhnə vərdişlərdən
yenilərinin ümidiylə,
unutmaq istəyir
masandakı
açıq gündəliyi.

Amma
həmişə olduğu kimi
işıq qırsaqqız olub,
səni yeni gün səsləyir
bütün o qarışıq işləriylə,
hamısı da bu gün üçün
nişanlanıb.

Başqa tərəfdən,
etiraf edirəm:
mən hələ də
gündəliyə
bidəfəlik bənd olmayacağım
o günü yaxınlaşdırmaq üçün
əldən-ayaqdan getmirəm.

**Benni Andersen/**
**Benny Andersen(1929-2018)**

Görkəmli Danimarka şairi, yazıçı, esseist, pianoçu və bəstəkardır. Eyni zamanda tanınmış uşaq yazarıdır. "Musiqili ilan balığı" (1960), "Portret qalereyası" (1966), "Sonuncu və başqa şeirlər" (1969), "Burda, qoruqda" (1971), "Körpüdə" (1981), "Şaqal və əqrəblərin rəqsi" (1991),"Mənim mühacir həyatım" (1993), "Qucaqlaşma" (2009), "Çılpaq kişi" (2010) və başqa şeir, nəsr kitablarının müəllifidir. Danimarka Akademiyasının həqiqi üzvü, uşaq ədəbiyyatı üzrə Mədəniyyət Nazirliyinin mükafatçısıdır.

**Aydın gecə**

Nə qədər üşüsələr də quşlar,
havanı bir az da olsun isidirlər.
Tərpənir ipdən asılı köynək,
bədənsiz də görür öz işini:
adamsız, xoşbəxt köynək.
Biri varmış, biri yoxmuş,
bir-birini çox sevən
bir cüt corab varmış,
amma bir tayı bir ayaqda,
bir tayı da o biri ayaqdaymış.
Böyük deyil, bəlkə, sevinc –
amma ayıq-sayıq –
quruldayan qurbağa, ötən bülbüldür.
Tək gözlənən şey istilikdir:
bülbül bölüşsün deyə
kolların arasında.
Doğrudan da, həyat var bu dünyada…

**Uffe Harder (1930-2002)**

Görkəmli Danimarka şairi, tərcüməçi, redaktor, ədəbi tənqidçi. 29 sentyabr 1930-cu ildə anadan olub. Modernist və sürrealist yazı manerasına sahib olub, ötən əsrin 60-cı illər Danimarka modernist poeziyasının mərkəzi fiqurlarından olub. 1954-cü ildə "Partlayan dayaqlar" şeir kitabı ilə ədəbi debüt edib. "Pozisioner" (1964), "Dünya sanki..." (1979), "Orda yol olmalıdır" (1984), "Sükutda səs" (1993) və b. şeir kitablarının müəllifidir.

Bekket, Flober, Klod Simon, Şeymas Xini, Fuentes və başqalarının əsərlərini Danimarka dilinə çevirib. Danimarka Yazıçıları Assosiasiyasında, Danimarka Pen Təşkilatında, Statens Kunstfonds Ədəbiyyat Komitəsində çalışıb. "Hvedekorn" və "Louisiana Revy" jurnallarının redaktoru olub. 1973-cü ildə Danimarka Akademiyasının həqiqi üzvü seçilib. 1978-ci ildə "İndi və indi" şeir kitabına görə "Drachmmaniegatel" təqaüdünü alıb, bir çox ədəbi mükafatlara layiq görülüb.

26 aprel 2002-ci ildə vəfat edib.

**Daş**

Gözünə girən
böyük bir daşı
dığırlada-dığırlada
yoxuş yuxarı
təpəyə çatmadan
buraxsan üzüaşağı,
daş öz-özünə
aşağı yuvarlanır.
Onda daşı
təkrar yenə yoxuşa

çıxartmağa çalışanda
təpəyə çatmadan
daş yenə öz-özünə
üzüaşağı yuvarlanır.
Bəlkə də, birini əzir...
Gücün çatan qədər
davam edə bilərsən bunu,
davam etməsən də, olar.

**Erik Stinus (1934-2009)**

Görkəmli Danimarka şairi, yazıçı, tərcüməçi. 22 avqust 1934-cü ildə anadan olub. Hindistan, Birma, Pakistan, Şri-Lankada yaşayıb. 1958-ci ildə "Qrenzeland" şeir kitabı ilə ədəbi debüt edib.

"Hvedekorn" , "Vindrosen" , "Viewpoint", "Socialdemokraten." , "Aktuelt" , "Politisk Revy" , "Ekstrabladet" , "Politiken", "Dagbladet Arbejderen", "Kommunist" və sair jurnal və qəzetlərlə əməkdaşlıq edib, yüzlərlə məqalə, kitablar üçün rəylər yazıb. Bir müddət Kommunist partiyasının üzvü, kommunist hərəkatının fəallarından biri olub.

"Sərhəd vəziyyəti" (1958), "Göylərin altında yer" (1979), "Vətənin guşələri" (1998), "Salam, mən havayam" (2008) və başqa kitabların müəllifidir.

1951-ci ildə Ümumdünya Gənclər Festivalında böyük türk şairi Nazim Hikmətlə görüşmüş, ondan ciddi şəkildə təsirlənmişdir. Sonradan Nazim Hikmət, Orxan Vəli, Fazil Hüsnü Dağlarca, Vədat Dolkay, Kamal Özər və başqa türk şairlərinin şeirlərini Danimarka dilinə çevirib.

Qalsted-Kirk-Şerfiq (1981), Beynəlxalq Nazim Hikmət Fondunun mükatına (2009), Drahman Qrantına və başqa bir çox ədəbiyyat və sənət mükafatlarına layiq görülüb.

13 noyabr 2009-cu ildə vəfat edib.

**Açıqlamalar**

*Daniel və İnaya*

Bəzi şeyləri saxlamaq lazımdı sabaha.
Gerçəkçi ol: bu işi bitirə bilməzsən;
Hava soyuqlaşmağa başladı qəfil,
Tozağaclarına endi, qondu günəş.
Sabahkı gün bir neçə dəqiqə
daha qısa olacaq bu gündən.
Qurursan zəngli saatı, durmaq və
hərəkətə başlamaq üçün günəşlə birlikdə.
Sürükləyir səni gözləyən yuxuya And
dağlarından nəfəsli alətin çalğısı kimi
səsi bayquşun,
İşıqlaşanda üşüyüb daldığın yuxuda
qapılıb getdiyini görürsən bomboz sulara.
Dalğalar yüksəlir, daha sönük görünürlər
sahilin işıqları hər dəfə əl-qol atdıqca.
Zəng çalır saat bu an.
Sürməli çalıquşları başlayır
astadan dilləşməyə,
Bir erkək, bir dişi, taclı  kralla kraliçadır
sanki iyirmi illik bir qara
küknar ağacında.
Və qızılı yarpaqları yayılmış
tozağaclarının çəmənlərə, səpilmiş,
sovrulmuş, rəqs edən mığmığalar –
iz buraxıb donmuş torpaqda hamısı.
Saxlamaq lazımdı bəzi şeyləri yenə də.
Başla, oxu nəğməni, Yeni il.

**Lin Nilsen/ Lean Nielsen (1935-2000)**

Tanınmış Danimarka şairi və nasiridir. 28 yanvar 1935-ci ildə Kopenhagendə anadan olub, uşaqlığı Nörrebroda keçib. Svedenborqda dənizçilər məktəbində təhsil alıb. "Xanım Yensenə ithaf" şeir kitabı ilə 34 yaşında ədəbi debüt edib. Eyni zamanda uşaq kitabları və romanların müəllifi kimi şöhrət tapıb, radio-pyeslərin prodüsseri olub.

Hələ uşaq ikən atası onu və anasını atıb gedib. Böyük mənəvi və maddi sıxıntılar, bir-birini əvəzləyən iş yerləri ona böyük təcrübə qazandırıb ki, sonradan onların bir çoxu şeir, roman və memuarların birləşdiyi "Zorakılıq və zəriflik balladaları"nda (1976) işıq üzü görüb, müəllifinə böyük şöhrət gətirib.

Əsərlərinin əsas qəhrəmanları zəhmətkeş adamlar, "kiçik insanlar", əsas mövzusu isə "kiçik hadisələr"dir.

1990-cı ildə Türkiyədə keçirilən "Danimarka-Türkiyə Şeir Gecələri"ndə iştirak edib.

2000-ci ildə vəfat edib. Ölümündən sonra məktubları dərc edilib.

**Bülbüllər**

Helsingördə
stansiyanın olduğu
Sahil yoluna doğru
gedirdik.

İçində xalamın hədiyyəsi
iki bülbüllə
qəfəs vardı əlimdə.

Qəfəsin altı
qopdu qəfildən.
Qəfəsdən qurtulan quşlar
dənizə doğru uçuşdular.

Və bir az uçmuşdular ki,
qağayıların hücumuna uğradılar.

Əvvəl kiçik, sarı tükləri
uçuşdu havada,
sonra yox oldular.

Bülbüllərin bu qısa azadlığı
çox üzdü məni.

**Peter Poulsen/Peter Poulsen**

Görkəmli Danimarka şairi, ssenarist, dramaturq, tərcüməçi Peter Poulsen 1940-cı ildə anadan olub. Otto Gelsted mükafatına (1996), Danimarka Tərcüməçilər Birliyinin "Şərəf ödülü"nə (2000) və başqa nüfuzlu ədəbiyyat mükafatlarına layiq görülüb. "Cırcıramalar oxuyur" (1996), "Titrlər" (2010), "Sükutu gizlincə dinləyərkən" (2015) və.s. şeir topluları dərc olunub.

2015-ci ildə "Lindhart və Ringhof" nəşriyyatı Peter Poulsenin sayca 25-ci şeir kitabını çap edəndə şair 75 illik yubileyini qeyd edirdi. Daha əvvəl Poulsenin, Kopenhagen kitabxanasına baş çəkən redaktoru Lene Vissinq şairin aktiv fonddakı kitablarının axtarışına çıxmışdı və şairin 21 kitabını tapa bilmişdi. Maraqlıdır ki, kütləvi rəqəmsallaşma dövründə kitabxanalar öz fondlarını heç də həmişə müəlliflərə aid bütün çap məhsulları əsasında deyil, məhz istifadəçilərin maraqlarına müvafiq komplektləşdirirlər. Demək, Poulseni oxuyurlarmış.

Təmkinli ironiya, tənqidçilərin fikrincə, büsbütün qeyri-ənənəvi modernist qanada aid edilən Poulsenin yaradıcılığının və şəxsiyyətinin başlıca keyfiyyətidi. Poulsen sağlığında modernist sayılmağına etiraz etmirdisə də, "qeyri-ənənəvi" sözüylə razılaşmırdı.

**Poeziyanın qələbəsi**

“Bu gen dünyada qardan susqun
heç nə yoxdur”.
Bəs döşəmə üçün şəffaf boya necə olsun?
Ya yun? Yaxşı, bəs dırnaqlar,
pişiyin bığları, daraqlar?

Bəs navalçada illərlə ilişib qalan,
qaranquşlara sevgi duyan dinməz top,
köşkün yanındakı skamya –
bəs onlar
hər şeyi saran sükuta qərq olmayıblarmı?

Siyahını uzada bilərdim,
deyək ki, salfet, markalar,
dodaqlara həsrət dodaq karandaşı
və başqa nələrisə söyləyə bilərdim.
Amma haqlıdır şair,
bu dünyada qardan sakit heç nə yoxdur.

**Laus Strandbi Nilsen/**
**Laus Strandby Nilsen**

Tanınmış Danimarka şairi, sənətşünaslıq tarixi üzrə elmlər doktorudur.

2 dekabr 1944-cü ildə Olborqda anadan olub.

“Tez gəl” (1971) şeirlər kitabı ilə ədəbi debüt edib. “Bir yuxudaymış kimiyəm” (1982), “ Qara divar” (1987 ), “Gülünc yemək və başqa şeirlər” (1989 ), “Boşluq” (1999), “Eşq şeirləri” (2006) və başqa şeir kitablarının müəllifidir.

Ömürlük Statens Kunstfonds qrantına (2013), Danimarka Akademiyasının Beatris Mükafatına layiq görülüb.

**Ovunmaq üçün**

Az öncə dişlədiyim alma
öz dərin, ağ yarasından
deyir ki, mənə:
– Ovunmaq üçün yeyirsən!

Düz deyir alma,
ovunmaq üçün yeyirəm,
ovunmaq üçün yatıram,
ovunmaq üçün işləyirəm...

Ey gözümün nuru,
ovunmaq üçün sevdiyim sevgilim,
bu günlər az da olsun ovunmaq üçün
səni görə bilmirəm.

İndi isə ovunmaq üçün
almaya uyğun tək izahı
elə buraya yazıram:
Ovunmaq üçün yaşayıram!

**Henrik Norbrandt (1945-2023)**

Tanınmış Danimarka şairi və yazıçı. 21 mart 1945-ci ildə anadan olub. Kopenhagen Universitetində ərəb, türk, çin dillərini öyrənib. Uzun müddət Türkiyə, Yunanıstan, İtaliyanı səyahət edib ki, bu da onun yaradıcılığında dərin iz buraxıb. T.S. Eliot, U.Stivens, Q. Ekerlöf kimi böyük şairlərdən təsirlənib.

“Şeirlər” (1966) “Miniatürçü” ( 1967), “Yaxşı ev” (1977), “Noyabr ayında titrəyən əl” (1986), “Finkelşteynin qanlı bazarı” (1983), “Nissen köçür” (1988) və başqa şeir, esse, roman kitablarının müəllifidir.

Danimarka Akademiyasının Böyük Ödülünə (1980), İsveç Akademiyasının Şimal Mükafatına (1990), Şimal Şurasının Ədəbiyyat Mükafatına (2000) layiq görülüb.

2023-cü il yanvarın 31- də vəfat edib.

***

Sevişəndən sonra yan-yana uzanmışıq,
qara sulardakı cizgilərindən
hədsiz zövq alan
iki yanaşı, amma məsafəli,
yelkənli gəmi kimi;
gövdələri mavilikdəki yarışdan
az qala çat verəcək;
ay işığı, çiçək ətri verən gecə küləyi
yelkənləri doldurur;
onlar bir-birini ötüb keçməyə
tələsmir onsuz da,
aralarındakı  məsafə nə artır, nə azalır.

Amma başqa
– yolumuzdan sürüşüb çıxdığımız
gecələr də var ki, güclü işıqlanmış iki
əsrarəngiz layner kimi,
mühərriklər sönülü,
qəribə göy qübbəsi altında,
bir sərnişin belə olmadan yanaşı uzanırıq.
Hər bir göyərtədə skripka orkestri
işıltılı dalğaların şəninə ifa eləyir.

Dənizsə qədim, yorğun,
bir-birinə çatmaq üçün yarışda batan
gəmilərlə doludur.

**Nils Hav / Nils Hav**

Görkəmli Danimarka şairi və nasirdir. 1949-cu ildə Qərbi Danimarkada, fermer ailəsində doğulub.

“Mən kor olanda”,  “Biz burdayıq”, “Kopenhagen qadınları”  və başqa şeir kitablarının müəllifidir. Bütövlükdə 10 şeir və hekayələr kitabı nəşr edilib. Danimarka İncəsənət Şurasının mükafatına layiq görülüb. Əsərləri ingilis, türk, ərəb, fars, serb, alban, kürd və portuqal dillərinə çevrilib.

“The Literary Review”, “Ecotone”, “Exile”, “The Los Angeles Review”, “Absinthe: New European Writing” və b. jurnallarda şeirləri və barəsində rəylər dərc edilib.

Türk şairi Ataol Bəhramoğlu onun haqqında belə yazır: “Zəkasıyla, həssasiyəti ilə, incə ironiyası və orijinal düşüncəsi, ictimai vicdanıyla  o, gözünün baxdığı hər yerdə və hər şeydə şeir qoxusu alır, şeir mövzusu tapır…”

Nils Hav Avropa, Asiya, Afrika, Şimali və Cənubi Amerikanın bir çox ölkələrində, o cümlədən Türkiyədə səyahətdə olub.

Hal-hazırda Kopenhagendə yaşayır.

2022-ci ildə Bakıda gerçəkləşdirilən onlayn “Şuşaya salam” Beynəlxalq Poeziya Marafonunun iştirakçısı olub.

https://www.youtube.com/watch?v=iyT4Oue7Al4

**Bütün çətirlərim İstanbuldan**

Bütün çətirlərimi İstanbuldan aldım,
Bursadan aldığım yeganə çətirdən başqa.
Nə vaxt yolum düşürsə İstanbula,
Havanın günəşli olacağını düşünürəm.
İstanbulun şəkli belədir mənimçün,
daim günəşdə çimir İstanbul.
Amma hər dəfə şıdırğı yağış altında
təzə bir çətir alanda ayılıram sanki.
Bursadan aldığım o tək çətiri də
Budur, İstanbulda unutdum.
Bu məsələdə sirli nəsə var;
Yaman sevirəm bu çətirləri.

**Marianna Larsen/**
**İnger  Marianne Larsen 1951**

Tanınmış Danimarka şairi, yazıçı, roman ustası. 27 yanvar 1951-ci ildə Kalunnborqda anadan olub.  18 yaşındaykən ilk şeirləri "Hvedekorn" jurnalında çap olunub. "Konsentrasiyalar" adlı ilk şeirlər kitabı 1971-ci ildə nəşr olunub.

1970-1975-ci ildə Kopenhagendə təhsil alıb, Çin ədəbiyyatı və dilini öyrənib. 1975-ci ildən özünü bütünlüklə ədəbiyyata həsr edib.

"Ümumi dil" (1975), "Sadə danışmaq lazımdır" (1976), "Siyahıya almalı" (1978), "Özgələrin gücü" (1980), "Başımda bir ümid var" (1981), "Düz" (1984), "Tap məni kim sevir" (1989), "Yadın xoşbəxtliyi" (1990), "Gerçəkliyin qalereyası" (1992) şeir, nəsr kitablarının müəllifidir.

Yaradıcılığının erkən dövründə eksperimentlərə meyilli olub. Daha çox avtobioqrafik məziyyət daşıyan, 1989-1992-ci illərdə qələmə aldığı ilk üç romanı bu "əyalət qızcığazı"nın böyüdüyünü, onun yazıçı olduğunu təsdiqləyib.

ABŞ-də, Böyük Britaniya və Avstraliyada kitabları nəşr olunub və maraqla qarşılanıb.

"Statens Kunstfonds"un fəxri mükafatına (1989),  Danimarka Akademyiasının Böyük Ödülünnə (2022) layiq görülüb.

**Quş və xəbərlər**

Bir quş qonmuşdu
yaşlı şam ağacına –
bir alacəhrə,
az sonra orda deyildi artıq.
– İqtisadi xəbərlər
– Narkotik cinayətlər
– Ticari cinayətlər
– İdari cinayətlər
– Hərbi cinayətlər
– Parnoqrafik cinayətlər
uddu quşu
deyə, düşündüm
radioda xəbərləri dinlərkən.
Bir alacəhrə vardı ağacda,
az sonra yoxdu artıq.

**Piya Tafdrup /**
**Pia Tafdrup**

Məşhur Danimarka şairəsi, nasir, tərcüməçi, dramaturq, 80-cilər nəslinin parlaq nümayəndəsidir. 1952-ci ildə anadan olub. Skandinaviya dilləri və ədəbiyyatşünaslıq ixtisası üzrə Kopenhagen Universitetini bitirib (1977). "Mələklər sükutu pozanda" (1981) şeir kitabı ilə debüt edib.

"Müqəddəs ərazi" (1983), "Anların körpüsü" (1988), "Dağlarda ölüm" (1988), "Büllur meşə"(1992) , "Bələdçi quşlar" (2010) və b. kitabların müəllifidir.

1989-cu ildən Danimarka Akademiyasının üzvüdür. 2001-ci ildə Dannebroqorden Cəngavər titulunu alıb. Eyni ildə nüfuzlu İsveç Akademiyasının Şimal Şurası Mükafatına layiq görülüb. Leonarda Koenin şeirlərini və ingilisdilli Danimarka yazıçısı Karen Bliksenin əsərlərini Danimarka dilinə tərcümə edib.

**Həyatın bəxşişləri**

Həyatın bəxşişləri arasında
bircə
açar qalıb –

sonuncu qapınınkı,
zəncirdədi,
şalvarın cibində.
Atam həmişə
qol saatını qurmağı unudur,
əqrəbləri
vaxtın yoxluğunu
həmişə düz göstərir.
Tibb bacısı
təqvimin səhifəsini dəyişməyib,
ötən günün vərəqindən
zülmət boylanır.
Radioada
klassik musiqi dalğasıdı,
təkərini yapışqanlı lentlə
bənd eləyiblər ki,
başqa dalğalardakı səslər
otağa dağılmasın,
həmişə Bax çalınsın.
Elə indiki bu dəqiqə
məni tutub saxlayır,
özümü unuduram,
təkrarsız sözlərin nəfəsini
duyuram,
anlayıram ki, çox yəqin,
gec, ya tez,
damarlarda duracaq qan
və bu dəli dünyada
hər şeyin bir sonu var.

**Tomas Böberq/**
**Thomas Boberg (1960)**

Danimarka şairi, yazıçı və səyyah. Roskilledə anadan olub. Sürreailist rəssam Yorgen Boberqin/Jorgen Boberg (1940-2009) oğludur. 1984-cü ildəki ədəbi debütündən sonra böyük şöhrət tapıb. 2018-ci ildən Danimarka Akademiyasının üzvüdür.

Bir müddət Peruda yaşayıb, Latın Amerikası və Afrika ölkələrinə səyahət edib, "istismara məruz qalanlar" o dövrdəki yaradıcılığının əsas mövzusu olub. İki dəfə namizədliyi Şimal Şurasının Ədəbi Mükafatına/Nordic Council Literature Prize təqdim olunub. "Üz-gözümə fısıldama" (1984), "Həyatımdan" (1985), "Bizim zamanın tarixçəsi" (1989) , "Marionetin arzuları" (1991) və başqa, bütövlükdə 15-dən artıq şeir kitabının, romanların müəllifidir.

**Su**

Bundan sonrakı şəhərdə
bütün qapılar açıq.
Bundan sonrakı şəhərdə
qəfil boşanar yağış günəşdən.
Bundan sonrakı şəhərdə
ölüm xoş bir rəvayət.
Bundan sonrakı şəhərdə
A ilə başlayar bütün tapmacalar.
Bundan sonrakı şəhərdə tapılar
o mükəmməl məkan.
Bundan sonrakı şəhərdə
gerçəkləşər hər nə istəsək.
Bundan sonrakı şəhərdə
yenə hər şey yalan.

**Budur, qaranlıq çökmək üzrədir**

Budur, qaranlıq çökmək üzrədir.
Bir an oturub
hər yana dağılmış əşyalarımı
"nə edim?" deyə düşündüm.
Yəni daha dəqiq olsam,
belə demək istədim:
– Bu kətil o küncə uyğun,

o
rəsm isə
qarşıdakı divara
asılmalıdı.
Bu keyimiş başla
demək istədim ki,
nəsnələr, bağları qırıl-
mayıbsa,
adlarıyla anılmalıdı.
Bəlkə, çoxdan çıxıb getmək
gərəkdi,
halbuki mən içimdəki
həmin qapını bağladım,
buludlar da itkin düşüb, – sanıram.
İndiysə düşünürəm:
“Mən burda deyiləm artıq.
Bundan sonra olub bitəni
görməyəcək qədər
qatılaşıb qaranlıq...”



Tünzalə AĞABALAYEVA





@ULDUZ_AYLIQ_EDEBIYYAT_DERQISI @TAHSILPUBLISHINGHOUSE

ISNN 0134-522 İNDEKS AZ 1000
QİYMƏTİ: 2 AZN